www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12-13 sentyabr 2015-ci il Şənbə № 202 (6230) Qiymәti 40 qәpik

Xəbər

## Bakıda müdhiş bank fırıldağı

yazısı səh.2-də

Gündəm

### Rəsmi Bakı ilə Avropa İttifaqı arasında böyük qalmaqal



Qurumun Azərbaycandakı nümayəndəsi XİN-ə çağırıldı; Aİ rəsmilərinin səfəri təxirə salındı; **Əli Həsənov:** "Kağız parçasından başqa bir şey deyil"

yazısı səh.5-də

### Əli Kərimlinin ən gənc fəalı da onu tərk etdi

yazısı səh.6-da

*Arzu Nağıyev:*

### "Qərb və Rusiya indi də Moldova uğrunda savaşır"

yazısı səh.9-da

### Xalq artisti Nurəddin Mehdixanlı teatr rəhbərinə qarşı sərt ittihamlar irəli sürdü

yazısı səh.11-də

*Qubad İbadoğlu:*

### "Valyuta ehtiyatlarımızı devalvasiyaya qurban vermək doğru olmaz"

yazısı səh.4-də

### Ölən analar və uşaqlar - baş pediatrın suçu yoxmu...

yazısı səh.10-da

### YDM-lərdə sürücüləri necə soyurlar...

yazısı səh.14-də

### Məhbus qardaşların atasının səhhəti kəskin pisləşdi

yazısı səh.3-də

### Sumqayıtda dələduzluğun qurbanı olan qadın intihara cəhd etdi

yazısı səh.14-də

### Bakıda polisi döydülər: sürücü maşını qoyub qaçdı

yazısı səh.2-də

### AzTV-də İbrahim Məmmədov mübhəmi davam edir

yazısı səh.3-də

## YAP-ın siyahısındakı üç mübhəm

# REKTORLAR MANDATA GÖRƏ VƏZİFƏDƏN İMTİNA ETDİ

Səməd Seyidov, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı və Ağacan Abiyev fəaliyyətlərini Milli Məclisdə davam etdirməyə qərar veriblər; Abel Məhərrəmov niyə BDU-da qalmağa razılaşıb?; seçkidə təxminən 30-dək dairədə deputat mandatı "ancaq ədalət" meyarı ilə müəyyənləşəcək; biznesmen və yaşlılardan siyahıdan kənarda qalanlar var




yazısı səh.8-də

## Qarabağda yeni müharibə təhlükəsi Amerikanı da hərəkətə keçirdi

Ağ Ev təmas xətti boyu topların işə düşməsindən narahatdır, ancaq eyni zamanda separatçı bölgədə "seçkilərlə" bağlı ikili və prinsipsiz mövqe sərgiləyir; **politoloq:** "Hər şey Azərbaycanın xeyrinə inkişaf edir..."

yazısı səh.13-də



Yaşar Quluzadə

### Qarabağ atlarının baxıcısından prezidentə sensasiən müraciət

yazısı səh.12-də



*Bayram Balçı:*

### "Kürdlər Ərdoğana xəyanət etdilər"

yazısı səh.9-da



*Pənah Hüseyn:*

### "Bəzi DSK-lar süründürməçiliklə məşğuldur"

yazısı səh.6-da



# İham Əliyev Qazaxıstana işgüzar səfərə gedib

**Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitində iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfərə gedib. Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Astana şəhərinin hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.**

Prezident İlham Əliyev Qazaxıstana işgüzar səfəri çərçivəsində Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanadakı Müstəqillik sarayında keçirilən təntənəli mərasimə qatılıb.

"AzərTAc" xəbər verir ki, sentyabrın 11-də həmçinin Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammiti keçirilib.

Prezident İlham Əliyev sammitdə iştirak edib. Qazaxıstan prezidenti Nursultan Nazarbayev sammitdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi, Qırğızıstan Prezidenti Almazbek Atambayevi, Türkiyə Böyük Millət Məclisinin sədri İsmət Yılmazı və Türkmənistan baş nazirinin müavini Sapardurdu Toyliyevi qarşılayıb.

Qazaxıstan prezidenti Nursultan Nazarbayev ötən il ərzində təşkilata uğurla sədrlik etdiyinə görə Türkiyəyə minnətdarlığını bildirib. Tarix boyunca türkdilli xalqların birlikdə mühüm uğurlar qazandıqlarını söyləyən Qazaxıstan prezidenti bölgədə sülhün və sabitliyin bərqərar olunması üçün səylərin daha da gücləndirilməsinin, Türk Şurasının beynəlxalq qurumlarda fəal təmsil olunmasının əhəmiyyətini vurğulayıb.

Xəzər dənizinin tranzit qabiliyyətinin artırılmasının, Avrasiya quru nəqliyyat dəhlizi layihəsinin vacibliyini qeyd edən Prezident Nursultan Nazarbayev bu layihələrin Türk Şurasına üzv dövlətlər arasında müxtəlif sahələrdə, o cümlədən turizmin inkişafında mühüm rol oynayacağını bildirdi.

# YAP-ın sabiq deputatı da Avroparlamentə qarşı çıxdı

**Alqış Həsənoğlu:** "Azərbaycan haqqında qəbul edilən qətnaməni 15 aprel tezislərinin davamı kimi dəyərləndirmək mümkündür"

Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi sərt qətnaməyə Azərbaycan hakimiyyət dairələri, həmçinin iqtidarın siyasi kursunu dəstəkləyən şəxslər kəskin reaksiyalar verməkdədir. YAP-ın sabiq deputatı, "Yeni Azərbaycan" qəzetinin keçmiş baş redaktoru Alqış Həsənoğlu musavat.com-a açıqlamasında dedi ki, qətnamədəki ayrı-ayrı bəndlərin üzərində dayanmadan qurumun iş üslubu ilə bağlı bir məqamı xatırlatmaq istəyir.

**A.Həsənoğlu təəssüflə qeyd etdi ki, Avropa Parlamentinin belə qətnamələr qəbul etmək kimi çox acı bir təcrübəsi var:** "Məsələn, bir müddət öncə qurum "erməni soyqırımı"nı tanımaq haqqında qətnamə qəbul etmişdi. Heç şübhə yoxdur ki, 15 aprel 2015-ci ildə erməni təəssübkeşliyi əsasında ortaya çıxan həmin sənəd təkcə Türkiyəyə qarşı deyil, həm də onun təbii strateji müttəfiqi olan Azərbaycana yönəlmiş bir həqarət idi. Əslində 15 aprel qətnaməsi Avropa Parlamentini çox dəqiqliklə xarakterizə edən mükəmməl bir arayışdır. Düzdür, bu iki qətnamənin məzmun forması, strukturu bir-birindən kifayət qədər fərqlidir. Ancaq Avropa Parlamentinin fəaliyyət prinsipi, istiqaməti və məqsədləri baxımından yanaşsaq, Azərbaycan haqqında qəbul edilən qətnaməni 15 aprel tezislərinin davamı kimi dəyərləndirmək mümkündür".

❑ Cavid TURAN

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Bakıda müdhiş bank fırıldağı

"Atrabank"ın filial müdiri və digər işçiləri DYP-nin postuna atılan 145 maşını saxta yollarla sənədləşdirib külli miqdarda kredit mənimsəyiblər - iş məhkəmədədir

**Hazırda həbsdə olan "Atrabank"ın Xəzər filialının müdiri və digər əməkdaşlarının sensasion fırıldağının üstü açılıb. Məlum olub ki, filial müdiri və digər bank əməkdaşları birlikdə 145 atılmış, istifadə olunmayan maşını sənədləşdirərək bankdan külli miqdarda pul çıxarıblar.**




"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsində "Atrabank"ın vəzifəli şəxslərinin cinayət işləri ilə bağlı məhkəmə iclası keçirilib.

Məlumatda bildirilir ki, bankın Xəzər filialının rəhbərliyi - Fikrət İbrahimov, Vüqar Əliyev, Tural Mərdanov və İntiqam Fərəcov bankdan yarım milyon manatdan çox krediti mənimsəməkdə təqsirləndirilirlər.

Prosesdə bankın hüquq departamentinin rəhbəri Şahin Nağıyev ifadə verib. Ş.Nağıyev ifadəsində həbs olunan şəxslərin fəaliyyəti ilə bağlı qalmaqallı ifadə verib.

O bildirib ki, bank tərəfindən keçirilən audit yoxlamalar zamanı pozuntu faktları aşkarlanıb. Məlum olub ki, saxlanılan şəxslər başqasının adına rəsmiləşdirdikləri krediti özləri götürüb.

**Ş.Nağıyevin məhkəmədə dediklərindən:** "İlk olaraq girovda olan 5 maşının saxta yollarla sənədləşdirildiyi üzə çıxdı. Bundan sonra girov qoyulan bütün maşınlarla bağlı DYP-yə sorğu verdik. Cavabdan bəlli oldu ki, filial rəhbərliyi 145 maşını saxta yollarla sənədləşdiriblər. Yəni onlar DYP-nin postunda atılıb qalan, vurulmuş, yararsız vəziyyətdə olan maşınları evakuatorla filiala gətiriblər. Tüfeyli həyat tərzi keçirən tanışlarının şəxsiyyət vəsiqələrini hansısa yolla ələ keçiriblər. Həmin adamların adına onların xəbəri olmadan kredit ayırıb özləri götürüblər".

Bank rəsmisi bildirib ki, araşdırmalar zamanı məlum olub ki, "Mercedes" markalı avtomobildə olduğu qeyd edilən nömrə əslində "Jiquli"nindir. Ş.Nağıyev sonradan vətəndaşların banka müraciət etdiyini və adlarına verilən kreditdən xəbərsiz olduqlarını bildiriblər. Elə bundan sonra da bank əməkdaşlarının yalanı üzə çıxıb.

Ş.Nağıyev hələ də bu cür şikayətlərin gəldiyini bildirib. Bank rəsmisi əlavə edib ki, bu faktlar aşkarlandıqdan sonra 2013-cü ilin aprelində Baş Prokurorluğa müraciət ediblər.

Qeyd edək ki, bu, "Atrabank"la bağlı ilk qalmaqallı hadisə deyil. Bir müddət əvvəl də bankın Nəsimi filialının mühasibi, daha sonra isə həmin filialın xidmət şöbəsinin korporativ müştərilərə xidmət qrupunun mütəxəssisi vəzifəsində işləyən Babayev Həsənağa Məmmədhüseyn oğlu, tanışları Şirinov Tərxan Ceyhun oğlu, Rəhimov Elman Hətəm oğlu, Bayramov Hüseyn Yadulla oğlu, Kərimov Əlirza Abuzər oğlu da həbs edilmişdilər. Onlar başqa vətəndaşların adına kreditlər götürməkdə ittiham olunurlar.

❑ İlkin MURADOV

# Həbsdə olan məşhur iş adamına bəraət verildi

**Azərbaycanda dələduzluqda, mənimsəmə və ya israf etmədə və vergi ödəməkdən yayınmada ittiham olunan iş adamı Müqayis Verdiyevə bəraət verilib.**

Bu barədə "Report"a həmin şəxsin vəkili Adəm Məmmədov bildirib.

Bəraət barədə qərarı Gəncə Apelyasiya Məhkəməsi verib.

Goranboy rayonundan olan iş adamı Müqayis Verdiyev barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və 213.1-ci (vergi ödəməkdən yayınma, xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma) maddələri üzrə cinayət işi başlanılıb. 2013-cü ildə Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə ona 9 il 6 ay həbs cəzası verilib.

İş üzrə zərərçəkən qismində "Fəqan Xidmət" MMC göstərilirdi.

# Xanım qazi cəbhəyə getmək üçün nazirə müraciət etdi

**Qarabağ müharibəsinin xanım iştirakçısı, Qarabağ Azadlıq Təşkilatının sədr müavini Gültəkin Quliyeva müdafiə naziri Zakir Həsənova müraciət edib. Musavat.com-a daxil olan müraciətdə xanım qazi yazıb ki, Silahlı Qüvvələrdə son illərdə həyata keçirilən islahatları, müsbət dəyişiklikləri, ordumuzun güclənməsini, keçirilən təlimləri, Müdafiə Nazirliyinin düşmənə qarşı sərt mövqeyini və addımlarını tam dəstəkləyir:**



"Mən Qarabağ müharibəsində fəal iştirak etmişəm, dəfələrlə yaralanmışam, atəşkəs dövründə də fəaliyyətimi dayandırmamışam, Qarabağ Azadlıq Təşkilatının sədr müavini kimi çalışır, əlimdən gələni edirəm. Mən torpaqlarımızın işğal altında qalmasına dözə bilmirəm, müharibə başlamalıdır. Mən müharibənin ön sıralarında olacağam. Bu gün keçirilən hərbi təlimləri də alqışlayıram və xahiş edirəm ki, məni ehtiyatda olan döyüşçü kimi bu və bundan sonra olacaq hərbi təlimlərə, müharibə başladıqda isə orduya cəlb edəsiniz. Mən Qarabağ uğrunda düşməni öldürməyə və ölməyə hazıram".

❑ ELŞAD

# Kəbədə dəhşətli qəza, çoxlu sayda ölən var

**Kəbədə Ümrə ziyarəti zamanı dəhşətli qəza baş verib, çoxlu sayda ölən var. Musavat.com-un xarici mətbuata istinadən verdiyi məlumata görə, bu gün cümə namazından sonra zəvvarlar Ümrə ziyarəti həyata keçiriblər. Şahidlərin sözlərinə görə, ziyarət zamanı ətrafdakı binaların birindən iri qaldırıcı kran zəvvarların üstünə aşıb. Qəzanın dəqiq səbəbi bilinməsə də, güclü külək və yağış olduğu güman edilir. Onu da qeyd edək ki, Kəbədə təmir işləri aparılmaqdadır.**

APA-nın verdiyi məlumata görə, Azərbaycan vətəndaşları arasında zərərçəkən yoxdur. Azərbaycandan Məkkəyə gedən azərbaycanlı zəvvarlar Mədinədə mehmanxanalara yerləşdirilib.

# Bakıda polisi döydülər: sürücü maşını qoyub qaçdı

**Bakıda yol polisinin döyülməsi ilə nəticələnən insident baş verib. Hadisə sentyabrın 8-də Nəsimi rayonu ərazisində A.Mustafayev küçəsində baş verib. Hadisə şahidlərinin musavat.com-a verdiyi məlumata görə, Dövlət Yol Polisi İdarəsinin əməkdaşları 10 CA 030 dövlət nömrə nişanlı "Niva" markalı maşını saxlayıblar. Səbəb maşında uzaq vuran əlavə işığın quraşdırılması olub. Bu zaman sürücü ilə DYP əməkdaşı baş serjant Səbuhi Zeynalov arasında mübahisə yaranıb. Daha sonra sürücü maşını qoyaraq hadisə yerindən qaçıb. "Niva"da olan sərnişin isə polisi döyərək hadisə yerindən uzaqlaşıb.**

Araşdırma zamanı sürücünün Şamil Rüstəmov olduğu məlum olub. Polisi vuran şəxs isə Məhərrəm Səfərov olub. Hər iki şəxsin saxlanıldığı bildirilir.

❑ İlkin MURADOV

# Şikayətçilər Ömərov qardaşları ilə anlaşdılar

**Vətəndaşlar - Babayev Elçin Zülfüqar oğlu, Həsənov Mehdi Vaqif oğlu və Mikayılov Ədalət Dövlət oğlu "Yeni Müsavat"a müraciət ediblər. Onlar yazır:**

"Biz - Babayev Elçin Zülfüqar oğlu, Həsənov Mehdi Vaqif oğlu və Mikayılov Ədalət Dövlət oğlu ilə birlikdə Mərhum Ömərov Ələsgər Abbas oğlu və onun böyük qardaşı Ömərov İsmayıl Abbas oğlunun tikinti biznesində iş birliyi və bəzi narazılıqlar barədə şikayət məktubu yazmışdıq. Bizim yazdıqlarımız sizin qəzetin 20 dekabr 2014-cü il tarixli saytında dərc olundu və demək olar ki, bütün saytlar həmin məqaləni elə həmin gün yaydılar. Lakin bir qədər sonra biz şəxsən Ömərov İsmayıl Abbas oğlu ilə görüşdük və o, bizə bu məsələlərdən tamamilə xəbərsiz olduğunu tam bir səmimiyyətlə bildirdi. Biz onun adını şikayət məktubumda hallandırmaqla yanlış hərəkət etdiyimizi başa düşdük. Ömərov İsmayıl Abbas oğlu bizdə təmiz, ədalətli şəxsiyyət və nüfuzunu qoruyan bir insan təəssüratı yaratdı.

Bu məktubu yazmağa bizi heç kim məcbur edə bilməzdi. Lakin təmiz bir insan barəsində yanlış məlumat verməyimiz bizi bir insan kimi çox narahat etdi və daxili varlığım məni bu məktubu yazmağa məcbur etdi.

Həmin şikayət də Ömərov İsmayıl Abbas oğlu barədə yanlış məlumatdır *(araşdırma aparılmadığından)* Biz Ömərov İsmayıl Abbas oğlundan üzr istəyir və qəzetinizdə bu barədə təkzib verməyinizi xahiş edirik.

Güman edirik ki, Ömərov İsmayıl Abbas oğlu özünün ağsaqqallığına görə bizi bağışlayar".

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Raqif Kərimlinin səhhəti kəskin pisləşib

## Məhbus atasının ürəyində çat əmələ gəlib; Günay Kazımova: “Tanrı onu bizə bağışladı”

**Hazırda həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin atası Raqif Kərimli infarkt keçirib. Bakı Sağlamlıq Mərkəzində müalicə olunan vicdan məhbuslarının atasının vəziyyəti qənaətbəxş deyil. Bu barədə müsavat.com-a Sirac Kərimlinin həyat yoldaşı Günay Kazımova məlumat verib.**

**O, qayınatasının səhhətindən ciddi narahat olduqlarını bildirib:** “Raqif müəllim əvvəlcədən də ürək ağrılarından tez-tez şikayətlənirdi. Arada deyirdi ki, kürəyim və sinəmdə ağrılar var. Problemlərini yalnız mənə deyirdi. Sentyabrın 5-i idi. Səhər tezdən balaca qızım Əminə təzə aldığımız paltarı götürərək, Raqif müəllimin yanına gedib, deyib ki, baba, bu paltarı mənə atam alıb, atam yaxşı atadır. Sonra da soruşub ki, atam nə vaxt gələcək. Raqif müəllim də tezliklə gələcəyini söyləyib. Uşaq qayıdıb deyib ki, həmişə belə deyirsən, amma atam və əmim gəlmir. Bundan sonra halı pisləşib. Sonradan xəstəxanada bizə dedi ki, uşaq o sözləri söyləyəndə sinəmdə istilik hiss etdim. Maraqlıdır ki, ağrı hiss etsə də, mağazaya getdi. Orada qəflətən vəziyyəti pis olub. Satıcılar kömək ediblər. Dərman içəndən sonra özünə gəlib. Evə gəldi. Baxdım ki, rəngi ağappaq olub. Soyuq su



içdi, bir az özünə gəldi. Qarpız almaq üçün aşağı düşdüm. Qayıdanda gördüm ki, binanın qarşısında təcili tibbi yardım maşını dayanıb. Onda anladım. Evə girəndə mənə dedi ki, xəstəxanaya gedirəm. Həkimlər infarktın əlamətlərini aşkar etdiklərini bildirdilər. Çox ağladım. Onun bizim üçün çox əziyyətləri olub. İki oğlu birdən həbs olundu, bir dəfə olsun ki, özünü sındırmadı. Bizi dözümlü edən də onun qüruru oldu. Biri var ki, övladlarının günahı ola-ola həbsə getsinlər. Biri də var ki, heç bir günahları olmadan iki övladın bir vaxtda həbs olunsun. Ata üçün çox ağırdır”.

**Kərimlilər ailəsinin gəlini qayınatasının ürəyinin arxa nahiyəsində çat əmələ gəldiyini də qeyd etdi:** “Tanrı onu bizə bağışladı. Təsəvvür edin ki, dəqiqələr söhbəti olub. Bir az da həkim gec gəlsəydi, itirə bilərdik. Diaqnozdan sonra aydın oldu ki, ürəyin arxa hissəsində çat əmələ gəlib. Həkim 10 gün müddətində xəstəxanadan çıxarılacağını dedi. Həkimlər son müayinədən sonra vəziyyətinə baxıb qərar verəcəklər. Amma tez-tez ağrılardan əziyyət çəkir. Həkimlər deyib ki, Raqif müəllimə sakit, rahat bir yer lazımdır. Bu da mümkün deyil”.

Qeyd edək ki, Fərəc və Sirac Kərimli qardaşları ötən ilin iyulunda həbs ediliblər. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə Fərəc Kərimli 6 il 6 ay, Sirac Kərimli isə 6 il müddətinə azadlıqdan məhrum ediliblər. Nüfuzlu beynəlxalq təşkilatlar hər iki qardaşı “vicdan məhbusu” kimi tanıyırlar.

❑ **Cavanşir ABBASLI**

# İbrahim Məmmədov mübhəmi davam edir

## AzTV sədrinin müavini “Azərbaycan” qəzetinə yazır, onun barəsində isə fərqli xəbərlər dolaşır

**“AzTV-nin sədri, deputat Arif Alışanov televiziyada sədr müavini vəzifəsində çalışan İbrahim Məmmədovu bu gün işdən çıxarıb”.**

Reaksiya.az xəbər verir ki, bu haqda məlumat AzTV-dən verilib.

Sayt məlumatı dəqiqləşdirmək üçün AzTV sədrinin köməkçisi Fərman Orucovla əlaqə saxlayıb. F.Orucov İbrahim Məmmədovun rəsmən işdən çıxarılması xəbərini təsdiq etməyib: “Sədr müavininin işdən uzaqlaşdırılması haqda mütləq ölkə başçısının sərəncamı olmalıdır. Hələlik isə belə sərəncam yoxdur”.

“Yeni Müsavat” isə xatırladır ki, İ.Məmmədovun məzuniyyətə göndərildiyi bildirilir. AzTV sədrinin müavininin məzuniyyəti sentyabrın 15-də bitir. O, həmin gün işə çıxmalıdır. Daha öncə İ.Məmmədovun kabinetinin əlindən alınması, kanal rəhbərliyi tərəfindən öz hesabına məzuniyyətə göndərilməsi də yayılan xəbərlər sırasında idi. Amma məzuniyyətdə olduğu dönəmdə İ.Məmmədov bir neçə dəfə “Azərbaycan” qəzetində müəllif yazısı ilə çıxış edib. Bunlardan sonuncusu 10 sentyabr 2015-ci ildə yayımlanan “Realist nikbinlik” adlanan məqalədir. Həmin məqaləsində İ.Məmmədov prezident İlham Əliyevin sentyabrın 8-də iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlıq işlərinə həsr edilmiş müşavirəsini təhlil edib.



İbrahim Məmmədov

**“Yeni Müsavat” isə AzTV sədrinin müavininin yazılarına yer verən “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla bu barədə danışdı. B.Sadıqov dedi ki, əvvəla, bu, İ.Məmmədovun köşə yazısı deyil:** “İbrahim Məmmədov da köhnə jurnalistdir, mən də. Bir-birimizi də tanıyırıq. Yazısı var idi, siyasi, aktual mövzuda yazmışdı, dərc etdik. Mən İbrahim Məmmədovla AzTV rəhbərliyi arasında hər hansı ziddiyyət olduğunu bilmirəm. Buna da inanmıram. Qəzetlər hər gün nəsə sorğu-sual yazırlar, filankəsi çıxarır, o birini onun yerinə qoyurlar. İnanmıram ki, hər hansı ziddiyyət olsun”.

**Müsahibimiz İ.Məmmədovun yazısının qəzetdə dərc olunmasında da qeyri-adi heç nə görmür:** “Sizə də deyirəm, sizin bizim qəzetdə gedəsi yazınız varsa, verin, çap edək. Elə mövzuda yazılar veririk. Hər redaktorun zövqü var. Redaktorluq zövqdür. Redaktorda olan səlahiyyət heç kimdə yoxdur. Bir şedevr olsun, versinlər, xoşum gəlməsə, onu yayımlamayacam. Və yaxud da bir yazıdan xoşum gəlmir. Deyirəm ki, 3 gün qabaq belə yazı dərc edilib, vermirəm. Redaktor həm də yaxşı yazı vermək istəyir. Dostlar yazı verəndə deyir ki, əl vurma. Amma deyirəm ki, siz bu günə qədər görmüsüz ki, səhvi düzəltməyim, ya da düz yazını səhv verim? Qələm əlində yazı oxuyanda yadıma düşmür ki, kim nə xahiş edib”.

**B.Sadıqov İ.Məmmədova yazısına görə qonorar ödəmədiyini dedi. Müsahibimizdən “İbrahim Məmmədovla aranızda yazıyla bağlı hər hansı anlaşmanız varmı? Həftədə neçə yazı verir” deyə soruşduq. Dedi ki, İ.Məmmədov onun işçisi olsaydı, aralarında anlaşma imzalayar və həftədə neçə dəfə yazacağı ilə bağlı qərar verərdi:** “O, mənim işçim deyil. Ona görə də elə anlaşmamız yoxdur. Qonorar vermirik. Siz bəyəm hər yazıya qonorar verirsiz? Elədirsə, sizə hər gün müsahibə, açıqlama verirəm. Qonorarımı niyə vermirsiz?" *(Gülür)*

❑ **Sevinc TELMANQIZI**

# Suriyalı qaçqınların Ştutqart ziyarəti



**Samir SARI**

**Yox, kim nə deyir, desin, bu facebook yaxşı şeydir. Düzdür, adamın vaxtını alır, yaxasını səfehqulu adamların əlində qoyur, it-qurdun üstünə hürməsinə şərait yaradır, amma dostlarla ünsiyyəti davamlı edir, informasiya qıtlığı çəkmirsən, xalqı nəyin narahat elədiyini bilirsən, cəmiyyətin ovqatını öyrənirsən və s.**

Uzun sözün kəsəsi, facebook barometrdir, kompasdır, amperdir, termometrdir, voltmetrdir, spidometrdir, təzyiqölçəndir, hələ desən, “Uzi”dir, fonendoskopdur və sair və ilaxırdır. Yaşasın facebook!

İndi keçək mətləbə. Bu sosial şəbəkədə 5 min dostum var, 4900-ü ilə gendən-genə, qiyabi tanışıq, amma yerdə qalan 100-ü ilə rastlaşmışlığım, bir yerdə işləmişliyim var. Hərçənd o 4900 dostun içində elə adamlar var ki, heç vaxt rastlaşmasaq da, görüşməsək də, çox mehribanıq. O qədər yaxınlaşmışıq ki, bəzən virtual polemika aparırıq, hətta mənə yazmağa mövzu da verirlər. “Etibarlı mənbə” kimi, ekspert kimi işə yarayanlar da var, sağ olsunlar.

Hər gün onlardan maraqlı mesajlar gəlir. Dünən də ikisi gəlmişdi. Biri on gün öncə yazdığım “Qoduq cığırıyla acıq vermək” başlıqlı yazıya yazılmış mənzum nəzirəydi. Müəllif hesab edir ki, əslində bu mövzuda babat poema da yaza bilərmiş, amma hələlik bu misralarla kifayətlənir, çünki onsuz da poema oxuyan yoxdur. Kəramət Böyükçölün qorxusundan (onu “istedadsız şair” adlandıra bilər deyə) adının çəkilməsini istəməyən şairin şeiri belədir:

*Aşot “toşa” deyir Cıdır düzündə,*
*Minib qoduğunu, çıxıb yarışa.*
*Geyinib əyninə al-əlvan libas,*
*Ona moral verir yarı Siruşa.*

*Deyir, qalma dala, haydı, hay oğlu,*
*Öt səndən öndəki ulaq çapanı.*
*Aşot qaza gəlib, bərk getsin deyə.*
*Elə hey bizləyir yazıq sıpanı.*

*Ancaq bu yarışda tək deyil Aşot,*
*Sağda Manvel gedir hey çapa-çapa.*
*Onu qızışdırır qıraqdan Roza,*
*O da istəyir ki, kuboku qapa.*

*Beləcə, yarışır orda dığalar,*
*Qurublar Şuşada oyun-tamaşa.*
*Biz də Ramanıda, Binədə-zadda*
*Ev tikib, salmışıq beş-altı Şuşa.*

*Öldü eşşəyimiz Şuşa gedəndə,*
*O vaxtdan oralar olub Aşotun.*
*Bir yarış keçirək gələn il biz də,*
*Gəlsin yarışçılar, biz verək “şot”un.*

İkinci mesaj isə Şimşək adlı şəbəkə dostumdan gəlib. Arkadaşım Şimşək suriyalı qaçqınlara sığınacaq verməyən Səudiyyə kralı Salmandan gileylənir və heç nəzərə də almır ki, adam üç müqəddəs ocağın sahibidir. Şimşək yazır ki, necə olur, o yazıq, binəsib qaçqınları “kafir” Almaniyanın kansleri, “gavur qızı” Angela Merkel qarşılayıb, yerləşdirib, hələ qaçqınlarla selfi də çəkdirib.

Oxucum təklif edir ki, iş belədirsə, onda qoy müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə getməkdənsə, Almaniyanın Ştutqart şəhərinə, konkret olaraq, “Mersedes-Bens” şirkətini ziyarətə getsinlər. Çünki onlar müsəlmanlara qucaq açdıqları üçün müqəddəs yer sayıla bilərlər.

Bəri başdan deyim ki, mən belə məsələlərə qarışa bilmərəm. Ziyarət, səyahət məsələlərinə şeyximiz baxır. Onsuz da bu il adam ziyandadır, kvotası dolmayıb, nəsə yazıb onun biznesinə zərbə vura bilmərəm. Ancaq onu deyə bilərəm ki, şeyx özü də naxoşlayanda Almaniyaya gedir, öz canını “gavur” almanlara etibar edir.

Frau Merkelin suriyalı qaçqınlara xoş münasibət göstərməsində isə təəccüblü bir şey yoxdur. Xanımın adının mənası “mələk”dir. Mələk kimi də xaladır. Həm də o, təkcə suriyalıları yox, dünyanın dörd yanından gələn qaçqınları yerbəyer edir. Tarixən elə olub. İntəhası, ötən əsrin 30-cu, 40-cı illərində o geniş ürəkli almanların başı necə çönübsə, “gəlmə”ləri, “yad”ları yola verməyiblər.

İndi siz baxarsınız, bu gün canlarını Suriyada öldürülməkdən, Yunanıstan-Türkiyə sahillərində dənizdə batmaqdan, Avstriya-Macarıstan ərazisində döyülməkdən qurtarıb Almaniyaya sığınan və xilas olan suriyalı qaçqınlar 4-5 ildən sonra nə edəcəklər. Cəmiyyətə adaptasiya olmayacaqlar, oğurluq-quldurluq edəcəklər, işləyib eləmədən dövlət büdcəsini əməcəklər - bütün bunlar heç, olan şeylərdir. Amma onlar bununla qalmayacaqlar, özlərini maddi baxımdan düzəldən kimi Səudiyyə Ərəbistanına ziyarətə gedəcəklər.

O zaman dostum Şimşək kral Salmanı buraxıb, Merkelə döşəyəcək.

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015



# Baş nazir kim olacaq?

Azər RƏŞİDOĞLU

**Parlament seçkilərindən sonra ölkənin yeni baş naziri kim ola bilər sualı əsas müzakirə predmetidir. Milli Məclis sədrinin kim olacağı və yaxud Oqtay Əsədovun postunu qoruyacağı ehtimalı demək olar ki, az adamı maraqlandırır.**

Baş nazirin kimliyi isə suallar doğurur. Baş nazir məsələsi iqtidarın əsas probleminə çevrilib. Uzun illərdir ki, hakimiyyətdə təmsil olunan ən müxtəlif qruplaşmalar baş nazir postunda öz təmsilçilərini əyləşdirmək arzusundadırlar. Lakin hər şey göründüyü qədər də asan və sadə deyil. Kimisə bu vəzifəyə yüksəltmək həmin qruplaşmaya kart-blanş verilməsi anlamına gələ bilər. Bunun isə əks tərəfin sərt təpkisi ilə qarşılanacağı ehtimalı yüksəkdir. Odur ki, hazırkı mərhələdə nəyisə dəyişmək risklidir.

Lakin indiki baş nazir Artur Rasizadənin seçkidən sonra öz postunu tərk edəcəyi ehtimalı xeyli dərəcədə yüksəkdir. Bunu hamı anlayır və odur ki, iqtidar qrupları Artur Rasizadəni baş nazir postunda kimin əvəzləyəcəyini düşünürlər. Bütün qarşıdurmalar və hakimiyyətdaxili oyunlar məhz bu istiqamətdə qurulur. Onu bu postda əvəz edəcək şəxsin karyerası və aqibəti necə olacaq sualına cavab vermək elə də asan deyil. Bu postun yeni sahibi digər iqtidardaxili qruplaşmaların hədəfində olacaq və bu amil onun taleyinə mənfi təsir göstərə bilər. Hakimiyyətin baş nazir problemini həll edə bilməməsi iqtidardaxili gərginliyi artırır.

Maraqlıdır ki, adıçəkilən bu mübarizə ən amansız formada aparılır. Bu isə siyasi idarəetmənin özünün yanlışlığını üzə çıxarır. Vaxtı keçmiş idarəçilikdən imtina olunmayacağı təqdirdə "toplananların yerini dəyişdikdə cəm dəyişmir" formulu əsas amil olaraq qalacaq.

Qarşıdan isə parlament seçkiləri ili gəlir. Əvvəlki seçkilərlə müqayisədə bu dəfə hakimiyyətdaxili komandalar daha böyük iddialarda bulunurlar. Onların hədəfində baş nazir postundan tutmuş, nazirliklərin bölüşdürülməsi, siyasi və iqtisadi sferanın tam ələ keçirilməsi kimi məsələlər var. Qruplardan birinin maraqlarını təmin etmək, digərlərinin narazılığı və üsyanı ilə nəticələnə bilər. Bu isə hakimiyyət üçün son dərəcə ağır nəticələnə bilər.

Vurğulayaq ki, indiyə qədər daha güclü qruplar nisbətən zəif qruplaşmaları sıradan çıxartmaqla məşğul idi. İndi isə siyasi müstəvidə təqribən eyni gücə malik qruplar mübarizə aparır və bu mübarizədə qələbə anlayışının özü də nisbi ola bilər.

Yaranmış vəziyyət ölkədə kadr islahatlarının aparılmasını zəruri edir. Belə komanda ilə seçkiyə getmək, uğur qazanılacağı təqdirdə belə ciddi problemlər deməkdir.

Düzdür, yaranmış vəziyyətdə hakimiyyətdaxili qruplaşmaların hamısını eyni zamanda zərərsizləşdirmək də siyasi hakimiyyət üçün təhlükəli ola bilər. Bu baxımdan, adıçəkilən qrupların "xaç ataları"nın cəzalandırılması, qrupların maraqlarının nisbətən saxlanılması çıxış yolu kimi dəyərləndirilə bilər. Lakin məsələ heç də kiminsə "qırmız vərəqə" almasında da deyil. Söhbət "artıq yüklər"dən azad olmaqdan gedir. Əks təqdirdə, hakim elita özü bütövlükdə iflasa uğraya bilər.

Nəzərə alsaq ki, seçkilərin vaxtı yaxınlaşdıqca daxili savaş daha da qızışacaq, qabaqlayıcı tədbirlərin görülməsi qaçılmaz görünür. Bu baxımdan, siyasi hakimiyyətin islahatlara başlaması, struktur dəyişikliyi həyata keçirilməsi ən optimal variant kimi dəyərləndirilə bilər.

Bu baxımdan, bələdiyyələrin səlahiyyətlərinin artırılması, icra strukturunun iştahasının azaldılması, elektron hökumətin formalaşdırılması kimi öhdəliklərə əməl olunmasının vaxtı çoxdan çatıb. Təbii ki, adıçəkilən islahatları həyata keçirə bilməkdən ötrü ölkə daxilində gərginliyin azaldılması vacib elementlərdəndir.

Əks təqdirdə, Azərbaycanda siyasi proseslərin taleyi küçələrdə həll edilə bilər. Hakimiyyətdaxili gərginlik münasibətlərin "reketsayağı" həllinə səbəb olmaqdadır. Artıq demək olar ki, hər gün narazı qrupların şəhər küçələrində "qanlı razborkalarının" şahidi minlərlə insanlar olur. İqtidarın çox qürrələndiyi sabitliyin artıq qoxusu belə qalmayıb. Proseslər isə artan xətt üzrə inkişaf etməkdədir. Nəzərə alsaq ki, cəmiyyətdə cəzasızlıq sindromu yaşanmaqdadır və qisasçılıq əsas məqsəd sayılır, yaxın zamanlarda nələrin baş verə biləciyini ehtimal etmək o qədər də çətin deyil. Bunun qarşısını almağın yeganə yolu demokratik seçkilərdən keçir. Beynəlxalq təşkilatların da Bakıdan tələb etdiyi seçkilərin demokratikliyinin təmin edilməsidir...

**Dövlət başçısının sonuncu müşavirədə ölkənin valyuta ehtiyatı ilə bağlı verdiyi açıqlamalar devalvasiya müzakirələrinə yenidən diqqət çəkib. Prezidentin açıqlamasında manata və valyuta ehtiyatına olan əminlik devalvasiya riskinin gecikdirildiyini düşünməyə əsas verir. Bəzi ekspertlərə görə, dövlət başçısının çıxışı valyuta ehtiyatları ilə bağlı daha ciddi davranılacağını ehtimal etmək üçün ümid verə bilər.**

# Prezidentin son çıxışını ekspertlər şərh edir

**Qeyd edək ki, dövlət başçısı müşavirədə bildirib ki, dünyada dərin iqtisadi və maliyyə böhranı davam etsə də, Azərbaycanın təhlükəsizliyi, sabitliyi, iqtisadi inkişafı təmin edilir:** "O ki qaldı Azərbaycana, bütün bu mənfi mənzərə fonunda ölkə iqtisadiyyatı inkişaf edir. Ölkədə sabitlik möhkəmlənir. Bizim beynəlxalq mövqelərimiz daha da güclənir. Bizimlə əməkdaşlıq edənlərin sayı gündən-günə artır. Azərbaycan beynəlxalq birliyin dəyərli, böyük hörmətə malik bir üzvüdür. Ölkədə proseslər müsbət istiqamətdə gedir. Xalq bizim siyasətimizi dəstəkləyir. Hətta böhranlı illərdə də bizim iqtisadiyyatımız uğurla inkişaf edir".

**Prezident neftin ucuzlaşmasından ölkənin minimum itkilərlə çıxdığını vurğulayıb:** "Altı ayın yekunları deməyə əsas verir ki, biz bu ili çox yüksək nəticələrlə başa vuracağıq. Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatı 9 faizdən çox artmışdır. İnflyasiya çox aşağı səviyyədədir. Kənd təsərrüfatı 7,3 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faiz artmışdır. Yəni bu, böhranlı ildə əldə edilən nailiyyətlərdir və dünya miqyasında buna bənzər yüksək nəticələr görmək çox çətindir".

**İ.Əliyev deyib ki, "Fitch" reytinq agentliyi Azərbaycanın sabit reytinqini bir daha təsdiqləyib:** "Bizim "BBB" səviyyəsində reytinqimiz var. Bu da çox böyük nailiyyətdir".

**Onun sözlərinə görə, ilin sonuna qədər bütün lazımi tədbirləri görəcəklər ki, iqtisadi inkişaf davam etsin:** "Əlbəttə, hökumət daha fəal, çevik işləməlidir ki, bizim iqtisadiyyatımız gələn il də artsın".



**Qubad İbadoğlu:** "Valyuta ehtiyatlarımızı devalvasiyaya qurban vermək doğru olmaz"

**Dövlət başçısı valyuta ehtiyatlarının çoxluğuna da diqqət çəkib:** "Mənim buna heç bir sübhəm yoxdur. Bizim maliyyə vəziyyətimiz sabitdir. Kifayət qədər valyuta ehtiyatlarımız var. Biz yenə də düşünülmüş siyasət apararaq valyuta ehtiyatlarımızı ildən-ilə artırırdıq. Bu il də biz Dövlət Neft Fondunun vəsaitini qoruyuruq. Düzdür, indi vaxtilə alınmış bəzi əmlakların qiymətlərinin düşməsi, xüsusilə avro, dollar məzənnələri arasında olan bəzi dəyişmələr elə fikir yarada bilər ki, bizim Dövlət Neft Fondunun ehtiyatları azalıb. Ancaq reallığa baxanda görürük ki, azalmayıb. Çünki qiymətləndirmə ilə bağlı və dünya valyuta kurslarının səviyyəsi ilə əlaqədar bəzi dəyişikliklər edilib. Ancaq biz gələn il də valyuta ehtiyatlarımızı, xüsusilə Dövlət Neft Fondunun ehtiyatlarını qorumalıyıq və qoruyacağıq.

Bax, biz bütün işləri bu səpkidə görürük. Bir daha demək istəyirəm ki, mən Azərbaycanın uğurlu inkişafı ilə bağlı heç bir problem görmürəm. Biz 2016-cı ildə də uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik. Sadəcə olaraq, hökumət ilin sonuna qədər, xüsusilə, gələn ilin xərcləri, investisiya proqramı, maliyyə vəziyyətimiz ilə bağlı daha da ciddi işləməlidir, yeni təkliflər verilməlidir.



**Əkrəm Həsənov:** "Devalvasiyanın bir daha olmayacağını söyləmək mümkün deyil"

Bir daha demək istəyirəm, ən əsas məsələ ondan ibarətdir ki, gələn ilin büdcəsi balanslaşdırılmış, reallığı əks etdirən və lazımsız xərclərə yol verməyən bir büdcə olmalıdır".

**Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, valyuta ehtiyatları ilə bağlı bu açıqlama devalvasiya riskini azaltmır. O deyib ki, neft satışından əldə edilən valyutamızı böhranın yeminə çevirməməliyik:** "Bu ehtiyatlar gələcək nəsillərə olan yığım adı ilə formalaşdırılıb və məqsəd o olub ki, ilk növbədə neft gəlirlərinin nəsillər arasında ədalətli bölgüsünə nail olaq və onun düzgün idarə olunması ilə ölkəyə əlavə qazanc gətirək. Amma rəsmi açıqlamalardan belə çıxır ki, biz bu valyuta ehtiyatlarını hələ neft gəlirləri tükənməmiş xərcləyə bilərik. Neft Fondunun valyuta funksiyalarından biri də gələcək nəsillər üçün yığım formalaşdırmaqdır. Hazırkı təkliflər Neft Fondunun Əsasnaməsinə və prezidentin bu barədə fərmanlarına ziddir, ən əsası da gənc və gələcək nəsillərin hüquqlarının pozulması, onların haqqının yeyilməsi deməkdir. Amma bu, "devalvasiya bitdi" demək deyil, sadəcə, əvvəlki devalvasiyanın qarşısında duran məqsədlərə çata bilməkdi. Çin də devalvasiyaya getdi, amma onlar ondan müsbət effekt aldılar. Bizdə isə qarşıya qoyulan məqsədlərdən biri ixracatı stimullaşdırmaqdır. Amma ixracımız əvvəlki illə müqayisədə bu ilin 7 ayında 46,3 faiz aşağı düşdü.

İkincisi, rəqabət qabiliyyətinin artırılması idi, əksinə, ölkədə inhisarçılıq gücləndi. İndi devalvasiya olsun olmasın - ölüm-dirim məsələsi deyil. Hər iki variant hazırda iqtisadiyyatın əleyhinə işləyir. Çünki ölkədə bazar iqtisadiyyatı deyil, inzibati üsullarla tənzimlənən oliqarx iqtisadiyyatı mövcuddur. Ona görə də hətta devalvasiya belə iqtisadi və işgüzar aktivliyi stimullaşdıra bilmir. Ona görə də bu məsələyə dair müxtəlif fikirlər var və hökumət bu məsələdə də əvvəlki kimi qərarlı deyil. Amma vaxt keçdikcə vəziyyət daha da gərginləşəcək. Odur ki, təxirəsalınmaz və kompleks tədbirlər həyata keçirilməlidir. Ayrıca devalvasiya ilə islahat etmək olmaz".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, dövlət başçısının çıxışı çoxşaxəlidir:** "Valyuta ehtiyatlarımızın kifayət qədər olması vurğulanır və bu, doğrudur. Eyni zamanda Neft Fondunun ehtiyatlarının qorunacağı da deyilir. Deməli, valyuta ehtiyatları hesabına manatın sabitliyi təmin ediləcək, amma yalnız Mərkəzi Bankın ehtiyatları hesabına, Neft Fondunun hesabına yox. Mərkəzi Bankın isə cəmi 7 milyard dolları qalıb. Ehtiyatlar sonsuz deyil, onlardan devalvasiyanın qarşısını almaq üçün sonsuz istifadə etmək mümkün deyil. Fevralda valyuta ehtiyatımız indikindən də çox idi. Lakin devalvasiya oldu. Buna görə də prezidentin sözlərini devalvasiyanın heç olmayacağı kimi başa düşmək düzgün deyil. Hər anın öz hökmü var".

❑ Röya RƏFİYEVA

# Avropa Parlamentinin qətnaməsi Azərbaycan üçün nə vəd edir?

**Sentyabrın 10-da Avropa Parlamenti (AP) Azərbaycanla bağlı sərt qətnamə qəbul edib. Əsasən siyasi məhbusların azadlığa buraxılması, insan haqları üzərində qurulan qətnaməni müstəqillik illəri ərzində xarici təşkilatların ölkəmizə qarşı ən sərt şəkildə qəbul edilən qərarı adlandırmaq olar.**

Heç şübhəsiz ki, seçki öncəsi belə bir sərt qətnamənin qəbulu Azərbaycan üçün müsbət heç nə vəd edə bilməz. Bəzi ekspertlər hesab edirlər ki, bu, Qərbin Azərbaycana qarşı seçki pərdəsi altında etdiyi təzyiq vasitələrindən biridir.

**Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qətnaməyə münasibət bildirərkən açıq şəkildə qeyd edib ki, Avropa Parlamenti Qərbin müxtəlif dairələrinin əlində oyuncağa çevrilib:** “Azərbaycan Avropa İttifaqının üzvü deyil, bu qurumun qarşısında heç bir məsuliyyət daşımır və buna görə də Avropa Parlamentinin qəbul etdiyi həmin qətnamə bundan əvvəlki qərəzli sənədlər kimi kağız parçasından başqa bir şey deyildir. Azərbaycan heç vaxt kimlərinsə dominantlıq iddiasını, ”böyük-kiçik" münasibətlərini tətbiq etmək cəhdlərinə yol verməyəcəkdir. Artıq bu həqiqəti anlamağın və münasibətlərin pozulmasına yönəlmiş cəhdlərdən əl çəkməyin zamanıdır".

**Baş nazirin müavini, YAP-ın icraçı katibi Əli Əhmədov da qərara sərt reaksiya verib:** “Avropa Parlamentində Azərbaycanla bağlı qəbul edilmiş qətnaməni qərəzli, ədalətsiz və yersiz hesab edirəm. İnsanda belə bir təəssürat yaranır ki, Avropanın bu mötəbər qurumu sanki anti-Azərbaycan xəstəliyinə tutulub”.

**İqtidaryönlü deputat Fəzail Ağamalı “Yeni Müsavat”a açıqlamasında AP-nın son illərdə Azərbaycana qarşı daim sərt mövqedə olduğunu bildirdi:** “Bu qərarın arxasında Azərbaycana qarşı qərəz, qeyri-obyektiv mövqe yer tutur. Avropa Parlamentinin bundan əvvəlki qərarlarında həqiqətlər kənara qoyulub, Azərbaycanın əldə etdiyi uğurların üstündən xətt çəkilib. Avropa Oyunları ərəfəsində də bu qurumun belə bir qərarı oldu. Bunlar bir qrup deputatın tapşırığı icra etməsi kimi qiymətləndirilməlidir. Bunlar ermənilərin maliyyələşdirdiyi, anti-Azərbaycan düşərgəsində yer alan şəxslərdir. Seçki öncəsi ölkəmiz bir daha hədəfə alınmaqdadır. Bu, düşmənçilik mövqeyindən başqa bir şey deyil. Azərbaycan buna qarşı adekvat addımlarını atır. Parlament səviyyəsində öz mövqeyimizi ortaya qoyuruq. Bundan sonra da mövqeyimizi bu şəkildə göstərəcəyik. Novruz Məmmədov çox aydın şəkildə bildirdi ki, onların seçkilərlə bağlı qərarları indidən hazırdır, sadəcə, tarixi əvvələ qoyublar. Həbs olunan şəxslərlə, eləcə də jurnalistlərlə bağlı onların fikirləri bağışlanılmazdır. Kim olmasından asılı olmayaraq, cinayətə yol verən şəxs Azərbaycan qanunları çərçivəsində cəzasını çəkməlidir. Onlar kimləri müdafiə edirlər? Leyla və Arif Yunusu, Xədicə İsmayılı və başqalarını. Fakt ondan ibarətdir ki, bu şəxslər erməni lobbisinin təsiri altında olanlardır. Epizodik olaraq, müəyyən şəxslərin də adını çəkiblər. Tofiq Yaqublu və bəzi məhbusların adlarını çəkməklə, Yunusların, Xədicə İsmayılın ətrafında obyektivlik yaratmaq istəyirlər. Adları çəkilən şəxslər konkret olaraq, cinayət törədən və nəticədə cəzalarını çəkən şəxslərdir. Bu cür qətnamələr Azərbaycan dövlətçiliyini zəiflətməyə yönələn qərarlardır”.

**Müsavat başqanı Arif Hacılı sosial şəbəkələrdə mövqeyini açıqlayıb:** “Hökumətin daxili və beynəlxalq siyasəti iflasa uğrayıb. Avropa Parlamentinin qətnaməsinin məzmunundan aydın olan odur ki, Azərbaycan hakimiyyətinin təcrid olunması siyasəti gücləndiriləcək. Bu şəraitdə Azərbaycan hakimiyyətinin atacağı addımları da proqnozlaşdırmaq çətin deyil. Bütün Avropa qərəzli, erməni agenti, İslam düşməni və s. elan ediləcək. İqtidar yetkililəri, nəhayət, anlamalıdır ki, bu çıxış yolu deyil. İndi dünya birliyini hədəfə almaq yox, belə vəziyyətin və belə münasibətin yaranmasına gətirib çıxaran səbəbləri aradan qaldırmaq lazımdır”.



**Əli Həsənov:**
“Kağız parçasından başqa bir şey deyil”



**Fəzail Ağamalı:**
“Bu, düşmənçilik mövqeyidir...”



**Arif Hacılı:**
“Hakimiyyətin təcrid olunması siyasəti gücləndiriləcək”



**İqbal Ağazadə:**
“Azərbaycan Avropa Birliyindən təcrid olunarsa...”

**Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, problemlər danışıqlar yolu ilə həll olunmalıdır:** “Heç bir halda Azərbaycanın beynəlxalq aləmdən təcrid olunması, yaxud kənarda qalması fikirlərini qəbul etmirəm. Sanksiyalar tətbiq etmək, təzyiqlər yolu da düzgün deyil. Azərbaycanda insan haqları, məhkəmələrlə bağlı bir sıra problemlər mövcuddur. Bunları Avropa Birliyinin nümayəndələri ilə görüşümdə demişəm. Bütün bunlar danışıqlar masası ətrafında həll olunmalıdır. Azərbaycan Avropa Birliyindən təcrid olunarsa, Rusiya Azərbaycanı yanına çəkmək üçün bütün təzyiq yollarından istifadə edəcək. Nəticədə Qafqaz coğrafiyasında yeni bir situasiya yarana bilər. Avropa Birliyi bunu ciddi şəkildə düşünməlidir”.

**KXCP sədri Mirmahmud Mirəlioğlu qətnaməni əvvəllər olan soyuq münasibətin davamı kimi qiymətləndirdi:** “Bu qətnamə indiyə qədər atılan addımların məntiqi davamıdır. Başqa qeyri-adi nəsə axtarmaq doğru deyil. Hər mərhələdə bir münasibət sərgilənir”.

**Politoloq Natiq Miri hesab edir ki, Avropada qarşıdan gələn seçkilərlə bağlı artıq rəy yaradılıb:** “Seçki rəyi heç də müsbət olmayacaq. Bu qətnamə onu göstərir ki, hakimiyyətə təzyiqlər siyasi bəyanatlarla bitməyəcək. Yaxın zamanlarda təhlükəli mərhələyə daxil olunacaq. Bu, çox ciddi məqamdır. Çünki sanksiya son mərhələdir. İstənilən şəkildə Azərbaycana sanksiyalar tətbiq oluna bilər. Bu məngənədən çıxmaq çətin olacaq. Hakimiyyət bunu anlamalıdır. Dialoq yolu ilə məsələ həll olunmalıdır. Siyasi məhbuslar problemdirsə, iqtidar bunu Qərb dünyası üçün deyil, Azərbaycan üçün həll etməlidir. Bu məsələ həll olunsa, dialoq mühiti yarana bilər”.

❑ **Cavanşir ABBASLI**



# Rəsmi Bakı ilə Avropa İttifaqı arasında qalmaqal

## Qurumun Azərbaycandakı nümayəndəsi XİN-ə çağırıldı; Milli Məclis Avropa Parlamentinin qətnaməsinə görə növbədənkənar iclas təyin etdi; Aİ rəsmilərinin səfəri təxirə salındı

**Avropa Parlamentinin Azərbaycandakı insan hüquqlarının vəziyyəti ilə bağlı qəbul etdiyi qətnamə rəsmi Bakının sərt reaksiyasına səbəb olub. Xüsusilə də parlament seçkiləri öncəsi beynəlxalq qurumun belə bir sənədi qəbul etməsi birmənalı qarşılanmır və Azərbaycana təzyiq kimi qəbul edilir. Avroparlamentin qətnaməsi Azərbaycan Milli Məclisini növbədənkənar xüsusi plenar iclas keçirməyə vadar edib. Bu barədə modern.az saytına Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlu məlumat verib.**

“Milli Məclisin sentyabrın 14-də keçiriləcək növbədənkənar xüsusi plenar iclası Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi qətnamə ilə bağlıdır. Milli Məclisin daxili nizamnaməsinə görə, deputatların müraciətləri əsasında Milli Məclisin növbədənkənar plenar iclasının keçirilməsi qərarlaşdırılıb. Sentyabrın 14-də baş tutacaq iclasda əsas müzakirə olunacaq məsələ Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsi olacaq.



Malena Mard

Sentyabrın 11-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mardı Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Malena Mardının diqqətinə çatdırıb ki, qəbul olunmuş qətnamə qərəzli xarakter daşıyır və Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrə zərbə vurur, münasibətlərin gələcək perspektivlərinə ciddi əngəl yaradır. Malena Mard Azərbaycanın mövqeyinin Avropa İttifaqının aidiyyəti strukturlarına çatdırılacağını bildirib.

**YAP-ın Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı “Yeni Müsavat”a bildirdi ki, Avropa Parlamenti ədalətli qurum olsaydı, Ukraynada yaratdığı böhrana və tökülən qanlara görə ən azı fəaliyyətini dayandırmalı idi:** “Avropa Parlamenti belə ədalətli və obyektiv qurumdursa, nədən bu gün bütün insanlığı sarsıdan Orta Şərqdəki zülmdən qacarkən Aralıq dənizinin sularında qərq olmuş yüzlərlə günahsız uşaqla bağlı qətnamə qəbul etmir? Artıq hər kəs bilir ki, Avropa Birliyi ancaq öz maraqlarına xidmət edən, islamafobiya və türkfobiya xəstəliyinə düçar olmuş ölü bir qurumdur. NATO-nun qurucusu və önəmli üzvü olan Türkiyəyə qarşı münasibətdə, həmçinin Azərbaycana olan münasibətdə bu, tam sübut olundu. Dövlət səviyyəsində terrorçuluq fəaliyyəti və işğalçılıqla məşğul olan Ermənistanla bağlı nədən qətnamə qəbul etmirlər? Azərbaycan iqtidarı və xalqı bu təzyiqlərə heç bir məhəl qoymayacaq. Azərbaycan prezidenti ancaq öz xalqının və dövlətinin milli maraqlarına xidmət edən siyasət yürüdür, onların sifarişini deyil. Avropa Parlamenti Avropa qaçqınları ilə bağlı yürütdüyü siyasətdən utanmalıdır”.

**“Avropa Parlamentinin qətnaməsi bir daha sübut etdi ki, bir çox siyasi qurumların və dairələrin əlində siyasi oyuncağa çevrilib”. Bunu deputat Çingiz Qənizadə mediaya açıqlamasında bildirib. Deputatın fikrincə, bu qətnamə Avropadakı ermənipərəst, o cümlədən antitürk, antimüsəlman dairələrin Avropa Parlamentinin üzvlərinin bir hissəsinin “ələ almaları”nın nəticəsidir:** “Ölkədə vətəndaş cəmiyyətinin, QHT-lərin, siyasi partiya və mətbuatın azad fəaliyyəti üçün yaradılmış şəraiti görmək istəməyən Avropa Parlamenti ölkə qanunvericiliyinin tələblərini pozan və həbs edilmiş bir neçə şəxsə görə ölkə haqqında mənfi imic formalaşdırmaq niyyəti ilə etdiyi bu cəhdlər və qəbul etdiyi belə qətnamələrin bir adı var - riyakarlıq!”

“Avropa Parlamentinin Azərbaycan haqqında qəbul etdiyi ”qətnamə" qərəzdən başqa bir şey deyil". Bunu deputat Fuad Muradov bildirib. O qeyd edib ki, qətnamədə yer alan fikirlərin heç biri konkret faktlara əsaslanmır. Bu, sadəcə olaraq, Azərbaycana qarşı olan qərəzli kampaniyanın tərkib hissəsidir. F. Muradov qətnamədə guya insan hüquq və azadlıqlarının pozulması hallarını “qınayan” Avropa Parlamentinə elə Avropanın özündə insanların milli və dini mənsubiyyətinə görə pozulan hüquqlarına nəzər salmağı tövsiyə edib.

YAP Avropa Parlamentinin qəbul etdiyi anti-Azərbaycan qətnaməsi ilə bağlı bəyanat yayıb. YAP bəyan edir ki, Avropadakı anti-Azərbaycan dairələrin cəhdlərinə baxmayaraq, Azərbaycan demokratiya, insan hüquqlarının qorunması, müstəqil xarici və daxili siyasət kursunu qətiyyətlə davam etdirəcək.

Bu arada məlum olub ki, Avropa İttifaqı Komissiyasının nümayəndə heyətinin Bakıya səfəri Azərbaycan tərəfindən təxirə salınıb. (apa) Məlumata görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi açıqlama yayıb. Açıqlamada bildirilir ki, Avropa Parlamentinin 10 sentyabr 2015-ci il tarixində Azərbaycan haqqında qəbul etdiyi qərəzli qətnaməsinə görə Azərbaycanla Avropa İttifaqı arasında Strateji tərəfdaşlığa dair saziş üzrə ilkin müzakirələrin aparılması üçün gələn həftə Azərbaycana gəlməsi nəzərdə tutulan Avropa İttifaqı Komissiyasının nümayəndə heyətinin səfəri Azərbaycan tərəfindən təxirə salınır. **“Ümumiyyətlə, anti-Azərbaycan və anti-İslam meyllərin güclü olduğu Avropa İttifaqı ilə əlaqələri yenidən nəzərdən keçirməliyik”**, - deyə açıqlamada vurğulanır.

Maraqlısı odur ki, bu arada Avropa İttifaqı Azərbaycana kənd həyatı səviyyəsinin inkişafı üçün 13,6 milyon avro maliyyə ayırıb. Bundan əvvəl Azərbaycan təhsilinin inkişafı layihəsi çərçivəsində də qurum 19 milyon avro vəsait ayırdığını bəyan etmişdi.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015



# Demokratların sentyabr tezisləri...

Hüseynbala SƏLİMOV

**Bəli, əvvəllər, hətta çox da uzaq olmayan keçmişdə belə payızı siyasi cəhətdən gərgin dövr kimi qarşılamağa adət etsək də, son illərdə bu yanaşma özünü o qədər də doğrultmayıb. Amma deyəsən, bu payız hər cəhətdən sərt olmağı vəd edir...**

Baxırsan ki, bir tərəfdən parlament seçkiləri gəlir. Bu isə hamıya məlum səbəblər üzündən çox üzücü və əsəbi bir dövr kimi yadda qalır - insanlar çox ədalətsizliklərlə üzləşir və özlərinin azacıq da olsa haqlı olduqlarını sübut etmək üçün MSK ilə məhkəmələr "arasında" qalırlar...

O biri tərəfdən, parlament seçkisindən sonra nə baş verəcəyi insanları qayğılandırır. Hamı düşünür ki, seçkidən sonra maliyyə sferasındakı kövrək tarazlıq pozulacaq və biz yenə də böhranla üzləşəcəyik...

Amma kim bilir? Kimsə birmənalı proqnoz verə bilərmi? Bəlkə də belə olmayacaq və bəlkə də hökumət iqtisadiyyatın "cilovlarını" əlində saxlaya biləcək. Fəqət, insanlar narahatdır...

Həm də ona görə narahatdırlar ki, malların və xidmətlərin qiyməti gündən-günə artır. Bir tərəfdən hökumət guya ucuzluq yaratmaq istəyir. Məsələn, dərmanların qiymətlərinin ucuzlaşdırılmasına səy göstərilir. O bir tərəfdən də ən sadə malların qiyməti az qala "ceyran beli"nə çıxır...

Fəqət, payız daha çox mətbuat və siyasət adamları, ictimai fəallar üçün sərt olmağı vəd edir. Onlar bütün bu proseslərdən həm adi bir vətəndaş kimi, həm də fərqli ictimai-siyasi baxışlara malik şəxslər kimi əziyyət çəkməli olurlar...

Ötəri nəzər yetirəndə ölkədə nə baş verdiyinin fərqinə vara bilmirsən. Amma azacıq diqqətli olmaq kifayətdir ki, siyasi küləklərin səmtini tuta biləsən - bəli, hakimiyyət ciddi şəkildə Rusiyaya tərəf dreyf edir...

Elə bil Rusiyanın üçüncü qayıdışını yaşayırıq. Onun Azərbaycana qarşı qərəzli siyasətinə göz yumurlar, amma ABŞ-ın və Avropanın qarasınca deyinmək üçün kiçikcə fürsəti belə əldən vermir və bütün uğursuzluqlarda Qərbi qınayır, elə təsəvvür formalaşdırmağa çalışırlar ki, guya Qərbdən yalnız böhran və problem, yalnız qərəz və ikili siyasət gəlir...

Hətta insanlara aşılayırlar ki, guya Rusiyanın köməyi ilə Qarabağ problemi də həll olunacaq və işğal edilmiş yeddi rayon da tezliklə qaytarılacaq...

Di gəl, bu söhbətlər il yarımdan artıq getsə də, hələ nəinki yeddi rayon, heç bir kənd də azad olmayıb...

Üstəlik də rusiyalı siyasətçilərin və diplomatların çıxışlarında buna işarə ola biləcək söz də tapmaq mümkün deyil...

Heç vaxt Avropanı ideallaşdırmamışıq. Hətta son vaxtlar üzümü onlara tərəf tutub sanki hayqırmaq istəyirəm ki, bu nədir, cənablar, bir qadın jurnalisti belə qoruya bilmədiniz?!..

Gəl, Qərb mənim üçün hər şeydən əvvəl "İlahi komediya", "Don Kixot", "Kral Lir" və "Faust" deməkdir. Həm də liberal dəyərlər deməkdir. Nə qədər "təftiş" edib yamanlasalar da, Avropa və ABŞ demokratiyanın beşiyidi...

Bu səbəbdən də zaman özü vəzifələri müəyyən edir. Total təbliğat maşını Avropaya qarşı tuşlandığı zaman özünü demokrat sayan nə edə bilər və daha doğrusu, nə etməlidi?

İzah etməliyik ki, Qarabağ problemini Avropa yaratmayıb və Rusiyadan fərqli olaraq, bu problemin arxasında da Avropa dayanmayıb.

İnsanlara başa salmaq lazımdır ki, bu vaxta qədər Qərb institutları olmasaydı ölkədəki ictimai- siyasi atmosfer daha üzücü olardı və əgər o, indiki səviyyədə belə qala bilibsə, buna görə də müəyyən mənada Avropaya minnətdar olmaq lazım gəlir...

Əslində Avropadan demokratların gileyi daha böyük olmalı idi. Onlar əksər hallarda umduqları dəstəyi ala bilmirlər, çünki Avropa da təəssüf ki, avtoritar hakimiyyətlərlə münasibətləri saxlamaq xaitirinə çox şeyə göz yumur və çox mətləblərin üstündən keçir...

Eləcə də demokratiyanı, liberal dəyərləri yalnız Avropa kontekstində başa düşmək lazım deyil. Biz ona görə demokratiya istəmirik ki, bu, Avropadan və ümumiyyətlə, Qərb dünyasından gəlir...

Sadəcə, demokratiya Avropada və ABŞ-da sınaqdan keçmiş və özünü doğrultmuş ictimai-siyasi modeldir. Bəli, təftişçilər-tənqidçilər çox olub, gəl, onların heç biri daha yaxşı, fərqli bir model qoya bilməyiblər ortaya...

Qərəz, biz də düşünürük ki, velosiped kəşf etməyin nə mənası? O model ki, özünü onlarla ölkədə doğruldub, effektiv olduğunu sübut edib, onu Azərbaycanda da tətbiq etməyə dəyər. Bunları istəmək doğrudanmı, bu qədər ağır suçdur?..

Qısası, deyəsən, bu payız təkcə soyuq hava gətirmir. Elə həm də soyuq siyasi münasibətlər vəd edir...

---

**"Seçki komissiyaları parlament seçkisinə blokların tərkibində qatılmaq istəyən şəxslərdən qanunvericilikdə nəzərdə tutulmayan sənədlər tələb edir". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Xalq Partiyasının sədri Pənah Hüseyn deyib. Partiya sədri bu faktı qanuni hüququnu istifadə etmək istəyənlərə yaradılan süni mane kimi qiymətləndirir. Yada salaq ki, AXP seçkiyə 7 partiyanın təmsil olunduğu "Azadlıq 2015" Seçki Blokundan qatılıb.**



# "Bəzi DSK-lar süründürməçiliklə məşğuldur"

## "Azadlıq-2015" Seçki Blokunda təmsil olunan Pənah Hüseyn komissiya üzvlərinin savadsızlığından şikayətçidir

1 noyabr seçkilərinə sentyabrın 1-dən start verilib. Artıq seçkiyə qatılmaq istəyən iddialıların çoxu imza vərəqləri almaq üçün dairə seçki komissiyalarına müraciət edib. İmza vərəqələrinin alınması üçün DSK-ya müraciət edilməsi seçki qanunlarına görə namizədlərin atacağı ilk addımdır. İkinci mərhələdə namizəd olmaq istəyən şəxslər iddialı olduqları dairədən 450 seçicinin imzasını toplayaraq seçki komissiyasına təqdim etməlidirlər. Seçki komissiyası imzaların real olub-olmadığını yoxlayandan sonra iddialıların seçkidə iştirakı haqqında qərar verilir.

**Pənah Hüseyn deyir ki, dairə seçki komissiyaları Xalq Partiyasının, eləcə də "Azadlıq-2015" blokunda təmsil olunan digər partiyaların bir neçə üzvündən Mərkəzi Seçki Komissiyasının təlimatlarında olmayan sənədlər istəyib:** "İddialılardan partiya biletinin surəti, nə Seçki Məcəlləsində, nə də MSK-nın təlimatında olmayan protokollar, qərarlar istənilir. Bu tələblərin heç bir qanuni əsası yoxdur və seçkiyə namizəd olaraq qatılmaq istəyənlərə bir neçə cəhətdən ciddi əngəldir. Təsəvvür edin ki, Naxçıvandakı, ya da hansısa ucqar rayondan Milli Məclis üzvlüyünə iddia etmək istəyən şəxsə dairə seçki komissiyasında belə tələb irəli sürülür; o, bu sənədləri əldə eləmək üçün Bakıya qayıtmaq məcburiyyətində qalır. Bütün bunlar qanunsuz, süni əngəllərdir. Bəzi dairələrdə qanunda, təlimatdan baş çıxarmayan komissiya üzvləri gərginlik yaradır. Mən partiya üzvləri ilə bərabər 6 DSK-da olub problemlərlə yaxından tanış olmuşam. DSK üzvlərindən "bu sənədləri hansı əsasla tələb edirsiniz", - soruşanda onlar faktiki olaraq cavab verə bilmirlər. Bu tələblər seçki prosesinin birinci mərhələsinin süni surətdə uzadılması deməkdir. Belə bir süründürməçiliyin məqsədini anlamaq mümkün deyil".

Pənah Hüseyn deyir ki, qanunsuz tələblər irəli sürülməyən və prosesin normal keçdiyi dairələrdə iddia irəli sürən "Azadlıq-2015" Seçki Blokunun üzvləri artıq imza vərəqələrini alaraq seçicilərlə işə başlayıblar.

❑ Aygün MURADXANLI

---

# Əli Kərimlinin ən gənc fəalı da onu tərk etdi

## Əbülfəz Qurbanlının partiyadan getməsinin sirri açılır

**AXCP-nin daha bir fəal gənci, Ali Məclisin üzvü Ruslan Nəsirli Əli Kərimlinin sədrliyindən imtina edərək, Razi Nurullayevin rəhbərlik etdiyi Etimad Qurultayı Təşkilat Komitəsinə qoşulduğunu bəyan edib.**

**R. Nəsirlinin təqdim etdiyi bəyanatında deyilir:** "Mən 2013-cü ildən AXCP Gənclər Komitəsinin üzvü olmuşam. Prezident seçkilərindən sonra AXCP Gənclər Komitəsinin ümumrespublika konfransında Ali Məclisə üzv seçilmişəm. Daha sonra fəaliyyətimizi mənim də təhsil aldığım Azərbaycan Texniki Universitetində davam etdirərək, çox keçmədən Bakı Dövlət Universitetinin gənclər təşkilatı ilə birləşdik. Hazırda 60-a yaxın üzvümüz var ki, onların da sədr əvəzi mənəm. 2014-cü ilin yanvarından başlayaraq mən partiyadaxili fəaliyyətimi daha da aktivləşdirərək Rəyasət Heyətinə bir çox layihələr təqdim etdim. Lakin layihələrə çox soyuq yanaşıldı, rəhbərlikdən heç bir reaksiya gəlmədi. Ruhdan düşməyərək fəaliyyətimi davam etdirdim, internet üzərində, real təşkilatçılıq sahəsində fəaliyyətimi genişləndirdim. Bunun qarşılığında isə rəhbərlikdən yalnız qısqanclıq gördüm".



Ruslan Nəsirli

**Ruslan Nəsirli bəyanatında maraqlı bir məqama da toxunub:** "Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Kimsə partiyanın Ali Məclisinin sədri Həsən Kərimovu gecə saatlarında sosial şəbəkələrdə aktiv görə bilməz. Lakin bir gecə biz qərargahda qalmağa qərar verdik, gecə 3-4 radələrində qərargah partladıldı, bundan bir neçə dəqiqə sonra isə Həsən bəy facebookda "online" göründü. Mən dərhal ona bu barədə məlumat verdim. Əvvəllər buna təsadüf kimi baxırdım, lakin sonralar Həsən bəyin partiya daxilində gənclərə münasibətini görəndən sonra hər şey mənə aydın oldu".

**Əli Kərimlinin müavini Fuad Qəhrəmanlı barədə də fikirlərini bölüşən gənc fəal onun hakimiyyət qarşısında öhdəlik götürdüyünü vurğulayıb:** "Fuad Qəhrəmanlı hakimiyyət daxilindəki Naxçıvan klanına birbaşa bağlıdır. Onun hakimiyyət qarşısında böyük öhdəlikləri var. Partiya rəhbərliyini ələ keçirmək istəsə də, Əbülfəz Qurbanlı buna mane oldu. Sonralar onlar Əbülfəz Qurbanlını da neytrallaşdırdılar, psixoloji təzyiq göstərdilər".

**Əbülfəz Qurbanlı ilə birgə fəaliyyətinin də məhz partiya daxilində əngəllənldiyini deyən Ruslan Nəsirli Gəncədə inkişaf qrupu yaratdıqlarını və bunun partiya tərəfindən əngəlləndiyini misal gətirib:** "28 günə 40-50 üzv toplamışdıq. Planlaşdırmışdıq ki, Gəncəyə gedək, lakin həmin gün Həsən Kərimov bizim Gəncəyə gedib təşkilat şöbəsi qurmağımıza dair şəkillər yaydı. Bu, işə əziyyət çəkən bütün gənclər kimi Əbülfəz Qurbanlını da hiddətləndirdi və partiyadan getməyə qərar verdi. Əbülfəz Qurbanlı getdikdən sonra Ruslan Nəsirli olaraq bu partiyada qala bilməyəcəyimi qət etdim. Baxmayaraq ki, iki dəfə həbsdə olmuşam, partiyaya xidmətlərim olub, indiyə qədər Əli Kərimlinin geniş təbliğatını aparmışam. Lakin görürəm ki, bütün bunlar heç bir əhəmiyyət kəsb etmir. Partiya daxilində avtoritar rejim davam edir, gənclərin qarşısı kəsilir. Hesab edirəm ki, azad düşüncəli, öz gələcək siyasi karyerasını qurmaq istəyən gənclər, o partiyada, Əli Kərimlinin, Fuad Qəhrəmanlının, Həsən Kərimovun yanında olmamalıdılar".

Bütün bunları əsas gətirən gənc fəal bu gündən etibarən AXCP-də Əli Kərimlinin sədrliyini qəbul etməyərək, yenicə yaranmış və çox böyük ümid bəslədiyi AXCP Etimad Qurultayı Dəstək Komitəsinə üzv olmaq üçün komitənin sədri Razi Nurullayevə müraciət edib.

Xəbəri musavat.com-a Razi Nurullayevin tərəfdarları göndərib.

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015

# “Proses dayansa, ona yenidən başlamaq çətin olur”

## “Artıq insanlar da parlamentdə guya ki, “onları təmsil edən", problemləri ilə maraqlanmayan deputatlardan qurtulmaq istəyirlər"


Taleh Əliyev


Faiq Əliyev


Rəfail Tağızadə


Salman İmanlı

**“Bizə ümid verən, inam yaradan məsələlərdən biri də son zamanlar gənclərin həm namizəd olmaları, həm də seçki prosesinə aktiv şəkildə qoşulmalarıdır”**

**Ümid Partiyası seçkilərə həmişə fərqli yanaşıb. Seçki yolu ilə dəyişikliyin ideal olduğunu, inqilabların ölkələrə xaos, vətəndaş müharibəsi, səfalət, qarışıqlıq gətirdiyini bildirərək, seçki qurtaran kimi seçki hazırlıqlarına başlamaq bu partiya üçün bir prinsip olub. Hakimiyyət seçki ənənəsini unutdurmağa çalışsa da, əksinə, partiya seçki ənənəsinin ortadan qalxmaması üçün, prosesin getməsi üçün böyük bir çaba verib.**

Bunun nəticəsidir ki, artıq partiya tam hazır vəziyyətdə seçkilərə start verib. Bu bir daha Ümid Partiyasının seçki taktikasının doğru olduğunu sübut edir.

DSK-lara sənədlərin təqdimatı artıq başa çatıb. Partiya 80-dən artıq namizədlə seçkiyə qatılır. Namizədlərin demək olar ki, böyük əksəriyyəti imza vərəqəsini alıb. Bir çox namizədlər artıq imzaların toplanmasını başa çatdırmaq üzrədir. Seçki Məcəlləsinə uyğun olaraq 12 avqustdan etibarən imzalar DSK-ya təqdim ediləcək. Seçki Qərargahı gərgin işləyir. Namizədliyinin Partiya tərəfindən irəli sürülməsini istəyən yeni-yeni gənc fəallar seçki qərargahına müraciət edir. Onların sənədləri hazırlanır. Demək olar ki, hər gün bir neçə nəfərin sənədi əlavə olaraq hazırlanıb , seçki dairələrinə təqdim olunur. Eyni zamanda məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin, namizədin vəkillərinin və s. sənədləri hazırlanır.

Görülən işlər və prosesin hansı mərhələdə olması və seçki ilə bağlı mətbuat xidməti partiya funksionerlərinin bir neçəsinin fikirlərini öyrənib.

**Partiyanın İcra Aparatının rəhbəri, eyni zamanda Seçki Qərargahının sədri Taleh Əliyev deyib:** “Bu günə qədər 80-dan yuxarı namizədimizin sənədləri seçki dairələrinə təqdim olunub. Artıq imzatoplama mərhələsindəyik və demək olar ki, namizədlərin çoxu bu mərhələni də bitirmək üzrədir. Bəzi seçki dairələrində xırda para bürokratik əngəllər istisna olmaqla ciddi problemlə rastlaşmamışıq. Namizədlərdən heç biri fovarit namizəd statusunda deyil və partiya olaraq da hər birinin qələbəsi üçün sona qədər mübarizə aparmağı planlaşdırırıq. Amma seçkiyə təkcə biz hazırlaşmırıq, iqtidar da, digər müxalifət partiyaları da və müstəqil şəxslərdə seçkiyə qələbə əldə etmək üçün qatılırlar. Belə olduğu üçün də biz hər yerdə qələbə çalmayacağımızı da bilirik. Amma bütün bununla belə biz partiya olaraq bu seçkiyə həm parlamentdə daha çox sayda təmsil olunmaq, həm də ölkə miqyasında seçki kampaniyası aparmaq üçün qatılmışıq. Demokratiya hadisə yox prosesdir. Prosesi isə ayaqda saxlayan seçkilərdir. Digər tərəfdən isə seçkinin verdiyi fürsətdən istifadə edərək təşkilatlanırıq. Bunun nəticəsidir ki, partiyamız son bir neçə seçkidə daha da böyüyüb”.

**Ümid Partiyası Ali Məclisinin sədri Rəfail Tağızadə deyib ki, seçki demokratik prosesin əsas prosedurlarından biridir:** “Hamımız ölkənin demokratrikləşməsini istəyirik. Illərdi bu yolda mübarizə aparmış partiyalar bu mübarizədə daima öndə olmalıdırlar. Onlar demokratikləşmənin lokamativləridir. ”Onsuz da sonda bütün ağırlıqlar bizlərin üzərinə düşəcək. Biz bu prosesi sonadək aparmalıyıq. Əsas məqsədlərimizdən bir də insanların konstitusion hüquqlarından, seçki hüququndan istifadəsinə yardımçı olmaqdır. Azərbaycanın demokratikləşməsinin mütləq seçkilərdən keçəcəyinə və bunun mümkünlüyünə əminlik yaratmaqdır. Gec, ya tez bu olacaq. Proses dayandıqca ona yenidən başlamaq çətin olur. Ona görə də biz bu prosesi sonacan aparmalıyıq. Bizə ümid verən, inam yaradan məsələlərdən biri də son zamanlar gənclərin həm namizəd olmaları, həm də seçki prosesinə aktiv şəkildə qoşulmalarıdır. Demək ki, hələ hər şey itirilməyib. Ölməyib. Sadəcə əleziyib. Və artıq dirçəlmək ərəfəsindədir. Bunlar bizə daha böyük ruh verir. Gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Dövlətin, millətin gələcəyidir. Onlar nə istədiklərini yaxşı bilirlər. Son vaxtlar partiyamızın sıralarına qoşulan, namizəd olmaq istəyənlərin sayı get-gedə artmaqdadır.

Gənclər öz istəklərinə ağıllı şəkildə qovuşmağın yollarını bildikdə özləri və dövlət üçün lazım olanları mütləq əldə edəcək.

Gələcəyə böyük inamla baxan belə gəncləri görəndə qürur hissi keçirirsən."

**Ümid Partiyası sədrinin müavini, Naxçıvan MR təşkilatının sədri Faiq Əliyev qeyd edib ki, Ümid Partiyası olaraq hər zaman seçki məsələsinə fərqli baxıblar:** "İnsanları seçkilərdə iştiraka inandırmaq, proseslərə, aktiv siyasi fəaliyyətə qoşmaq, seçki ənənəsinin unudulmasına imkan verməmək lazımdır. Bu il isə vəziyyət tam fərqlidir. Dünyada baş verən siyasi proseslər, Azərbaycan hakimiyyətindən dəyişiklik etməyi, siyasi islahatlar aparmağı tələb edir. Baş verən proseslər əhalidə də dəyişikliyin olacağına müəyyən ümidlər yaradır. Biz də düşünürük ki, uzun illərdən sonra nəhayət ki, hakimiyyət basqılardan, beynəlxalq qınaqdan qurtarmaq üçün müəyyən addımlar ata bilər və atmağa məhkumdur. Seçkilər az da olsa demokratik keçirilə bilər. Artıq insanlar da parlamentdə guya ki, “onları təmsil edən”, danışmayan, bir dəfə də olsun seçkidən sonra onların görüşünə gəlməyən, problemləri ilə maraqlanmayan deputatlardan qurtarmaq istəyirlər. Bu cür adamların parlamentdə təmsil olunması artıq düşünürük ki, hakimiyyətə də sərf etmir. Məsələn, 4 saylı Naxçıvan şəhər Dairə Seçki Komissiyasından 5 dönəm deputat seçilərək parlamentdə təmsil olunan Eldar İbrahimov bir dəfə də olsun seçicilərlə görüşə gəlmir. Demək olar ki, seçki dönəmində də çox zaman seçicilərlə görüşmür. Eləcə də muxtar respublikada olan digər DSK-lardan seçilən deputatlar. Onların parlamentdə təmsilçiliyi Naxçıvan seçicisi üçün heç bir əhəmiyyət kəsb etmir.

**Ümid Partiyası Gəncə şəhər şöbəsinin sədri Salman İmanlı isə bildirir ki, ölkədə seçkilərin taleyini məhz Azərbaycan seçicisi həll etməlidir. Seçki mühitinin yoxluğu , seçkilərin demokratik keçirilməməsi isə tamam başqa mövzudur:** “Seçicini seçkiyə gətirmək, seçici səslərinin qorunması, seçki saxtakarlığının qarşısını almaq isə məhz biz müxalifətin öhdəsinə düşür. Biz bunu bacarsaq uğur qazana biləcəyik, əks halda, həmişəki kimi məğlub olaraq bunun səbəblərini bir-birimizdə görəcəyik. Hər şey fəaliyyətimizdən çox asılıdır. Təbii ki, ümidçi olaraq çox ümidliyəm. Atalarımızın gözəl bir kəlamı var “İşə ümidlə başlamaq onun yarısını başa vurmaq deməkdir”. Onu deyim ki, bu inam məndə hələ 2010-cu ildə keçirilən Parlament seçkilərindən dərhal sonra yaranıb. Həmin seçkilərdə mən *(qeyri-təvazökarlıq çıxmasın)* bildirim ki, 4 mindən artıq səs toplamışdım. Mənim qalib gəlməyimə baxmayaraq haqqım oğurlandı. Sonradan Avropa İnsan Hüquqları məhkəməsinə müraciət etdim. Hal hazırda Avropa Məhkəməsində işə baxılır. Yazışmalardan o qənaətdəyəm ki, Avropa Məhkəməsi mənim hüquqlarımın pozulmasına dair qərar çıxaracaq. Ümid Partiyası olaraq biz ölkənin bütün regionlarında təşkilatlanmışıq. Ancaq bu o demək deyil ki, bizim namizədlər bütün dairələrdə qalib gəlmək gücündədir. Partiyamızın bu prosesə qoşulmaqda vəzifəsi həmdə ölkədə seçicini yalnız seçki yolu ilə uğur qazanmasına inandırmaqdır. Müxalifətçi, müstəqil, azad düşüncəli namizəd olacaq həmvətənlərim və dostlarım da bilsin ki, əgər seçkidə uğur qazanmaq istəyiriksə çalışmalıyıq və qələbəyə ümid etməliyik, yoxsa formal olaraq namizəd olub prosesə qoşulmağın tərəfində deyiləm".

S.İmanlı deyib ki, Ümid Partiyası olaraq ölkənin bütün regionlarında təşkilatlanıblar: “Ancaq bu o demək deyil ki, bizim namizədlər bütün dairələrdə qalib gəlmək gücündədir. Partiyamızın bu prosesə qoşulmaqda vəzifəsi həmdə ölkədə seçicini yalnız seçki yolu ilə uğur qazanmasına inandırmaqdır. Müxalifətçi, müstəqil, azad düşüncəli namizəd olacaq həmvətənlərim və dostlarım da bilsin ki, əgər seçkidə uğur qazanmaq istəyiriksə çalışmalıyıq və qələbəyə ümid etməliyik, yoxsa formal olaraq namizəd olub prosesə qoşulmağın tərəfində deyiləm”.

❑ Mətbuat xidməti



# Bizim sanksiya daha uzundur

Zamin HACI
zaminhaci@gmail.com

“Ziyad xan oğlunun yanından çıxıb, bir baş divana gəldi, taxtına çıxıb əmr verdi ki, hər kim mənim oğlumun dərdini bilə, mən onu dünya malından qəni elərəm. Şəhərdə təbib qalmadı gəlməmiş ola, amma heç kim Kərəmin dərdindən bir şey anlaya bilmədi”.

**(“Əsli və Kərəm” dastanı)**

**Avropa Parlamenti Azərbaycan hakimiyyəti qarşısında qəti tələblər qoyub, deyir, siyasi dustaqları buraxmasanız, sizə sanksiya tətbiq edəcəyik, Qərbə buraxmayacağıq.**

Yapist yoldaşlar da bu tənqiddən çox hirsləniblər, deyirlər cəhənnəmə sanksiya qoyun, lazım gəlsə biz özümüz sizə embarqo qoyarıq. Hətta deputatxana komissiya müdirlərindən Əli Hüseynli müəllim “Bu sanksiyalar olsa ən çox ziyanı Avropa görəcək” demişdir.

Doğrudan da Avropanın bir sanksiyalıq canı var, əgər Azərbaycan öz embarqosunu çıxarıb qoysa, qoca qitə darmadağın olar *(Bu yerdə Lissabon sammiti zamanı, uzaq 1997-ci ildə AzTV-də guruldayan kənd zəhmətkeşlərindən birinin tarixə qızıl hərflərlə yazılan sözləri yada düşdü: “Ermənilər o yan bu yan eləyirdilər, ancaq möhtərəm cənab prezidentimiz vetosunu çıxarıb qoydu stolun üstünə, qaldılar yana-yana”).* Təkcə qara kürü hədiyyələri, neft dollarları deyil, Qərbin Azərbaycandan asılılığı çox böyükdür.

Misal üçün, Almaniya kansleri Angela Merkelin iş avtomobilinin Naxçıvan Avtomobil Zavodunda yığılan “Naz-Lifan” olduğunu bilirdinizmi? Bilmirdinizsə, öyrənin. Biz paxıl deyilik.

Yaxud, qabaqlar bizim şeyx qulunc olanda, ya da hansısa yaltaq şairə böyrək köçürmək lazım gələndə qaçırdıq Almaniyanın, Amerikanın siçovullar oynaşan kir-pasaqlı ambulatoriyalarına. İndi vəziyyət nəinki 180 dərəcə, hətta 360 dərəcə, bəzi hallarda Farengeyt üzrə 451 dərəcə dəyişibdir! Hazırda Qərbdə kimsə xəstələnəndə həkimlər baxıb başını bulayır, deyirlər: “Ooo, mister (ya da miss - vəziyyətə baxır - Z.H.), bunu tez götürün, Bakıya qaçın. Bu xəstəliyin çarəsi dünyada ancaq Bakı şəhərindədir”. Keçən il Barak Obama kor bağırsağını “Semaşko”da kəsdirdi. Roma papası Benedikti Ağdaş Diaqnostika Mərkəzində dializə qoşulan yerdə görüblər. Fransua Olland nəvəsini “Respublikanski”də sünnət etdiribdir. Bunlar hamısı səhiyyəmizin yüksək inkişafından xəbər verir.

Britaniya lordlarının uşaqları BDU-nun “yurfak”ında oxumaq üçün sino gedirlər. Hər yay milyonlarla avropalı turist Nabranın laciverd çimərliklərinə kəhrəba inək təzəyinə uzanmaq, Lənkəran çayı içmək, Şamaxı şoru yaxmacı, Qaxın “Kəlləpaça” restoranında dünya ləzzəti sürhüllü yemək üçün Azərbaycana axışırlar. Biz embarqo qoysaq, onlar üçün çətin olacaqdır.

Ekspertlər, QHT sektorunda nüvə partlayışından sonra salamat qalmış bəzi tarakanlar isə deyir ki, bizim iqtidarla təzyiq dilində danışmaq olmaz, bu sanksiya hədəsi ilə siyasi dustaqları azad etdirmək mümkün deyil. Pişim-pişim eləmək lazım imiş. Hərçənd, avropalılar azı 22 ildir, Avropa Şurasına dal qapıdan dürtülməyimizdən keçən 15 ildə də çox yalvar-yapış eləyiblər, min dənə artistliyə, yumşaq diplomatlığa-zada baş vurublar - bəyəm bunların bir xeyri olubdur? Əksinə, yapist yoldaşlar vəziyyəti daha da pisləşdiriblər. Deməli, naz-qozla oynamaq çıxış yolu deyil, daha kəskin üsullara əl atılmalıdır. Elə rejimlər var sadistdir, eləsi var mazoxistdir. Bizimki sadomazoxist sistemdir. Özü işgəncə verir, eyni zamanda qıraqdan da işgəncə olunmasını istəyir. Yoxsa həyatın ləzzətini duymurlar.

Mən sizə proqnoz edim bunun axırı necə olacaq: axırda Azərbaycanın dostluq-yoldaşlıq eləməyə Ermənistandan başqa kimsəsi qalmayacaq. YAP-ın uzaqgörən xarici və daxili siyasəti buna aparır. O zaman biz müharibəni dayandırıb İrəvanda birlikdə mikrorayon tikəcəyik, AzTV-dəki köhnə RAF-ın da təzəsini alıb Teatr meydanına buraxacağıq.

Hər şeyin təzəsi, dostun köhnəsi - necə deyərlər.

## YAP-ın siyahısındakı üç mübhəm




# Rektorlar mandata görə vəzifədən imtina etdi

### Səməd Seyidov, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı və Ağacan Abiyev fəaliyyətlərini Milli Məclisdə davam etdirməyə qərar veriblər; Abel Məhərrəmov niyə BDU-da qalmağa razılaşıb?; seçkidə təxminən 30-dək dairədə deputat mandatı “ancaq ədalət” meyarı ilə müəyyənləşəcək; biznesmen və yaşlılardan siyahıdan kənarda qalanlar var

**Noyabrın 1-də keçiriləcək parlament seçkilərinə təxminən ayyarım qalır. Bir sıra partiyalar seçki siyahısını açıqlasa da, hakim Yeni Azərbaycan Partiyasında (YAP) namizədlərin kimliyi ilə bağlı mənzərə qaranlıqdır.**

Məlumatlara görə, hakim partiyanın seçki siyahısını açıqlamağı gecikdirməsinin bir sıra səbəbləri var. Onlardan ən əsası idarəetmədə rəhbər olan şəxslərin, o cümlədən rektorların deputat olmaları ilə bağlıdır.

“Yeni Müsavat”ın məlumatına görə, seçkilərdə dövlət ali təhsil müəssisələrinin rektorları ilə bağlı konkret qərar verilib. Belə ki, rektorların gələcəkdə deputat kimi də fəaliyyətlərinə birmənalı yasaq qoyulub. Bu səbəbdən də bəzi rektorlar artıq seçimlərini ediblər.

Mənbəmizin xəbərinə görə, YAP-ın seçki siyahısında adını görəcəyimiz iki məşhur rektor-Dillər Universitetinin və Tibb Universitetinin rəhbərləri deputat kimi fəaliyyətlərin davam etdirməyə qərar veriblər. Həm Səməd Seyidov, həm Əhliman Əmiraslanov rektorluq kürsülərini deputat mandatı üçün boşaldıblar. S.Seyidov uzun müddətdir ki, Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edir və onun deputat kimi fəaliyyəti iqtidara daha çox lazımdır. S.Seyidovun həm də Elmar Məmmədyarovun mümkün istefasında xarici işlər naziri olmaq iddiası da var.

Ə.Əmiraslanovun seçimi də izah olunandır. 1992-ci ildən rektor olan Ə.Əmirasanovun 67 yaşı var və artıq o, 5 illik qarantiyalı mandatı daha üstün tutmağı lazım bilib.

Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmovun seçimi isə rektorluq olub. BDU rektoru titullu postdur və istənilən vəzifə üçün həmişə bir tramplin rolunu oynayır. *(Murtuz Ələsgərov spiker, Misir Mərdanov isə təhsil naziri postlarına BDU rektorluğundan gəlmişdilər - red.).* Yeri gəlmişkən, bu arada strateq.az saytı da “Yeni Müsavat”ın xəbərini təsdiqləyən məlumat yayıb. Saytın xəbərində deyilir ki, Abel Məhərrəmov iki gün əvvəl Prezident Administrasiyasına çağırılıb, onunla bu mövzu ətrafında ciddi müzakirə aparılıb. Ona qanunvericiliyin müvafiq müddəası xatırladılaraq, iki postdan birini seçmək tövsiyə olunub: **“Mənbə bildirir ki, belə bir müzakirə Abel Məhərrəmov üçün qəfil və gözlənilməz olsa da, o, artıq seçim etməkdən başqa çarəsinin olmadığını anlayıb və qərarını verib: qarşıdakı illərdə Milli Məclisdə deyil, rektor kimi fəaliyyətini davam etdirməkdə maraqlı olduğunu açıqlayıb”** deyə, xəbərdə bildirilir.

Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovanın da eyni seçimi etdiyi söylənilir. Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı isə mandatı seçib. O cümlədən Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru 78 yaşlı Ağacan Abiyev də deputat kimi qalmaq istədiyini deyib. Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyevlə bağlı isə xəbərlər ziddiyyətlidir. Çünki Ə. Vəliyev, özünün dediyinə görə, rəsmi sənədlərlə rektor deyil, universitetin idarəetmə şurasının sədridir. Üstəlik, Ə.Vəliyev həm də bank sektorunda fəaliyyət göstərir və bir biznesmen kimi də tanınır. Böyük ehtimalla da bu səbəbdən Ə.Vəliyev belə bir seçim qarşısında hüquqi olaraq qalmadığı üçün onun adı YAP-ın namizədlər siyahısında var. Beləliklə, deputat yerləri tutulmaq iddiasında olanlar rektor postlarını da boşaldır. İstisna deyil ki, siyahıya düşməyən bəzi tanınmış YAP-çılar məhz bu ali məktəblərdə rəhbər postlara təyin edilsin.

“Yeni Müsavat”ın məlumatına görə, hakim partiya və dövlətin yüksək vəzifəli şəxsləri ölkə prezidentinə deputat mandatı uğrunda yarışa qatılmaq istəyən təxminən 300 nəfər iddiaçının siyahısını təklif ediblər. Nəzərə alsaq ki, YAP 125 dairədən də namizəd verəcəyini bəyan etsə də, bəzi dairələrdə digər hakimiyyətyönlü partiyalara və namizədliyini müstəqil vermiş şəxslərə də güzəşt edə biləcəyini bəyan edib. Bu baxımdan, siyahıda seçimin necə çətin olduğu aydındır. Yeri gəlmişkən, bu seçkidə təxminən 30-dək dairədə deputat mandatı “ancaq ədalət” meyarı ilə müəyyənləşəcək. Bu barədə danışan mənbəmiz deyib ki, hakimiyyət bu dairələrdən namizəd irəli sürsə də, çalışacaq ki, seçki yarışına qoşulanlar özləri öz taleyini həll etsinlər, yəni seçicini seçki məntəqələrinə gətirib səs alıb, deputat mandatına sahiblənsinlər. Belə dairələrdən üç-dördü Bakıda, qalanları isə rayonlarda müəyyənləşib. Əgər bu məlumat təsdiqlənərsə, o deməkdir ki, siyasi hakimiyyət təxminən parlamentin 30 mandatının indidən demokratik seçki yolu ilə müəyyənləşməsinə razılaşıb.

Siyahı ilə bağlı daha bir xəbər yaşı 70-i keçmiş şəxslər və biznesmenlərlə bağlıdır. Birinci kateqoriyadan olan deputatlar Cəlal Əliyev, Fəttah Heydərov, Hadı Rəcəbli, Zeynəb Xanlarova, Xanhüseyn Kazımlı, Arif Rəhimzadə, Ziyad Səmədzadə, Elxan Süleymanov, Yaqub Mahmudov, Eldar İbrahimov, Hüseynbala Mirələmov və Rafiq Məmmədhəsənovdur.

Qaynağımızın xəbərində deyilir ki, bu “12"liyin yarısı mandat yarışında iştirak etməyəcək.

Biznes fəaliyyətlərindəki problemlərlə zaman-zaman gündəmə gələn, vətəndaşları narazı salan, adları son illər media səhifələrindən düşməyən deputat Fərhad Qəribov, Rəfael Cəbrayılov, Əsabil Qasımov, Nəriman Əliyev, Mahir Aslanov , Şeyxin qudası Qalib Salahzadə və Ayaz Orucovun da mandatsız qalacaqları iddia edilir.

Siyahı ilə bağlı hər şeyi öyrənmək üçün daha bir neçə saat gözləyək...

❑ **“Yenì Müsavat”**

# "Kürdlər Ərdoğana xəyanət etdilər"

## Bayram Balçı: "Türkiyə prezidenti onları cəzalandırmaq üçün müharibə edir"

**2013-cü ildən əldə olunmuş atəşkəs rejimini pozan PKK yenidən Türkiyə ordusu, polis və hökumət qüvvələrinə qarşı hücumlara başlayıb. Ölkənin demək olar ki, bütün cənub-şərq rayonlarında PKK yaraqlılarının hücumları qeydə alınır, hətta iri şəhərlərdə terror cəhdləri olur.**
**Terror təşkilatı hətta atəşkəs dönəmində gizli şəkildə silahlanıb və yeni terror müharibəsinə hazırlıq görüb.**

Türkiyə hökuməti isə bəyan edib ki, terrora qarşı müharibə PKK sonuncu yaraqlısı silahı yerə qoyana qədər davam edəcək. Türkiyə ordusunun hərbi birləşmələri ölkə ərazisi ilə yanaşı, Şimali İraqda, Qəndil dağlarında, eləcə də Suriya ərazisində PKK mövqelərini bombalayır.

Ancaq aydın məsələdir ki, terrorla müharibə elə də asan deyil, silahlı yerli qruplar xüsusən də dağlıq bölgələrdə əraziyə yaxşı bələd olmaq, təbii şəraitdən mükəmməl istifadə edərək bir qayda olaraq nizami ordu qüvvələri ilə uzun müddət savaşırlar. Ötən tarixi dövr sübut etdi ki, terrorla savaşmaq heç də asan deyil. Amma mümkünsüz də deyil.

Türkiyənin PKK, ümumiyyətlə, terror problemini aradan qaldırması ilə bağlı zaman-zaman yazılar yazılıb, təhlillər aparılıb, hətta filmlər çəkilib. PKK-nın nədən bu qədər davam etməsi, Türkiyə kimi güclü ordusu və dövlət sistemi olan bir ölkənin bu terror təşkilatını yox edə bilməməsinin səbəbləri hər kəsi maraqlandırıb. Türkiyə nədən "PKK terrorunun qarşısını ala bilmir" sualını Fransa Beynəlxalq Araşdırmalar Mərkəzi (CERI), Paris Siyasi Elmlər İnstitutunun eksperti Bayram Balçıya ünvanladıq.

**B.Balçi deyir ki, Türkiyənin PKK problemini həll etməsi üçün ilk növbədə ölkədə dərin islahatlar aparılmalıdır:** "Konstitusiya islahatları olmalıdır. Daha demokratik bir konstitusiya hazırlanmalıdır. Bunun üçünsə indi parlamentdə güclü bir partiya lazımdır, hansı ki, hazırda o yoxdur. Ərdoğan bunu etmək istədi, ancaq olmadı. Bunun olmamasının bir səbəbi də Ərdoğanın daha çox səlahiyyətə malik prezident sistemini təklif etməsi idi. Ancaq Türkiyə ictimai rəyi bunu istəmədi. Çünki daha avtoritar bir rejimin qurulmasını istəmirlər. Ancaq halbuki bəlkə də bu pis bir fikir də deyildi. Çünki nəticə etibarı ilə Türkiyədə demokratik problemin ən böyüyü kürd məsələsidir".


Bayram Balçı

**B.Balçı deyir ki, PKK probleminin həll olunmamasının daha bir mühüm faktoru xarici təsirlərdir:** "Kürd məsələsi yalnız Türkiyədə deyil, Suriya və İraqda da var. Hətta bir zamanlar SSRİ də kürdləri Türkiyəyə qarşı istifadə edirdi. Yəni Türkiyənin bu problemi təkbaşına həll etməsi bir az çətindir. Türkiyənin bir zaman ortaya qoyduğu "çözüm süreci" planının alınmamasının bir çox səbəbləri vardı. Ən mühüm səbəbi isə Ərdoğanın zəifləməsi idi. Ərdoğan güclü olduğu zaman kürd məsələsini həll edə bilərdi. Amma zəiflədi və artıq kürd məsələsinin həll edilməsi ona fayda və üstünlük vermir. Daha bir amil isə Suriya böhranıdır. Suriya məsələsi kürd məsələsi ilə bağlı planları pozdu. Suriya böhranı səbəbindən kürdlər çox gücləndilər və artıq daha çox şeylər istəyirlər. Bəşər Əsəd də onlara yardım etdi. İndi artıq kürdlər Suriyada muxtariyyət əldə etmək ərəfəsindədirlər və Türkiyədən də eyni şeyi istəyirlər".

**B.Balçı deyir ki, PKK-nın güclənməsi ilə bağlı İranın da adı hallanır. Ekspertə görə, bu olarsa Türkiyə üçün durum xeyli çətinləşəcək:** "Mən açığı qorxuram ki, İran da PKK-nı dəstəkləsin. İran son zamanlar çox gücləndi. Nüvə məsələsində üstünlük verən müqavilə imzaladı, eyni zamanda İraqda çox böyük təsir gücü var, Suriyada isə Bəşərin nəzarət etdiyi bölgə onların əlindədir. Livan da qismən onların nəzarəti altındadır. Əgər bu mərhələdə İranla PKK anlaşarsa, Türkiyənin bir çox bölgələri İranın təsiri altına düşə bilir. Məncə, bu ssenari mümkündür. Beləliklə, həm daxili, həm də xarici faktorlar var ki, Türkiyənin kürd problemini həll etməsinə mane olur".

**B.Balçının fikrincə, Türkiyə daxilində kürdlər Ərdoğanla anlaşmaya xəyanət etdilər:** "PKK məsələsində ən önəmli məsələ kürdlərin Ərdoğandan istifadə etdikdən, onun yardım və gücündən faydalandıqdan sonra ona arxa çevirməsi oldu. Ərdoğan çətin duruma düşəndə - "Camaat"ın onu zəifətməsi, Suriyada ilişib qalması və sair - kürdlər onu yalnız qoydular. Halbuki Türkiyə tarixində kürdlərə ən çox yardım edən, şərait yaradan lider Ərdoğan olub. İndi Ərdoğan kürdləri də "Camaat" kimi kürdləri də xəyanətkar hesab edir. Ərdoğan düşünür ki, "Camaat" kimi ona xəyanət etdi, ona görə də onları bu şəkildə cəzalandırmaq üçün müharibə edir. Amma savaş bu problemin həlli deyil. Çünki savaşı PKK da istəyir, bu savaş PKK-ya daha çox şey qazandıra bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "Moldova olayları Avropadan idarə olunur"

## Arzu Nağıyev: "Ukrayna hadisələri Moldovanın önəmini artırdığı üçün hazırda Qərb və Rusiya bu ölkədə nüfuz savaşına çıxıb"

**Avropanın ən kasıb və sakit ölkələrindən biri olan Moldovada bu ayın əvvəlində əhalinin küçələrə çıxıb etiraz aksiyası keçirməsi birmənalı qarşılanmadı. Təbii ki, aksiyanın şüarları aydın və sadə idi: ölkədən yoxa çıxmış 1 milyard dollar (bu məbləğ milli gəlirin 13 faizi qədərdi - K.) geri qaytarılsın, prezident istefa versin.**

Ancaq ilk gündən bu aksiyaların planlı olduğu, müəyyən qüvvələr tərəfindən təşkil olunması ilə bağlı iddialar səsləndi. Çünki məsələ ondadır ki, Moldova "Şərq Tərəfdaşlığı" Proqramının üzvü olan ölkə kimi, AB ilə yaxından əməkdaşlıq edir. Bundan başqa, Moldova AB ilə assosiasiya sazişi imzalayıb. Ancaq Moldovanın həm də Dnestryanı bölgəsi kimi münaqişəsi var və ölkə əhalisinin 20 faizdən çoxu yoxsulluq həddindən aşağı yaşayır.

Moldovanı qarışdıran kimdir? İlk vaxtlarda nəzərlər Rusiyaya çevrildi. Bir çoxları AB ilə yaxınlaşan Moldovanın Moskva tərəfindən cəzalandırıldığını düşünsə də, sonradan fərqli versiyalar ortaya atıldı. Əcəba, Avropanın ən kasıb ölkəsində çalxalanma kimə və nəyə görə lazımdır?

**Mövzunu dəyərləndirən politoloq Arzu Nağıyevin fikrincə, Moldovada əhalinin kompleks tələblərlə meydanlara axışması və konkret şüarlarla çıxışı hazırlanmış siyasi hadisə idi. Bu aksiyaların Moldovadakı təşkilatçısı isə qərbyönlü qurum olub:** "Moldovada "Ləyaqət və həqiqət" adlanan vətəndaş platforması sentyabr ayının 6-dan başlayaraq Kişinyovda mitinqlər edir və əsas tələbləri prezidentin və hökumətin istefası, yeni parlament seçkilərinin keçirilməsidir. Mitinqin əsas səbəbi kimi milli bankdan 1 milyard dolların yoxa çıxması da göstərilir. Belə bir vətəndaş platformasının yaradılması bu ilin fevralında baş verib, tərkibi isə əsasən Avropa meylli sabiq deputat və məmurlardan ibarətdir. İlk öncə qarşılarına məqsəd kimi mütəşəkkil cinayətkarlıq və korrupsiya ilə mübarizəni qoyurdular. Təbii ki, bank və maliyyə sektoru ilkin hədəflərdən biri idi. Bundan başqa, hüquq-mühafizə orqanlarının siyasətdən kənarlaşdırılması, onların müsabiqə yolu ilə işə götürülməsi, dövlət və hökumət rəhbərlərinin Avropa və ABŞ-a buraxılmaması və s".

**A.Nağıyev deyir ki, Moldovada təşkil olunan son illərin ən böyük mitinqi hakimiyyəti təşvişə salıb. Ekspert deyir ki, aksiyanın əsas təşkilatçısı Avropada məskunlaşıb:** "Mitinqləri maliyyələşdirən əsas şəxslər hazırda Almaniyada yaşayan biznes adamlarıdır. Əsas suallardan biri budur ki, hərəkat Rusiya və ya avropayönümlüdür? Diqqətlə izləndə hiss olunur ki, Rusiya əleyhinə daha çox çıxışlar edilir və hətta tez-tez "Böyük Rumıniya" və Avropa İttifaqına daxil olmaq məsələləri daha çox qabardılır. Avropa isə öz növbəsində Moldova xalqını dəstəklədiyini və stabilliyin olmasının zəruriliyini bildirir. Avropa İttifaqı öz növbəsində hakimiyyəti mitinqçilərlə birbaşa danışığa çağırır".


Arzu Nağıyev

**A.Nağıyev deyir ki, kasıb və kiçik ölkə olsa da, Moldova hazırda regionda ciddi əhəmiyyət daşıdığı üçün böyük güclərin diqqət mərkəzindədir:** "Moldova strateji bir ərazidir və demək olar ki, Ukrayna və Avropa, daha doğrusu, Rumıniya arasında bir strateji ərazidir. Rusiyanın yaratdığı bir müharibə ocağı da, "Dnestryanı dövlət" deyilən qurum da onun ərazisindədir. Rusiyanın Qara dəniz vasitəsilə Ukraynanın arxa tərəfinə keçməsi və Dnestryanı ərazidən Ukrayna üçün zərbə mövqeyi seçməsi planı həmişə olub. Avropa da bunu gözəl başa düşür və düşünürəm ki, bu gün təşkil edilən mitinqlərin əsas səbəbi Rusiyanın planlarını pozmaq üçün nəzərdə tutulub. Məhz bu məqsədlə Avropa və ya Qərb bu istiqamətdə iş aparır. Güman etmək olar ki, bu gün iqtisadi məsələlərlə başlayan mitinqlər davam edərsə siyasi səviyyəyə gətiriləcək və tələblər dəyişəcəkdir. Yəqin ki, Qərbin maliyyə dəstəyi də tezliklə özünü büruzə verəcəkdir".

❑ **KƏNAN**



# Azərbaycan Türkiyə sınağından çıxa bilirmi?

## İctimai-siyasi fikirdə bu suala birmənalı cavab yoxdur...

**Qardaş Türkiyənin tarixinə növbəti dəfə qanlı günlər yazıldı. Son günlər Türkiyədə baş verən hadisələri ekspertlər PKK-nın ən iri miqyaslı hücumlarından hesab edirlər. Bu il 8 sentyabr tarixində Türkiyə ilə Azərbaycanın Naxçıvan bölgəsi arasındakı İqdır əyalətinin Dilucu sərhəd qapısında yaşanan gərginlik təhlükəni Azərbaycan sərhədlərinə də yaxınlaşdırdı. Lakin Azərbaycanda Türkiyədə baş verən terror hadisələrinə kəskin reaksiya müşahidə olunmadı.**

**Deputat Fazil Mustafa** hesab edir ki, Azərbaycan hazırkı məqamda Türkiyənin yanında olmalıdır: "Türkiyədə baş verən hadisələrə bu qədər laqeyd yanaşmaq doğru deyil. Bunun fəsadlarını sonradan görə bilərik. Biz Böyük Quruluş Partiyası olaraq Azərbaycanda hər hansı aksiya keçirməyi düşünmürük. Çünki hesab edirik ki, bizim Bakıdan durub Türkiyəyə dəstək aksiyası keçirməyimizin bir mənası yoxdur. Dəstək Türkiyədə verilmədir və konkret siyasətdə ifadə olunmalıdır. Biz də o siyasəti bu gün formalaşdırmaq imkanına sahib deyilik. Ona görə də təkliflər irəli sürürük ki, bu, belə olarsa yaxşı olar".

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah bildirdi ki, Türkiyə qardaş ölkə olduğundan ona qarşı hər bir addım, bizə qarşı addım deməkdir:** "Türk xalqına qarşı törədilən terror hadisələri həm də Azərbaycanın maraqlarına qarşı törədilib deməkdir. Azərbaycan hakimiyyətinin PKK-nı hələ də terror təşkilatı kimi rəsmən tanımaması rejimin anti-Türkiyə siyasətidir".

**Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn:** "Türkiyə dövlətinə və millətinə qarşı terror formasında müharibə aparılır. Biz bununla bağlı bir neçə dəfə bəyanat vermişik. Əlbəttə ki, çox ciddi narahatlıq ifadə olunaraq qardaş xalqa başsağlığı verilib. Buradan bizim edə biləcəyimiz türk milləti ilə həmrəylik ola bilər. Mövqeyimiz bundan ibarətdir ki, birmənalı şəkildə həmin aktlar pislənilir".

**Deputat Zahid Oruc Azərbaycan tərəfinin hansı addımlar atmalı olduğundan danışdı. Öncə bildirdi ki, Türkiyəni ərəb dünyasındakı proseslərdən, o regionun siyasi gələcəyinin quruculuğundakı yerindən kənarlaşdırmaq istəyirlər:** "Eyni zamanda Yaxın Şərqdəki ağır böhrana Türkiyəni qoşmaqla onu iqtisadi və siyasi cəhətdən zəiflətmək niyyəti güdülür. Paralel şəkildə Türkiyəyə ərazi iddiaları olan, kürd millətçilərini qabardıb, onu müasir türk dövlətinə qarşı qoyurlar. Türkiyənin bir sıra regionlarda, o cümlədən Cənubi Qafqaz bölgəsində maraqlarına zərbə vurulması avtomatik şəkildə Azərbaycanın da mənafelərini təhdid edir. Nəticədə isə bu geopolitik qovşağı tutmağa çalışan digər dövlətlər hərəkətə keçirlər".

**Z.Oruca görə, Azərbaycanda Türkiyədəki hadisələrlə bağlı aksiyalar, geniş etiraz tədbirlərinin keçirilməsi müəyyən effektə malik ola bilər:** "Ancaq ölkə rəhbərinin dərhal Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana telefon açması, diplomatik kanallarla real əməli yardım təklifini bildirməsi çox önəmlidir. Biz orada konkret məsələlərin nədən ibarət olduğunu söyləyə bilmirik. Bu gün (dünən -red.) işə başlayan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti tədbirində ehtimal ki, Türkiyə ilə həmrəylik nümayiş etdiriləcək. Türkiyə və Azərbaycanın imkanı var ki, həm də bu format vasitəsilə qardaş ölkə əleyhinə olan beynəlxalq prosesləri pisləsin. NATO-nun qardaş ölkənin təhlükəsizliyinə real yardımlarını tələb etsin, Avropanın isə burada son dərəcə mənfur rol oynadığını ortaya qoysun. Ancaq o da mümkün idi ki, Azərbaycanın siyasi təşkilatlarının, ictimai institutlarının birgə iştirakı ilə böyük tədbirlər keçirilərdi. Hesab edirəm ki, 2011-ci ildə qurulan Təhlükəsizlik Şurası bu məsələni tənzimləməlidir. Azərbaycanda hər kəs qardaş Türkiyənin yanındadır. Lakin bunun aksiyalarla əməli müstəvidə nümayişinə də ehtiyac var".

**NİDA-çı Zaur Qurbanlı:** "Bununla bağlı sosial mediada hər hansı bir kampaniya başlatmağı düşünmürəm. Çünki hesab edirəm ki, bu, Türkiyə hakimiyyətindəki qüvvələr tərəfindən təşkil olunma ehtimalı daha çox olan hadisədir. Belə hadisənin qabağını sosial şəbəkələrdəki kiçik aksiyalarla almaq olmaz".

❑ **Əli RAİS**

# Ölən analar və uşaqlar - baş pediatrın suçu yoxmu...

## Azərbaycan tibbinin inkişafına mane olan anestezioloq-reanimatoloq bu qədərmi əvəzedilməzdir; "səhv düşəndə yerimiz"

**Azərbaycan uşaq ölümlərinin sayına görə MDB məkanında ən ön sıralarda gəlir. Ölkədə son zamanlar tibb müəssisələrinin, xəstəxanaların inkişaf etdirilməsinə, yenilənməsinə və bir sıra sahələrdə irəliləməsinə baxmayaraq, doğuş zamanı ana və uşaq ölümlərinin statistikası narahatlıq doğurur.**

**1000 doğuşa 1 ana ölümü**

2010-cu ilin statistikasına əsaslanaraq, deyə bilərik ki, Azərbaycanda hər min doğuşa bir ana ölümü düşdüyü bildirilir. Ərazisi və əhalisi Azərbaycana yaxın olan Avstriyada vəziyyət 18 dəfə yaxşıdır: Avstriyada hər 18 min doğuş bir ana ölümü ilə nəticələnir. Belarusda 16 min 300 doğuşdan 1-də qadın ölür. Ermənistanda da durum Azərbaycandan, az qala, 2 dəfə yaxşıdır. Orada hər 1700 doğuşa 1 qadın ölümü düşür.

2012-ci ilin məlumatına görə, Azərbaycanda doğulan hər min uşaqdan 35-i 5 yaşınadək yaşamır. Ermənistanda hər doğulan min uşaqdan 16 nəfəri 5 yaşa gedib çatmır.

Avstriyada hər min uşaqdan cəmi 4-ü 5 yaşadək yaşamır.

**Bu məsələ səhiyyə naziri Oqtay Şirəliyevin** də diqqətini çəkib. O, 2014-cü ildəki çıxışlarından birində deyib: «Çalışmalı olduğumuz əsas sahələrdən biri də ana və uşaq ölümü faktlarının azalmasıdır. Bu sahədə sıçrayış olmasa da stabil, dinamik irəliləyişlər var».

Səhiyyə Nazirliyinin məlumatına görə, 2013-cü ildə ölkədə 24 ana ölümü baş verib.

**Baş pediatrın suçu yoxmu**

**Azərbaycanın baş pediatrı Nəsib Quliyev** bu barədə mətbuata deyib ki, ölkədə uşaq ölümü 90-cı illərlə müqayisədə 29-30 faizdən 10.8 faizədək azalıb. Ötən ilin rəqəmlərinə dayanan baş pediatrın sözlərinə görə, körpə ölümü də 3 dəfə azalıb. Bütün bunları əsas gətirən Nəsib



Nəsib Quliyev

Quliyev məsələ ilə bağlı beynəlxalq təşkilatların hesablamaları ilə razılaşmır: **«Orada dəqiq statistika yoxdur. Soruşanda sorğu forma və texnologiyasını bizə bildirmirlər. Respublika Statistika Komitəsi, Səhiyyə Nazirliyi var. Yəni mütləq say müəyyənləşdirilib... Azərbaycanda dövlət qurumları uşaq ölümünü gizlətməyə maraqlı deyillər. İndi elə tələb də yoxdur».**

Lakin illərdir ki, ölkənin baş pediatrlığını həyata keçirən, bu sahəyə əsas məsul olan şəxs hər zaman özünü məsuliyyətdən kənarda qoymağa çalışır. Sanki söhbət başqa bir sahədən gedir və Nəsib Quliyev də ekspertdir, öz fikirlərini söyləyir. Ana və uşaq ölümləri ilə bağlı ölkəmiz illərdir ki, mənfi reytinqlər göstərir, dövlət başçısının, səhiyyə nazirinin Azərbaycan tibbinin inkişafı üçün göstərdiyi xidmətlərə zərər gətirən bir sahəyə çevrilib; lakin bu sahənin əsas məsul adamı sadəcə münasibət bildirir, rəqəmlərlə oynayır. Sanki məsələnin ona dəxli yoxdur.

**Anestezioloq-reanimatoloqun uğursuz baş pediatrlığı**

Lakin Nəsib Quliyevin sahəsinin Azərbaycan tibbinə bir ayaq kündəsi olmasının olduqca mühüm səbəbləri var. Hörmətli professor öz sahəsində deyil! O, yalnız bakalavr təhsilini pediatriya üzrə alıb. Onun namizədlik və doktorluq işinin hazırda rəhbərlik etdiyi sahə ilə yaxından-uzaqdan, heç bir əlaqəsi yoxdur. "Yeni Müsavat" müxbirinin araşdırması zamanı aydın oldu ki, N. Quliyev namizədlik və doktorluq dissertasiyalarını anesteziologiya-reanimatologiya üzrə müdafiə edib. Həmin vaxtlar ATU-nun rektoru olan Yaqub Məmmədovun kadrlarından sayılan N. Quliyevə Moskvada və Bakıda bütün imkanlar yaradılıb ki, bu sahə üzrə "müvəffəqiyyətlə" müdafiə etsin. Hörmətli Yaqub müəllimin yaxın adamı kimi, məsul katib olaraq qəbul imtahanlarının "gülünü" bir yerdə dəriblər. Və daha sonra da rahatlıqla müdafiə etdiyi sahədə deyil, pediatriya sahəsində yüksək postlara təyin olunub. Onlar hansılardır? N. Quliyev barəsində vikipediya məlumatları: **"Nəsib Quliyev 1951-ci ildə anadan olub. 1973-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1981-ci ildə Moskvada namizədlik və 1991-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1992-ci ildən professor və ATU Uşaq Xəstəlikləri kafedrasının müdiri seçilib. 1994-cü ildən hazıra qədər Səhiyyə Nazirliyi K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru vəzifəsində işləyir. Səhiyyə Nazirliyinin Pediatriya üzrə baş mütəxəssisidir. 2000-ci ildən əməkdar elm xadimidir. 2007-ci ildə Türk Dünyası Pediatriya Birliyinin prezidenti seçilib".**

Sonuncu lap anektod kimidir. Adamın rəhbərlik etdiyi sahə Azərbaycanda batır, özü isə Türk Dünyası Pediatriya Birliyinin prezidenti seçilir. Absurd!

Məlumatdan da göründüyü kimi, N. Quliyev anestezioloq-reanimatoloq olmasına baxmayaraq, ATU Uşaq Xəstəlikləri kafedrasının müdiri kimi uzun illərdir ki, fəaliyyət göstərir...

Sual olunur: ölkədə çoxsaylı və yüksək ixtisaslı pediatrlar olduğu halda, niyə anestezioloq-reanimatoloq Azərbaycanın baş pediatrı, ATU Uşaq Xəstəlikləri kafedrasının müdiridir?

Əmin olun ki, bu sualların cavabında həm də Azərbaycanda ana və uşaq ölümlərinin yüksək faizi olmasının səbəbləri də var!

Ümid edirik ki, hörmətli səhiyyə nazirimiz Oqtay Şirəliyev və Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov bizim bu sualımızın cavabını verməyə çalışacaqlar.

❑ M. MAHRIZLI

# Həcc ziyarəti başlayır

## Bu il hökumət Həcc kvotasını gözlənilmədən 30 faiz azaldıb, qiymətlərin baha olması səbəbindən kvota dolmayıb

**Azərbaycanda Həcc ziyarəti başlayıb. İlk yerli zəvvar qrupu sentyabrın 11-də Bakı Hava Limanından Mədinəyə yola düşüb. Bu il zəvvarlarımız AZAL-a məxsus təyyarələrlə Məkkəyə səfər edəcəklər. Ötən illərdən fərqli olaraq bu il səfər marşrutu dəyişdirilib. Zəvvarlar son illərdə ilk dəfə olaraq əvvəlcə Mədinəyə gedəcək, burda İslam Peyğəmbərinin (s.ə.s) dəfn olunduğu şəhəri ziyarət etdikdən sonra Məkkəyə yollanacaqlar.**

Bu il Həcc ziyarəti sentyabrın ortalarından başlayacaq, ziyarətin əsas mərhələsi, yəni Qurban bayramı sentyabrın 24-də qeyd olunacaq.

Ancaq builki Həcc ziyarətinin ən mühüm "yeniliyi" qiymətlərlə bağlıdır. Bu ilin əvvəlində baş verən devalvasiyadan dərhal sonra QMİ rəhbərliyi Həcc qiymətlərini devalvasiyaya uyğunlaşdırdı. Nəticədə qiymətlər 1450-1600 manat həcmində qaldırılıb. Bununla da onsuz da baha olan Həcc qiymətləri daha da bahalaşaraq orta statistik azərbaycanlı üçün əlçatmaz olub. Belə ki, daha yaxşı şəraitli hotellərdə qalmaq, yeməklərlə təmin olunmaq, o cümlədən hotellərdə 4 nəfərlik otaqlarda yerləşdirmə ilə təklif olunan VİP xidmətli Həcc paketi 5750 dollar, nisbətən ucuz, 6 nəfərlik otaqlarda qalmaq üçün təklif olunan variant isə 4700 dollar müəyyən olunub.

Yeri gəlmişkən, ziyarət qiymətləri müvafiq olaraq VİP paketlər üçün 4150 manat, nisbətən aşağı xidmət üçün təklif olunan variantlar üzrə 3250 manat olub. QMİ devalvasiyanı təyyarə icarəsi və Səudiyyə Ərəbistanında xidmətlərin ABŞ dolları ilə ödənilməsi ilə əsaslandırıb. Ancaq istənilən halda bu qiymətlər Azərbaycan, eləcə də qonşu Rusiya, İran və Türkiyədəki müvafiq qiymətlərlə müqayisədə bahadır. Üstəlik, Azərbaycan insanlarının maddi imkanları və bu ilin əvvəlindəki devalvasiyadan sonra yaranmış sosial-iqtisadi vəziyyətdə Həcc ziyarətinə getmək istəyənlər üçün daha da çətin vəziyyət yaradıb.

Lakin bu məsələnin ən maraqlı tərəfi qiymətlərin birdən-birə bu qədər qaldırılmasının arxasındakı səbəblərlə bağlıdır. Təbii ki, qiymətlərin bu qədər baha olması Azərbaycanda Həcc zəvvarlarının sayına təsir etdi. Yəni məlum oldu ki, bu il Həcc kvotası dolmayıb. Hətta ötən həftə 70-ə yaxın zəvvar yerinin boş qaldığı bildirilirdi. Ancaq ən maraqlı məqam heç şübhəsiz ki, zəvvar kvotasının növbəti dəfə azaldılması idi. Bu isə o qədər də diqqəti cəlb etməmişdi.

Məsələn, ötən il elan olunduğu kimi, Həcc ziyarətinə Azərbaycandan 3600 nəfərdən bir qədər artıq, hətta 4 minə yaxın insanın getməsi ilə bağlı məlumatlar vardı. Ancaq bu il məlum olub ki, Həcc kvotası 2400 nəfərdir. Yəni rəsmi olaraq ötənilki ilə müqayisədə 1200 nəfər az. Aldığımız məlumata görə, bu il Həcc kvotasını Azərbaycan hökuməti azaldıb. Ancaq bunun səbəbi açıqlanmır. Lakin gələn bilgilərə görə, qərar hökumət tərəfindən verilib və Şeyx buna qarşı çıxa bilməyib. Bu mənada, göründüyü kimi, əslində ötən illə müqayisədə bu il Həcc zəvvarlarının sayında azalma lap çoxdur. Bu qərarın hansı zərurətdən doğması ilə bağlı izahlar içərisində hökumətin Şeyxin imkanlarını məhdudlaşdırmaq cəhdi olduğu ilə bağlı iddialar var. Məlum olduğu kimi, son illərdə hökumət Şeyxin təsir imkanlarını, dini sahədə nüfuzunu zəifləmək istiqamətində bir sıra qərarlar verib. Xatırladaq ki, Azərbaycanda Həcc kvotasının kəskin azaldılması ilə bağlı qərar yalnız bir dəfə - 2009-cu ildə verilib. Həmin il Həcc kvotası məhz hökumətin təzyiqi ilə 6 min nəfərdən 2 minə endirilmişdi. Həmin vaxt formal olaraq bu addım epidemiyanın yayılması ilə əlaqələndirilsə də, bir çox mənbələr hökumətin dini sahəyə təzyiqlərinin şiddətli vaxtına təsadüf edən bu qərarı təəccüblü qarşılamamışdılar.



Ancaq indi durum xeyli fərqlidir, hökumətin dini sahədə ciddi təzyiqləri yoxdur, əksinə, ölkə başçısı dini fəaliyyətə dəstək verdiyini açıq şəkildə nümayiş etdirir, Azərbaycanı müsəlman aləminin bir parçası kimi gördüyünü bəyan edir. Belə bir vaxtda gözlənilmədən Həcc kvotasının kəskin azaldılması yalnız "daxili hesablaşma", yəni QMİ sədrinə münasibətlə bağlı ola bilər.

Bizə çatan bilgilərə görə, Həcc qiymətlərinin birdən-birə bu qədər bahalaşması da kvotanın kəskin azaldılması ilə bağlıdır. Belə ki, Şeyxülislam kvotanın azaldılması ilə yaranacaq itkini qiymətləri baha etməklə doldurmaq istəyib. Nəticədə həddən artıq baha qiymət səbəbindən Həcc zəvvarlarının sayı azaldılmış 2400 nəfərlik kvotanın doldurulmasına kifayət etməyib.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015

## Xalq artisti teatrın direktoruna üsyan etdi

**Sonuncu görüşümüz bir neçə il əvvəl “Cavad xan” filminin premyerasından sonra olmuşdu. Gəncə xanı rolunu oynamağından çox qürurluydu, yaratmaq eşqiylə danışırdı. Bu dəfə onu yorğun, bir az da qocalmış, hətta bezikmiş gördüm. Hətta söhbətin sonunda sənətə gəldiyinə görə peşmançılığını da etiraf etdi. Xalq artisti Nurəddin Mehdixanlıdır həmsöhbətim. Neçə müddətdir səhnələşdirdiyi tamaşaları ilə deyil, qalmaqalları ilə gündəmdə olan Akademik Milli Dram Teatrında baş verənlərdən danışdıq. Elə teatrın qarşısındakı çayxanada...**



# “Biz adamyeyən, terrorçu deyilik”

## Nurəddin Mehdixanlı: “İsrafil İsrafilov oddan qorxan kimi, kollektivin bir yerə yığılmasından qorxur”

***- Nurəddin bəy, Akademik Milli Dram Teatrında nə baş verir?***

- Yanlışlıqlar həmişə cəmiyyətdə problemlər yaradır, faciələrə səbəb olur. Yanlış yanaşma, yanlış münasibət, yanlış təyinat da eləcə... Akademik Milli Dram Teatrın ən böyük problemi ondan ibarətdir ki, yanlışlıqlar burulğanına salıblar. Bütün mənalarda. Əgər rejissor rolları düzgün bölmürsə, o tamaşa alınmayacaq. Əgər o tamaşanın yükünü daşıyacaq aktyorlar gücünə və imkanlarına görə öz rollarını almayıblarsa, orda uğurdan söhbət gedə bilməz. İdarəçilikdə də belədir. Yanlış təyinatlar, adamların layiq olmadığı yerdə olması problemlər yaradır, Akademik Milli Dram Teatrı da bu gün bunu yaşayır. Düzdür, bəziləri deyirlər İsrafil İsrafilov sənətşünaslıq elmlər doktoru, professordur, kitablar müəllifidir. Amma unutmaq lazım deyil ki, professor, elmlər doktoru olmaq hələ idarəçi olmaq demək deyil. Mən İsrafil İsrafilovu indi tanımıram ki. Onu Tədris Teatrının direktoru olduğu vaxtdan tanıyıram. Aktyorluq fakültəsini qurtarıb, amma aktyor ola bilməyib. Sonradan başqa sahəyə keçib. Mərkəzi Komitədə məsləhətçi, müşavir kimi işləyib. Ayaz Mütəllibovun rəhbərliyi vaxtında Abşeron rayonunun 1-ci katibi olub. Daha sonra muzey direktoru işləyib, bizim teatra da ordan gəlib. Artıq 6-cı ildir burdadır. Yəni nəzəri cəhətdən bu sahəni bilmək praktiki olaraq bu sahədə idarəçi olmaq üçün yetərli deyil.

***- Direktorla aranızdakı konflikt nə vaxtdan başlayıb?***

- Əslində ilk gündən. Amma kollektivimiz səbr edib. Milli Kitabxanada hörmətli nazir Əbülfəs Qarayev və digər şəxslərin iştirakı ilə böyük bir təqdimat keçirilmişdi.

***- Kollektivin öz namizədi var idimi?***

- Faktiki olaraq yox idi. O zaman biz bu məsələlərə qarışmadıq. Həm də idarəçilik sistemi deyilən bir şey var, rəhbərliyi nazirlik müəyyən edir, sadəcə, kollektivə təqdim edir.

***- Bəlkə doğrudan da direktor yeni kollektivlə ciddi iş görmək istəyir?***

- Hansı kollektiv? Gətirdiklərini də gördük. Gəlib 143 illik teatrın kollektivi ilə görüşürsənsə, sən hörmətlə yanaşacaqsan! İkincisi, teatr spesifik bir yerdir. Burda “mən onun işini görməyəcəm”, “o, mənim rolumu oynayacaq” kimi məsələlər yoxdur. Direktora bütün səlahiyyətlər verilib. Ölkədə bütün teatrlarda baş rejissor var idi, Dram Teatrdan başqa. Bütün məsələləri direktor həll edir. Deməli, yaradıcılıq prosesinə də birbaşa rəhbərlik edir. Deyir, mən səni bu tamaşada da görmürəm, o birisində də...

***- Yəni narazılıq rol üstündə yaranıb?***

- Narazılıq təkcə rola görə deyil. Daha çox dezolar yayılır. Əslində o baş verir ki, Akademik Milli Dram Teatrına tamaşaçı gətirən ən uğurlu tamaşaları repertuarından çıxartdı.

***- Konkretləşdirsək...***

- Əli Əmirlinin “Messenat”ını, “Varlı qadın”ını, Mir Cəlal Paşayevin “Dirilən adam”ını, Bəxtiyar Vahabzadənin “Özümüzü kəsən qılınc”ını - hansı ki, Türkiyənin 35 şəhərində nümayiş olunub.

***- Səbəb nədir?***

- Səbəbini ondan soruşmaq lazımdır. Deyir, bu tamaşalar xoşuma gəlmir, mən yeni tamaşalar quracağam. Qur! Hansı ki, o tamaşalar tamaşaçı cəlb edirdi və teatr pul qazanırdı. “Messebat” ayda iki dəfə dolu zalla oynanılırdı. “Dirilən adam” həmçinin...

***- Elə isə qazanc gətirən, teatrın imicini qaldıran tamaşalardan direktor niyə imtina etməlidir ki?***

- İsrafil İsrafilov Akademik Milli Dram Teatrının kollektivini sevmir! Bunu bütün hərəkətləri ilə göstərdi və sübut etdi. Tanınan aktyorları, hansı ki, tamaşaçı onlara görə gəlirdi, onların hamısını ikinci plana keçirdi. “Mən yeni teatr qururam” deyə, başqa teatrdan aktyorlar dəvət etdi. Dəvət edərlər. Amma əgər mənim teatrımda Firuz Xudaverdiyev varsa, ora ikinci, üçüncü Firuzu gətirməyin nə mənası var?

***- Teatrdan hansı məşhurlar uzaqlaşdırılıb?***

- Teatrdan uzaqlaşdırmaq təkcə ştatdan çıxartmaq demək deyil. Səni əgər repertuardan kənarda qoyurlarsa, deməli, artıq kənardasan.

***- Narazıların adlarını çəkə bilərsinizmi?***

- Biz narazı deyilik. Biz teatrımızı dağıdan, kollektivi bir-birinə düşmən edən bir adamın fəaliyyətindən narazıyıq! Yaradıcılıq işləri göz önündə. Məhz İsrafil İsrafilovun dövründə repertuara salınan tamaşalar dəvətnaməyə möhtac tamaşalardır. Təsəvvür edin, 2013-cü ildə maliyyə göstəricilərinə və tamaşaçı sayına görə 100 faizi keçən teatr indi 40 faizin altına düşüb. Bu, dövlətin teatrıdır, dövlət sənə pulu ona görə verir ki, sən iş görüb qazanc əldə edəsən.

Mən yenə deyirəm, bizim İsrafil İsrafilovun təyinatına etirazımız olmayıb. Amma gəldiyi gün kollektivi təhqir edib və aşağılayıb. Bizsə susmuşuq. Çünki ayrılıqda görüşüb demişdi ki, filan işləri görmək istəyirəm. Amma sonra gördük ki, bunlar sadəcə sözmüş. 1 il, 2 il dözdük ki, adam gəlib hansısa işləri görəcək. Bu, nə dərəcədə doğrudur ki, 15, 20, 30 il teatrda çalışmış insanı “islahat” adı altında kənara qoyursan, həm də onun əmək hüququnu pozaraq. Sonra gördülər ki, bütün kollektivi işdən çıxartmaq məsələsi alınmır, başqa metod seçdilər. Başladılar bizimlə illik müqavilə bağlamağa. Hər il müqavilə bağlamaq da kollektivi təzyiq altında saxlamağa xidmət edirdi ki, “susun, kim danışsa, növbəti il səninlə müqavilə bağlamayacağam”. Digər tərəfdən, teatrda o tamaşalar ki var idi, əsas heyət iştirak edirdi, o tamaşalar repertuardan çıxarıldı. Biz yeniliyin əleyhinə deyilik. Amma o tamaşalar gəlsin ki, tamaşaçı ona baxır. O aktyorlar işləsin ki, tamaşaçı ona baxmaq istəsin. Elşən Rüstəmovun Gənc Tamaşaçılar Teatrından Akademik Milli Dram Teatrına gəlişinə heç kəsin etirazı yoxdur. Amma eyni zamanda onu deyirik ki, bizdə də elşənrüstəmovlardan var. O aktyor, aktrisa gəlsin ki, onlardan burda yoxdur. Daha 2-3-cü kurs tələbələrini bura gətirməyin. Biz demirik ki, teatrın repertuarını biz idarə edək. Deyirik ki, teatrın repertuarı ağıllı şəkildə qurulmalı, bütün heyət orda olmalıdır.

***- Əsas heyətdə kimlər var, hansı ki, narazıdırlar?***

- Rafiq Əzimov, Ramiz Məlikov, Rəfail Dadaşov, Bəsti Cəfərova, Sənubər İsgəndərova, Vəfa Rzayevə, Kazım Abdullayev, Firəngiz Mütəllibova, mənəm, İlham Əsgərov idi... Cavanlarımız var, Eldar Qarayev, Elçin, Cümşüd, Mətləb Abdullayev, Rövşən Kərimduxtdu. Belə aktyorlar arxa plana keçirilir, birinci hissəni dəvətnamə ilə doldurursan, ikinci hissədə baxırsan ki, zalda 20-30 nəfər qalır. Akademik Milli Dram Teatrı niyə bu günə qoyulmalıydı?! Mənim İsrafil İsrafilovla heç bir şəxsi problemim, istəyim yoxdur. Mən bu sənətdə ən yüksək mükafatımı almışam, Xalq artistiyəm, prezident mükafatı alıram. Ölkə başçısına təşəkkür edirəm ki, mənə ad günümdə mənzil bağışladı. Mən heç nə istəmirəm. Amma 143 il tarixi olan teatrın daxili atmosferi zəhərlənib, repertuar dağıdılıb. Tamaşalar 15 günə, 1 aya hazırlanır, ildırım sürətilə. Ömrü də 3 gün olur. Bunlara pul, zəhmət sərf olunur, 3-4 dəfədən sonra repertuardan çıxarılır. Biz ildə 4 tamaşa hazırlayırdıq, indi fəxrlə deyir ki, “ildə 12 tamaşa hazırlayıram”. Sənin hazırladığın o tamaşaların neçəsi indi repertuardadır, nə qədər qazanc gətirib? 20 il xərclədiyin tamaşa 3-4 ildə 3-5 min pul gətirib. Amma tamaşa var 3-5 min manat xərclənib, teatra 30-35 min qazanc gətirib. Nədən o tamaşalar 2-3 ayda bir dəfə salınır? Lakin digər tamaşalar camaatın gözünü “mazol” eləyib, dəvətnamə ilə teatrı doldurursan. Dəvətnamə verdiyin insanı sabah sən bilet satmaqla teatra gətirə bilməyəcəksən.

**“143 il tarixi olan teatrın daxili atmosferi zəhərlənib, repertuar dağıdılıb”**

***- Amma bu müddətdə festivallarda da olmusunuz...***

- Biz “Xəcalət” tamaşası ilə Yalta Beynəlxalq Teatr Festivalına getdik, orda ən yüksək aktyor ustalığına görə nominasiyası üzrə mükafat aldıq. Bu tamaşanı Bəhram Osmanov hazırlayıb. Bu, teatrın ilk beynəlxalq mükafati idi. 140 illik tarixində teatr beynəlxalq festivallarda fəxri fərman da gətirməyib. Ardınca Serbiyada, Moldovada mükafat aldıq. Lakin bu barədə heç yerdə bir informasiya verilmədi.

***- Qısqanclıq var?***

- Şübhəsiz. Çünki bu tamaşa onun rəhbərlik etdiyi vaxtda qoyulmayıb. Amma öz rəhbərliyi vaxtında qoyulan tamaşaları beynəlxalq festivallara aparır, heç bir mükafat almadan qayıdıb gəlirlər. İndi görün onların təbliğatı necə gedir. “Xəcalət”in aktyorlarını Gürcüstanda tamaşaçılar ayaq üstə alqışladı. Səhnə arxasında bizimlə görüş üçün növbə var idi, bu, gürcü tamaşaçısı, sənətkarları idi, boynumuzu qucaqlayırdılar. Səhərisi gün başqa tamaşanı göstərdik - “Lənkəran xanının vəziri” tamaşasını. Lakin sonda bir nəfər səhnə arxasına keçib bizi təbrik etmədi. Bizə deyirdilər ki, siz dünən yüksək səviyyədə tamaşa oynadınız, bunu göstərmək nəyinizə lazım idi?

***- Dedikləriniz bir daha sübut edir ki, narazılıq kifayət qədərdir. Direktor kollektivi yığıb onları şəxsən dinləyibmi?***

- O, bizimlə mətbuat vasitəsilə danışır. Dəfələrlə demişik ki, qardaş, teatrda problemlər var, gəl yaradıcı heyəti bir yerə yığ, dərdlərimizi deyək! Bu, oddan qorxan kimi, kollektivin bir yerə yığılmasından qorxur. “İclas” deyən kimi, “yox, olmaz!” Niyə olmaz, biz adamyeyən, adam öldürən deyilik. Bu, onu xoşlayır ki, bir-bir kabinetinə çağırsın, tək-tək söhbət eləsin, sonra da çıxıb “üzr istəməyə gəlmişdi” desin. Mənimlə də iki-üç dəfə görüşüb. Biz deyirik bu, raykom katibliyi deyil, biz yaradıcı insanlarıq, gəl, bir yerdə toplantı edək, problemlərimizdən danışaq. Ancaq texniki işçiləri yığıb barmaq silkələyir. Teatrın ürəyi yaradıcı heyətdir, sən bunlarla niyə görüşmürsən? Biz terrorçu deyilik. Amma İsrafil İsrafilovun rəhbərliyi dövründə Azər Mirzəyev kimi aktyor insultdan dünyasını dəyişdi. İlham Əsgərov kimi aktyoru itirdik.

***- Bu itkilərə görə də direktor günahkardır?***

- Mən yüzdə-yüz əminəm ki, bu insanların ölümünə səbəb burda olan atmosferdir! İnsan hər gün bu qədər əsəbi olarmı?

***- İlham Əsgərovla mübahisələri olmuşdumu?***

- Dəfələrlə. Məşq proseslərində. Elə 2011-ci ildə “Qarabağnamə”nin məşq prosesində insult oldu. Firəngiz Mütəllibovanın yazılarına baxın. Ona görə də deyirəm ki, növbədə mənəm. İlham Əsgərov teatrın qurbanıdır, qardaşım! Bəziləri deyir bu məsələni şişirtməyin. İnsan dünyasını dəyişib, xalq artisti! Bu adamın 57 yaşı var idi. Bu adamın arzuları var idi. Bircə qız övladı vardı, heç olmasa toyunu görmədi, dünyasını dəyişdi, getdi. İlham sapsağlam adam idi. İnsultu mübahisələrin, savaşların nəticəsində aldı. İndi bizə deyirlər niyə gəlib teatrda oturmursunuz? Mənim işim olmayanda teatra getmirəm. Otururam burda, çayımı içib söhbətimi edirəm.

***- Bəs məşqiniz olanda?***

- Olanda gedirəm. Əks təqdirdə, mənim ordakı qeybətlərə qulaq asmağa vaxtım yoxdur.

***- İndi hansı tamaşanı məşq edirsiniz?***

- Demək olar ki, yeni heç bir tamaşam yoxdur. Sonuncu tamaşam “21.15 qatarı” olub, Bəhram Osmanov hazırlayıb, bu gün də onun məşqidir. Ayın 27-sində olacaq, buyurun, gəlin.

***- Direktor da baxacaq?***

- Əlbəttə. Amma ictimai baxış oldu, gəlib təbrik eləmədi. Türkiyədən müəllif gəlmişdi, o, gəlib təbrik elədi, direktorsa yox. Biz məgər düşmənik? Sən mənə düşmənçilik edirsən, mən yox. Onsuz da biz bu sənətə gəlməklə itirmişik, qazandığımız bir şey yox. Başqa peşənin sahibi olsaq, bəlkə rahat yaşayardıq, ailəmizə bu qədər problemlər yaşatmazdıq. Kimin ixtiyarı var ki, aktyora “başını aşağı sal, get, işini gör” desin? Bu, çox alçaq bir ifadədir. Bu, nə deməkdir? Mən müstəqil bir ölkənin vətəndaşıyam. Mənim bayrağım necə dikdirsə, mənim başım da o cür ucadır. Mən nə qul deyiləm, nə kölə. Sən hansı haqla mənə belə yanaşırsan?!

***- Direktordan 29 nəfər prezidentə şikayət yazmışdı...***

- Sizi əmin edirəm, teatrın 99 faizi o fikirlə razıdır, amma bəziləri çəkinir, qorxur. Amma biz ona məcbur olduq. Məgər dövlət başçısının başqa iş-gücü yoxdur ki, bu işə də müdaxilə etsin? Lakin 5 il bizi eşitmədi bu sahəyə məsul insanlar. Nazirlikdən “hər şey yaxşı olacaq” dedilər, heç nə dəyişmədi. Ancaq cənab prezidentə məktub çatandan 1 saat sonra məsələyə reaksiya verildi, həmin gün Azərpaşa Nemətov teatra bədii rəhbər və baş rejissor təyin olundu. Artıq bütün səlahiyyətlər ondadır. Bəs 5 il ərzində bu sahəyə məsul şəxslər niyə bir addım atmırdılar, gərək prezident müdaxilə edəydi..?

*(Səslənən ittihamlarla bağlı İsrafil İsrafilovun da mövqeyini dərc etməyə hazırıq)*

**“2013-cü ildə maliyyə göstəricilərinə və tamaşaçı sayına görə 100 faizi keçən teatr indi 40 faizin altına düşüb”**

❑ **Elşad PAŞASOY**
**FOTO: “YM”**

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015

# Qarabağ atlarının baxıcısından prezidentə sensasion müraciət

## Kənd Təsərrüfatı Nazirliyinə və Atçılıq Federasiyasına ağır ittihamlar: “Qarabağ və Dilboz cinsi təhlükə qarşısında, müdaxiləniz olmasa...”

**Qarabağ cins atlarının yetişdiricisi, “Qarabağ cinsli atların Dövlət Damazlıq Kitabı”nın (II cild) redaktoru Yaşar Quluzadə musavat.com saytına müraciət yollayıb. Müraciət prezident İlham Əliyevə ünvanlanıb. Yaşar Quluzadə prezidentin diqqətinə ölkə atçılıq sahəsindəki özbaşınalığı, təsərrüfatsızlığı çatdırmağa çalışır. Mövzunun aktuallığını nəzərə alıb həmin müraciəti olduğu kimi təqdim edirik:**


Yaşar Quluzadə

*“Azərbaycan Respublikasının Prezidenti*
*Cənab İlham Əliyevə*
***Açıq məktub***

*Çox hörmətli cənab Prezident!*

Sizə mətbuat vasitəsilə müraciət etməyimin səbəbi edəcəyim müraciətin, məncə, vacibliyindən və şəxsən diqqətinizə çatmasını istədiyimdən irəli gəlir. Belə ki, dəfələrlə Sizin ünvanınıza müraciətlər etsəm də, cavab başqa instansiyalardan gəlib və heç bir real nəticəsi olmayıb.

Mən əlli illik ömrümün iyirmi ilini Qarabağ atlarının yetişdirilməsinə və təbliğinə həsr etmişəm. 1993-cü ildə Ağdam rayonu düşmən tərəfindən işğal olunandan və Qarabağ atları da qaçqın taleyi yaşadıqdan sonra, bu atların cinsi tükənib məhv olma təhlükəsi qarşısında qaldı. Bir sıra şəxslər kimi, mən də bu əvəzsiz milli sərvətimizin qorunması işinə başlamaq qərarına gəldim. Bu bizim vətənimiz və millətimiz qarşısında müqəddəs borcumuz idi. Mənim təsərrüfatımda bu illər ərzində səksən başdan artıq cinsin tələblərinə uyğun, heç bir qarışığı olmayan, təmiz cins Qarabağ atı yetişdirilib. Bu atlardan bir çoxu cinsin ən məşhur nümayəndələridir, hazırda fəaliyyət göstərən təsərrüfatların əsas aparıcı ayğırları olmaqla, Qarabağ cinsinin əsas genofondunu təşkil edirlər. Azərbaycan atçılarının əksəriyyəti bu atları adları ilə tanıyırlar.

Əslində Qarabağ və Dilboz cinslərini saxlamalı, qorumalı və artırmalı olan dövlət təsərrüfatlarında isə vəziyyət tamamilə fərqli oldu. Burada bu cinslərin aşiqləri olmadı. Ağstafa Təmizqanlı atlar təsərrüfatı və Şəki Dilboz təsərrüfatı tamamilə məhv oldu, artıq orada cins atlar ümumiyyətlə qalmayıb. Qazax rayonundakı Dilboz və Qarabağ atlarını yetişdirməli olan Ağdam atçılıq təsərrüfatlarında isə sözügedən cinslərin tipik xüsusiyyətlərini daşıyan atlar barmaqla sayıla bilər. Kağız üzərində guya onlarla, hətta bəlkə də yüzlərlə ata sahib olan təsərrüfatlarda, müvafiq olaraq Dilboz və Qarabağ cinslərinə az-çox oxşar 10-15 at olsa böyük şeydir. Kənd Təsərrüfatı Nazirliyi bu təsərrüfatların idarəçiliyini tamamilə itirdiyindən, həmin təsərrüfatlar da millətimiz və dövlətimiz üçün itirildi. Dünya mədəni irsinin olduqca əhəmiyyətli bir hissəsini təşkil edən, xalqımızın misilsiz milli sərvəti olan, dünyanın ən qədim cinslərindən, vətən tarixinin ayrılmaz hissəsi olan Qarabağ və Dilboz cinsli atlarımız faktiki olaraq dövlət qayğısından və diqqətindən kənarda qaldı, real tükənmək və deqradasiya təhlükəsinə düçar oldu. Hələ nəzərə alsaq ki, bu atlar hamımızın yaralı yeri olan Qarabağın adını daşıyır, mənfur düşmən torpaqlarımız kimi, milli cinslərimizə də sahib çıxmağa çalışır, bütün dünyada Qarabağ atlarını öz milli cinsləri kimi qələmə verir, vəziyyətin nə dərəcədə ciddi olduğu, strateji-siyasi əhəmiyyət kəsb etdiyi daha da qabarıq görsənir. Məncə, atlarımıza belə münasibət milli və dövlət maraqlarımıza qarşı təxribat adlandırsaq yanılmarıq.




**“Sizin Ağdama səfəriniz zamanı qarşınıza çıxartmağa Ağdam Atçılıq Zavodunda yetişmiş bircə at belə tapılmadı. Həmin səfər zamanı Sizə bağışlanan, guya zavodda yetişmiş ”Şahbulaq" ləqəbli kimi təqdim olunan at əslində mənim təsərrüfatımda yetişmişdi, sahibindən pulla alınmışdı, adı da “Ağrıdağ”dır"**

Nə yaxşı ki, bu atları sevən, onlara həyatını həsr edən, nəyin bahasına olur-olsun xilas etməyə çalışan insanlar var idi. Beləliklə, uzun illər ərzində, çox böyük maddi sıxıntılarla, ailədən kəsib atlara sərf etməklə, bir neçə vətənpərvərin səyləri nəticəsində, tipik, qızıl Qarabağ köhlənlərinin bir qismini xilas etmək, hətta bir qədər də artırmaq mümkün oldu.

**Azərbaycan Respublikası Atçılıq Federasiyasına Elçin Quliyevin prezident seçilməsi, federasiyada canlanmanın başlaması, cıdır yarışlarının bərpa olunması, Bakı Dövlət Cıdır meydanının və cıdır yolunun təmiri bu şəraitdə müəyyən qədər ümidlərin yaranmasına səbəb oldu. Ümid etdik ki, atçılıq idmanında, cıdır yarışlarında üstünlük Qarabağ və Dilboz atlarına veriləcək, federasiyanın atcılıq strategiyası milli cinslərimizin üzərində qurulacaq. Lakin əfsus ki, bu ümidlər də puç oldu, yarışlarda başqa cinslərin mükafat fondu milli cinslərimizdən xeyli artıq təyin olundu, at sahiblərinə ippodromda at saxlamaq üçün təyin olunmuş yerhaqqından azad olunmasını gözlədiyimiz yerdə, əksinə, aylıq 20 manatdan 50 manata qədər qaldırıldı, at sahiblərinə İppodroma, öz atlarına baş çəkməkdə maneələr, çətinliklər yaradılmağa başladı, hərbi qaydalar tətbiq olundu. Bu isə milli atçılığın kütləviləşməsinin, at sahiblərinin sayının artmasının qarşısını alan amillərdən biridir. Bu azmış kimi, federasiya rəhbərliyi əldə olan imkanların Qarabağ və Dilboz cinslərinin inkişafına, təbliğ və təşviqinə həsr etmək əvəzinə, qraf Orlov və marşal Budyonnının tarixə düşmüş əməllərindən ruhlanaraq, yeni cins yaratmaq sevdasına düşdü. Min illər ərzində xalqımızın taleyini bölüşmüş, əvəzsiz milli sərvətimiz olan, dünya mədəni irsinin çox əhəmiyyətli bir hissəsinə çevrilmiş Qarabağ cinsinin, Dilboz cinsinin inkişaf etdirilməsi əvəzinə, federasiya hədəf və məqsədi bilinməyən yeni cins yaratmaqla məşğul olmağa üstünlük verdi. Əlimizdə olanı qoruya bilmədiyimiz halda, belə çıxır ki, yeni bir cins yaradırıq!**

Belə bir vəziyyətdə Sizin Qarabağ atlarının inkişafına dair deklarativ qərarlar deyil, bilavasitə konkret maddi dəstəklə çıxış etməyiniz, Qarabağ atlarının genofondunun saxlanması və artırılması məqsədi ilə iki milyon manat, həmin pula görülmüş işlərin tamamlanması üçün əlavə bir milyon yarım manat və Dilboz atlarının inkişafı üçün də bir milyon yarım manat pul ayırmağınız 22 il ərzində milli cinslərimizə edilən ilk konkret dəstək oldu və bütün Azərbaycan atçılarına ümid verdi, milli atçılığımızın gələcəyinə inam yaratdı. Sözügedən fərmanlarınızda “milli genofondun qorunub artırılması” tapşırığı xüsusilə əhəmiyyət kəsb edir. Xüsusilə təhlükə qarşısında olan cins atçılığın qorunub bərpa olunma işinə elmi yanaşmanın, zootexnikanın fundamental tələblərinin diqqət mərkəzinə gəlməsinin göstəricisidir. Buna görə Sizə xüsusi olaraq təşəkkürümü bildirmək istəyirəm!

Lakin hesab edirəm ki, milli cinslərimizi bu hala salan qurumlar Sizin fərmanlarınızın, maddi-mənəvi dəstəyinizin əhəmiyyətini dərk etmək, qarşıda duran məqsədlərə nail olmaq, bu sahədə dövlət siyasətini yürütmək iqtidarında deyil. Təkcə bir faktı nəzərinizə çatdırmaq istəyirəm ki, Kənd Təsərrüfatı Nazirliyində nəinki atcılıq idarəsi və ya heç olmasa şöbəsi, heç bir nəfər belə atçı mütəxəssis çalışmır. Nəinki milli cinslərimizi, onların əhəmiyyətini, ümumiyyətlə, atları və atçılıqla bağlı problemləri azdan-çoxdan tanıyan heç kim yoxdur. Belə olmasaydı dövlət təsərrüfatında da cinsə uyğun atlar yetişərdi. Görün necə vəziyyətdir ki, Sizin Ağdam rayonuna səfəriniz zamanı qarşınıza çıxartmağa Ağdam Atçılıq Zavodunda yetişmiş bircə at belə tapılmadı. Həmin səfər zamanı Sizə bağışlanan, guya zavodda yetişmiş “Şahbulaq” ləqəbli kimi təqdim olunan at əslində mənim təsərrüfatımda yetişmişdi, sahibindən pulla alınmışdı, adı da “Ağrıdağdır”.

Hətta dövlət başçısını aldatmaqdan belə çəkinməyən, saxtakarlıq edən qurumlar bu sahədə yaranmış acınacaqlı vəziyyəti düzəldə bilərlərmi? Şəxsən buna mənim çox böyük şübhəm var. Sizin ayırdığınız iki milyon manatla hələ ki heç bir iş görülməyibsə, işlərin tamamlanması üçün ayrılan bir milyon yarıma nə iş görüləcək? Lap elə tutaq ki, insafa gəlib müəyyən işləri gördülər, atlar üçün ən yüksək standartlara cavab verən tövlələr tikdilər, təsərrüfatların maddi-texniki bazasını inkişaf etdirdilər, bəs həmin tövlələrdə hansı atlar saxlanacaq? Məhz Qarabağ və Dilboz cinsinə aid atlar hardan, hansı xarici dövlətdən, hansı pulla alınacaq? Axı bu cinslərin vətəni Azərbaycandır, bu atlar bizim milli sərvətimizdir, bizə məxsusdur, xarici dövlətlərdən alına bilməz, yoxdur oralarda. Burada onlara sahib çıxmalı olan Kənd Təsərrüfatı Nazirliyi isə onları qorumayıb, genofonduna, tipik, elit nümayəndələrinə sahib deyil, əllərində olmayan genofondu necə qoruyacaqlar? Bu atların hələ ki əlimizdə olan elitası, yəni genofondu az da olsa yalnız şəxsi əllərdə qalıb. Məncə, Sizin ayırdığınız maddi dəstək milli cinslərimizi biganəlik ucbatından məhv edən deyil, qoruyub saxlayan, onlara dəlicəsinə aşiq olan, təmənnasız, maaşsız-mükafatsız illərlə saxlayan şəxsi təsərrüfatlara ayrılsa, daha effektli olardı, onlar bir iş görə bilərdilər, iş görmək üçün tələb olunan genetik materiala da onlar sahibdirlər. Maddi çətinliklərlə cinsə xidmət edənlər Sizin dəstəyinizlə daha çox iş görə bilərdilər. Bu sahəni belə bərbad hala salmış qurumlar isə Sizin tapşırığınızı yerinə yetirmək istəyində və iqtidarında deyillər.

**Hörmətli cənab Prezident!**

**Sizə millətimiz və dövlətimizin yolunda atdığınız addımlar, gördüyünüz işlərdə uğurlar arzu edirəm! Ümid edirəm ki hər bir azərbaycanlının iftixar mənbəyi olan, millətimizin və dövlətimizin müqəddəs atributlarından birinə çevrilmiş milli at cinslərimizin də tarixin sınağından çıxmağına, xilasına yönəlmiş fərmanlarınızın, istək və arzularınızın yerinə yetməyinin birlikdə şahidi olacayıq! Yaşasın Azərbaycan!!!**

**❑ Hörmətlə:**
**Quluzadə Yaşar**
**Əlihüseyn oğlu.**
**9.09.2015.**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağda yeni müharibə təhlükəsi Amerikanı da hərəkətə keçirdi

## Ağ Ev təmas xətti boyu topların işə düşməsindən narahatdır, ancaq eyni zamanda separatçı bölgədə "seçkilərlə" bağlı ikili və prinsipsiz mövqe sərgiləyir; **politoloq:** "Hər şey Azərbaycanın xeyrinə inkişaf edir..."

**Azərbaycan qoşunları ilə erməni işğalçı qüvvələri arasındakı təmas xəttində və Ermənistanla sərhəddə hərbi durum gərgin olaraq alır. Vəziyyətin kritikliyinə dəlalət edən amillərdən biri də hər iki tərəfdən ağır toplardan istifadə edilməsidir. Hələ ki atəşkəsin geniş miqyaslı pozulması halları permanent xarakter almasa da, düşmən tərəfin təxribatları da səngimir.**

Reallıq həm də ondan ibarətdir ki, son zamanlar cəbhə xəttində gərginliyin artması, hər iki tərəfin irimiqyaslı təlimlərə başlaması müharibənin bərpası ehtimallarını gücləndirib. Belə ehtimallar indi həm Ermənistan, həm Azərbaycan tərəfindən siyasi müşahidəçilər səviyyəsində səslənməkdədir.

***

Sözsüz ki, işğal altındakı Dağlıq Qarabağda sentyabrın 13-də nəzərdə tutulan növbəti qanunsuz "seçki" vəziyyəti bir qədər də ağırlaşdıracaq, "ocağa əlavə yağ tökmək" anlamına gələcək. Görünür, bunun fərqində olduqları üçün artıq həmsədr ölkələr, nüfuzlu beynəlxalq təşkilatlar öz mövqelərini tələm-tələsik ortaya qoyub, "seçkiləri" legitim saymadıqlarını bəyan ediblər.

**ABŞ da məsələyə mövqe bildirib. Belə ki, dünən Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kirbi jurnalistlərlə görüşdə Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatla çıxış edib. Musavat.com-un xəbərinə görə, departament rəsmisi separatçı bölgədə sentyabrın 13-də nəzərdə tutulan qanunsuz seçkilərə münasibət açıqlayarkən deyib:** "ABŞ konfliktin geniş miqyaslı həlli çərçivəsində Dağlıq Qarabağ əhalisinin öz gələcəyini müəyyən eləməsində rolunu tanıyır. Ancaq Birləşmiş Ştatlar Dağlıq Qarabağı suveren müstəqil dövlət kimi tanımadığı üçün "13 sentyabr seçkiləri" adlandırılan seçkilərin regionun hüquqi statusuna təsir etdiyini qəbil eləmir".

Yada salaq ki, ABŞ Dağlıq Qarabağda bu ilin mayında keçirilmiş saxta "parlament seçkiləri" ilə bağlı da analoji, faktiki ikibaşlı bir mövqe ortaya qoymuşdu. İstənilən halda qondarma seçkilərin tanınmayacağı artıq dəqiqdir. Əfsus ki, artıq üçüncü on illiyə adlamış münaqişənin ədalətli və həmişəlik həlli üçün saxta seçkiləri tanımamaq kifayət deyil. Bundan ötrü ilk növbədə konflikti, onun iştirakçılarını - təcavüzə məruz qalanı və təcavüzkarı öz adı ilə çağırmaq, onlara öz adlarına müvafiq şəkildə də münasibət bəsləmək gərəkdir - ən azından, Ukrayna (Donbas, Krım) timsalındakı kimi.

***



Belə ədalətli, prinsipial yanaşma ləngidikcə heç şübhəsiz, müharibə ehtimalı da aradan qalxmayacaq. Çünki Azərbaycan heç vaxt işğalın nəticələri ilə barışmayacaq. Təmas xəttindəki son eskalasiyanın mühüm səbəblərindən biri də məhz elə budur.

**Yeri gəlmişkən, Dövlət Departamentinin rəsmisi Kirbi təmas xəttindəki son durumla da bağlı açıqlama yayaraq Birləşmiş Ştatların narahatlığını dilə gətirib. Sitat:** "Ermənistan və Azərbaycan qüvvələrinin beynəlxalq sərhəd boyunca minaatanlardan, digər ağır artilleriyadan istifadə etməsi, nəticədə dinc sakinlərin ölümü və kəndlərə ziyan dəyməsi barədə etibarlı məlumatlar almışıq. Münaqişənin kəskinləşməsindən dərin narahatlıq hissi keçiririk, dinc sakinləri hədəfə alan istənilən hərbi hərəkəti pisləyirik. Belə zorakılığa dərhal son qoymağa, gərginliyin azaldılmasına və dinc sakinlər arasında itkidən qətiyyətlə qaçılmasına çağırırıq".

"Biz Ermənistan və Azərbaycan prezidentlərinə ATƏT-in Minsk Qrupu həmsədrləri ilə yaxından işləyərək Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli üçün öhdəliklər götürdüklərini xatırladırıq" - əlavə edib departament yetkilisi.

**Yeni müharibə sarıdan nigarançılığı həmçinin amerikalı vasitəçi Ceyms Uorlik orijinal formada bəyan edib. Özünün twitter səhifəsində o, Qarabağ münaqişəsinin həll perspektivi ilə bağlı yazıb:** "Məsələ ondadır ki, Azərbaycan və Ermənistanın öz cəsarətli Avraam Linkolnu varmı? Avraam Linkoln *(ABŞ-ın 16-cı prezidenti-red.)* siyasətdən yuxarı qalxaraq və tariximizdə yeni səhifə açaraq, bizi müharibədən sülhə gətirdi. Azərbaycan və Ermənistanın öz Avraam Linkolnu varmı ki, barışıq və sülh gətirsin? Region xalqları dinc yanaşı, təhlükəsizlikdə və rifahda yaşamağa hazırdımı".

İş də ondadır ki, Qarabağ məsələsi o məsələdən deyil ki, onun yoluna qoyulmasında linkolnlar lazım olsun. Problemin həlli üçün linkolnlar gərək deyil, beynəlxalq hüquq normalarını, BMT Təhlükəsizlik Şurasının, digər mötəbər beynəlxalq təşkilatların Qarabağa dair qətnamələrini yerinə yetirmək kifayətdir.

Bundan ötrü də yalnız ermənilərə bir Linkoln lazımdır ki, onların başına ağıl qoysun, işğalçılığın erməni xalqını hara apardığını ona anlatsın...

***

**Hələliksə, Azərbaycan istənilən vasitə ilə öz ərazilərini geri qaytarmaq hüququnu əlində saxlayır. Bu yöndə təbii ki, ən böyük imkanlar Rusiyanın əlindədir. Rusiya isə...**

"Rusiya Dağlıq Qarabağ məsələsi istiqamətində vasitəçilik missiyasını gücləndirib. Hazırda bu fonda belə məlumatlar sızmaqdadır ki, Moskva yeddi rayonun Azərbaycana qaytarılması üçün İrəvana təzyiqlər göstərsə də, İrəvanın müqavimətini sonadək sındıra bilməyib". Bu sözləri axar.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib.

**Sabiq dövlət müşaviri qeyd edib ki, görünür, İrəvan məsələdə ciddi bazarlaşmaya, sövdələşməyə getmək istəyir:** "Rusiyadan 200 milyon dollar kredit və əlavə kömək vədləri alması onu göstərir ki, yalandan da olsa, keçirdikləri təlimlərin əsas məqsədi heç də müharibə olacağı təqdirdə Azərbaycana qarşılıq verə biləcəkləri anlamına gəlmir. Hazırda Putinin Dağlıq Qarabağ probleminin həllinə dair yeni bir variant təklifində 7 rayonun geri qaytarılması başlıca yer tutur. Bu məqsədlə də "biz heç nəyə razılıq verməmişik və döyüşə hazırıq" mesajları verilir. Sərkisyan çox yaxşı başa düşür ki, bir tərəfdən ölkəsi ağır vəziyyətdədir, digər tərəfdən isə Dağlıq Qarabağla bağlı danışıqlar Bakı və Moskva arasında daha da intensivdir. Ancaq Rusiyanın öz forpostunu Moskvaya dəvət edərək müəyyən təlimatlar verməsi Sərkisyanı sevindirmək əvəzinə, pis vəziyyətdə qoyub. Çünki onun hakimiyyətini uzatmağa çalışdığı anlar arxada qalacaq".

**Q. Hüseynli hazırda proseslərin Azərbaycanın xeyrinə inkişaf etdiyini bildirib:** "Dağlıq Qarabağ fonunda mübarizə həm diplomatik sferaya daxil olub, həm də döyüş fazasına keçib. Hazırda vəziyyət elədir ki, ermənilərin əlindəki bütün imkanlar yavaş-yavaş sona çatır. Aydındır ki, sonadək müqavimət göstərə bilməyəcəklər. Hər şey sürətlə xeyrimizə inkişaf edir. Cəbhədə gərginliyin artması ermənilərin son müqavimət çırpıntılarıdır".




# Ermənistan Azərbaycanın Rusiyadan silah almasından narahatdır

## Edvard Nalbəndyan: "Bu, bizim ürəyimizcə deyil..."

**"Əlbəttə ki, Azərbaycanın Rusiyadan silah alması Ermənistanın ürəyincə deyil. Lakin yəqin ki, bu biznes, ticarət məsələləridir". Bunu "BBC"yə müsahibəsində Ermənistan xarici işlər naziri Edvard Nalbandyan deyib.**

Ölkəsinin də Rusiyadan silah aldığını deyən nazir Moskvanın Azərbaycana və digər ölkələrə silah satmasının təəccüblü olmadığını söyləyib. "Çünki Rusya silah istehsalçısıdır. Bu ölkə silah bazarında fəaldır", - deyə o vurğulayıb.

Ermənistan-Rusiya münasibətlərinin müttəfiqlik səviyyəsində olduğunu deyən Ermənistan XİN başçısı əlavə edib ki, onları müttəfiq adlandırmağın özü bir çox mətləblərdən xəbər verir.

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015

# YDM-lərdə sürücüləri belə soyurlar

## Neqativ hallarla qarşılaşan sürücülər 963 qaynar xəttinə zəng vuraraq şikayət edə bilərlər

**Bakıda yanacaqdoldurma məntəqələri (YDM) öz müştərilərini aldadır. Bu barədə anspress-ə sürücülər məlumat veriblər. Sürücü Nicat Məmmədov deyir ki, dünən yanacaqdoldurma məntəqələrinin birindən 4 manatlıq benzin doldurub.**



Lakin avtomobil 2 kilometr hərəkət etdikdən sonra benzinin az olmasını göstərən qırmızı işıq yenidən yanmağa başlayıb. «Mən yanacaqdoldurma məntəqəsinə girəndə də maşının çənində az da olsa benzin vardı. Bu birinci hal deyil. Bundan qabaq da bir neçə dəfə oxşar hallarla qarşılaşmışam. Lakin hara müraciət edəcəyimi bilmədiyimə görə bununla barışmalı olmuşam",-deyə N. Məmmədov deyib.

Nicat Məmmədov kimi yanacaqdoldurma aparatlarından şikayət edən sürücülərimizin sayı kifayət qədərdir.

Abbas Həsənov adlı sürücü də yanacaqdoldurma məntəqələrinin verilən pul müqabilində az yanacaqla təmin etdiyini, həmçinin yanacağın keyfiyyətsiz olduğunu bildirdi.

**Onun sözlərinə görə, yanacaqdoldurma məntəqələrinin sayğacında yanacağın litrinə dair görünən rəqəmlər gedilən yolla üst-üstə düşmür.** "Mənim avtomobilim 100 kilometr məsafəyə 7 litr yanacaq sərf edir. Bəzi vaxtlar yanacaq çəninə 60 litr (tam) yanacaq vurururam və bu yanacaqla 800 kilometr məsafə qət edirəm. Ancaq bəzi hallarda isə heç 600 kilometr məsafə belə gedə bilmirəm. Bəzi məntəqələrdə sürücüləri daha çox aldadırlar."- deyə sürücü əlavə etdi.

Sürücülər həmçinin yanacaq vurulan "tapança"larda 3 sürət növü olduğunu, onlardan yalnız birinci sürət növündə benzinin normal halda yükləndiyini, qalan sürət növlərində benzin daha sürətlə axdığı üçün yaranan köpük və qazın insanların aldadılmasına səbəb olduğunu da əlavə etdilər.

YDM-in nəzarətçiləri və işçiləri isə sürücülərin dedikləri ilə razılaşmır.

**Onlar iddia edirlər ki, aparatlar Almaniyadan gətirilir və müdaxilə edilməsi mümkün deyil.** "Biz yanacağı avtomatik sistem vasitəsilə doldururuq. Ona görə də az yanacaq yüklənməsindən söhbət gedə bilməz. Daha çox 3-cü sürət növü ilə avtomobilə yanacaq doldurmağımızla razıyam. Buna da səbəb müştəri sıxlığının çox olması və həmin müştəriləri tez bir zamanda yola salmaq istəyimizdir. Lakin 1-ci "skoros"la vurmağımızı istəyənlərin də istəyini yerinə yetiririk. Camaatın birinci sürəti istəməsi isə yanacağın sürətlə getməsi və aldadılmaları ilə bağlı deyil. Yanacaq çəninin içində xüsusi bir aparat var. 3-cü sürətlə vuranda həmin aparat zədələnir ",- deyə məntəqə nəzarətçisi dedi.

**Mütəxəssislər isə sürücülər kimi məntəqə sahiblərini günahlandırır. Avto ekspert Azər Allahverənov deyir ki, YDM işçilərinin 3 növ sürət qutusu adlandırdığı sistem özü də düzgün işləmir. Hansı sürətə keçirirlərsə eyni təzyiqlə benzin vururlar.**

"Azərbaycanda 1.3 milyon maşın var və onların hər birinin sürücüsünün yolu da bu məntəqələrdən keçir. Bu qədər insanın aldadılması yolverilməzdir",-deyə mütəxəssis bildirib. Ekspert belə neqativ hallarla üzləşən sürücüləri məhkəməyə və müvafiq qurumların qaynar xəttinə müraciət etməyə çağırırdı. Onun sözlərinə görə, fırıldaqçılıq fəaliyyəti ilə məşğul olan işbazlara qarşı tətbiq olunan cərimələr artırılmalıdır. Eyni zamanda vətəndaşa təzminat ödənməlidir .

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (SMPDK) mətbuat xidmətinin rəhbəri Fazil Talıblı isə sürücülərin şikayətləri ilə razılaşmır. Onun sözlərinə görə, son dövrlər sürücülərin aldadılması hallarının sayı azalıb. "Yanacaqdoldurma məntəqələrinə nəzarəti komitənin tərkibində fəaliyyət göstərən texniki tənzimləmə və standartlaşdırma üzrə dövlət nəzarəti xidməti həyata keçirir. Həmin qurum da ildə iki dəfə məntəqələrə baxış keçirir və neqativ hallar olduğu təqdirdə aradan qaldırır"- deyə xidmət rəhbəri bildirdi.

**Onun sözlərinə görə, neqativ hallara daha çox regionlarda rast gəlmək mümkündür.** "Regionlarda bəzi YDM aparatları köhnədir. Ona görə də belə hallar baş verir. Məntəqələrin sürücüləri aldadılması öz təsdiqini tapsa İnzibati Xətalar Məcəlləsinin tələbinə uyğun olaraq fiziki şəxslərə 1500-2000 manat, hüquqi şəxslərə isə 4000- 5000 manat məbləğində cərimələr tətbiq olunur"-deyə Fazil Talıblı əlavə etdi.

O əlavə etdi ki, yanacaqdoldurma məntəqələrində neqativ hallarla qarşılaşan şəxslər 963 qaynar xəttinə zəng vuraraq şikayət edə bilərlər.

Ümumiyyətlə, dünya təcrübəsində yanacaqdoldurma məntəqələrinin insanları aldatması hallarına çox az hallarda rast gəlinir. Çünki bu işlə məşğul olan şirkətlər arasında azad rəqabət var. Daha çox müştəri cəlb etmək üçün bəzi YDM-lar hətta cəlbedici lotoreyalar da keçirir. Onlar bu yolla müştərilərinin sayını artırmaqla yanaşı, sürücülərin onların təklif etdiyi xidmətlərdən daha da razı qalmasına şərait yaradırlar.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**





# "Nar" müəllim və tələbələr üçün xüsusi kampaniyanı davam etdirir

## "İrşad Electronics" dükanlarından telefon alanlar 9 aylıq faizsiz kredit əldə edə biləcək və "Nar" operatorundan bonuslar qazanacaqlar

**Yeni dərs mövsümünün başlanması ilə əlaqədar, "Nar" təhsil işçiləri, müəllim və tələbələri sevindirməkdə dəvam edir. Bu məqsədlə, öz tərəfdaşı olan "İrşad Electronics" mağazalar şəbəkəsi ilə birlikdə daha bir ilkə imza atan "Nar", tamamilə yeni bir kampaniyaya start verdi. Belə ki, cari ilin sentyabr ayının sonunadək "İrşad Electronics" dükanlarında istənilən telefonu 9 aylıq faizsiz kreditlə əldə etmək mümkün olacaq. Üstəlik, bu mağazalardan telefon almış hər bir kəs "Nar" mobil operatorundan xüsusi bonuslar qazanacaq.**




**Qeyd edək ki, göstərilən tarixdə bu dükanlarda dəyəri 500 AZN-dən yüksək olmayan istənilən telefonu ilkin ödənişsiz də əldə etmək mümkündür. Yeni telefonlarla bərabər, müştərilər həmçinin hədiyyə olaraq "Nar" operatorundan nömrə, 250 AZN dəyərində danışıq və 1,5 GB internet trafiki alacaqlar.**

# Bank Sumqayıt sakininin evini zorla əlindən aldı

## Dələduzluğun qurbanı olan qadın intihara cəhd etdi

**Xeberle.com-un məlumatına görə, sentyabrın 11-də Sumqayıt şəhər 4-cü məhəllə, 18/15 saylı binanın, mənzil 8-in sakini Almara Qəşədərova iki azyaşlı uşağı ilə birlikdə intihara cəhd edib. Hadisə səhər saatlarında vətəndaşın icra şöbəsi tərəfindən mənzilindən çıxarılması ilə başlayıb. Bu zaman Almara Qəşədərova əlinə bıçaq alaraq blokun qarşısını kəsib və icra məmurlarının içəri daxil olmasına icazə verməyib.**




O, iki uşağı ilə birlikdə intihar edəcəyi ilə bağlı xəbərdarlıq edib. Olay zamanı qarşıdurma yaranıb. A. Qəşədərova və azyaşlı qızı huşunu itirib, əraziyə təcili tibbi yardım maşını gəlib. Onu sakitləşdirməyə çalışsalar da buna nail ola bilməyiblər. İş o yerə çatıb ki, A. Qəşədərovanın özünü yandırmasından ehtiyatlanan icra məmurları əraziyə yanğınsöndürən maşın da çağırıblar. Emosiyalarına hakim ola bilməyən A. Qəşədərova blokdan çıxaraq avtomobil yoluna doğru qaçaraq özünü avtomobilin altına atıb. Xoşbəxtlikdən icra məmurları bunun qarşısını ala biliblər. Amma sonda icra məmurlarının evə daxil olması mümkün olub. A. Qəşədərovanını əmlakı küçəyə çıxarılıb.

A. Qəşədərova övladları ilə birgə Sumqayıt Şəhər Polis İdarəsinin Post Patrul Xidmətinin əməkdaşları tərəfindən sakitləşdirilib və avtomobilə mindirilərək polis idarəsinə aparılıb.

Qeyd edək ki, Abdullayeva Şəlalə Yaqub qızı "Rabitəbank" ASC-dən 2008-ci ildə götürdüyü kreditin təminatı kimi Almara Qəşədərovanın mülkiyyətində olan Sumqayıt şəhəri, 4-cü məhəllə, ev 18/15, mənzil 8-i ipoteka ilə yüklü edib. Bundan vətəndaşın xəbəri olmayıb və dələduz əməllərinə görə Şəlalə Abdullayeva barəsində cinayət işi açılıb və A.Qəşədərova rəsmən zərər çəkmiş qismində tanınıb. 2/105/53/2011 saylı icra vərəqinə əsasən məhkəmə qərarı icraya yönəlmiş, həmin mənzil hərracda satılaraq bank tərəfindən alınıb.

"Rabitəbank" ASC həmin mənzili alqı-satqı müqaviləsi ilə Məmmədova Nailə Rüstəm qızına satıb və sonuncunun mənzilə mülkiyyət hüququ qeydiyyata alınıb. Mənzilin yeni mülkiyyətçisi mənzildən çıxarılma tələbinə dair məhkəmədə iddia qaldırıb və ərizəsi təmin edilərək icra sənədi üzrə icraata başlanılıb. Bu ərəfədə ona vurduğu maddi ziyana görə Şəlalə Abdullayevaya qarşı məhkəmədə iddia qaldırılıb və tələb təmin edilib, 43530 manat pulun cavabdehdən alınaraq ona verilməsi qət edilib.

YENİ MÜSAVAT
N 202 (6230) 12 sentyabr 2015

# Rayon maşınları Bakıya buraxılmasa....

## Dünyada bu qadağanın analoqu yoxdur, hökumət isə israr edir

**Rayon qeydiyyatında olan minik avtomobillərinin gündüz saatlarında Bakıya buraxılmaması ilə bağlı qayda şəhərin cənub və şimalında duracaqlar istifadəyə veriləndən sonra tam qüvvəyə minəcək, bu avtomobillər sentyabrın 15-dən Bakıya buraxılmayacaq.**

Bu barədə baş nazirin müavini Abid Şərifov bildirib. A.Şərifovun məlum açıqlamasından sonra qadağanın detalları və yarada biləcəyi fəsadlar müzakirə olunur.

Öncə qısa xatırlatma. A.Şərifov deyib ki, bəzi ekspertlər rayonlardan minik avtomobillərinin Bakıya yalnız axşam saatlarında gəlməsi ilə bağlı təklifi bəyənmirlər: "Amma bunun iqtisadi tərəfinə baxmaq lazımdı. Tutaq ki, köhnə "Jiquli" minik avtomobili ilə Bakıya gəlirik. Nə kondisioneri var, filan qədər benzin işlədir, amortizatordan isə danışılası deyil. Yayın istisində otururuq bu maşına, 3-4 uşaqla 4-5 saata Bakıya gəlirik. Halbuki o insanlar avtobusla paytaxta gəlsələr, bu qədər xərcə, əziyyətə düşməzlər. Avtobusla Bakıya gəlmək 2 dəfə ucuz başa gəlir. İkincisi, təhlükəsizlik ən önəmli məsələdir. Əhalisi Azərbaycanla müqayisə olunacaq istənilən Avropa ölkəsini, yaxud elə İsraili götürək. İsraildə 1 ildə avtomobil qəzasında 190-200 nəfər həyatını itirir, Azərbaycanda 1300 nəfər yol qəzalarının qurbanı olur, İsraillə müqayisədə 4 dəfə çox da insan isə xəsarət alır. Təəssüf ki, heç birimiz bunu düşünmürük. İnsan sağlamlığı hər şeydən önəmlidir".

**Yük avtomobillərinin axşam saatlarında paytaxta daxil olması barədə tələbə toxunan A. Şərifov qeyd edib ki, Bakıda yaşayanların 10 dəqiqəlik yolu 1 saata qət etməsi ciddi narahatlıq doğurur:** "Bakıda 3,5 milyon insan yaşayır, bəziləri evindən işə 10 dəqiqəlik yolu 1 saata gedir. Təcili yardım maşınlarının hərəkəti də mümkün olmur. Biz də deyirik ki, yük avtomobilləri Bakıya axşam saatlarında gəlsin. Axşam yolla hərəkət etməyin təhlükəli olduğunu deyirlər. Burada xətalı nə var? Mən burada problem görmürəm".

**Rayonlardan gələn, xəstə insanların olduğu minik avtomobillərinə gəlincə, A. Şərifov bildirib ki, yol polislərinə tapşırıq verilib ki, xəstə insanların olduğu minik avtomobillərinin Bakıya buraxılmasında heç bir problem olmasın:** "Bu sahədə heç bir problem ola bilməz. Sadəcə, ilk növbədə insanların sağlamlığını düşünməliyik. Bütün gün yollardakı problemlərdən danışırıq. Kim deyir ki, paytaxta giriş bağlıdır? Bu, səhv düşüncədir. Kim istəyir, minik avtomobili ilə axşam, ya da avtobusla gündüz gəlsin. Ya da minik avtomobilini şəhərin cənub, yaxud şimal çıxışında duracaqda qoyub, şəhərə avtobusla, metro, taksi ilə gündüz gəlsin. Bununla bağlı 3 duracaq olacaq, bu duracaqlardan 2-si sentyabrın 15-dək istifadəyə veriləcək. Bu duracaqda tam şərait var, duracaqlar pulsuz fəaliyyət göstərəcək. Avtobusla şəhərə gəlsinlər, işlərini görüb, geri qayıtsınlar. Bunun nəyi pisdir? Kimsə mənə izah edə bilərmi ki, biz kimisə narahat edirik? Sadəcə, insanların təhlükəsizliyini, rahatlığı barədə düşünürük".



A. Şərifov rayon qeydiyyatında olan minik avtomobillərinin gündüz saatlarında Bakıya buraxılmaması ilə bağlı tələbin sentyabrın 15-dən, duracaqlar istifadəyə veriləndən sonra tam qüvvəyə minəcəyini də nəzərə çatdırıb.

**Paytaxtlara pullu giriş var, amma qadağa...**

Əməkdaşımız dünya ölkələrinin təcrübəsində belə bir halın olub-olmaması ilə bağlı maraqlansa da, ortaya müvafiq nümunə çıxmayıb. Amma məlum olub ki, bəzi paytaxt şəhərlərinə daxil olmaya qadağa qoyulmasa da, bunun üçün ödəniş etmək lazımdır.

Belə ki, şəhərin mərkəzi hissəsinə daxil olmaq pulludur. Nyu-York, London, Paris, Roma kimi meqapolislərdə bu qayda tətbiq edilir. Roma bu sırada birincidir, burada bu metod 1994-cü ildən tətbiq olunur. Pullu zonalara girən və daxil olma haqqını (10 dollar) ödəməyən sürücü on dəfə çox (100 dollar) cərimə verməli olur.

Londonda bu sistem 2007-ci ildən tətbiq olunur. Şəhər rəsmilərinin açıqlamasına görə, bu, şəhərin mərkəzində maşınların sayını 15-20 faiz azaltmağa imkan verib.

2007-ci ildən etibarən bu qayda Amerikada ilk dəfə Nyu-Yorkun mərkəzində - Manhettendə tətbiq olunmağa başlayıb *(minik avtomobilləri üçün 10, yük avtomobilləri üçün 20 dollar)* və müsbət nəticələr verib. Amerikalı nəqliyyat mütəxəssisi Edmon Klark hesab edir ki, tıxacda qalan sürücü təkcə vaxtını yox, pulunu da itirir. Belə ki, Avropada hər sürücü tıxaca görə orta hesabla ildə 1000 dollarını itirir. Bundan başqa, tıxac həm də havanın daha çox çirklənməsi deməkdir. Tıxac vaxtı atmosfer adi vaxtlarda olduğundan 4.5 dəfə artıq zəhərli maddələrlə "zənginləşir".

Azərbaycanla bağlı hesablamalarda da vəziyyət o qədər yaxşı deyil. Məsələn, vaxtilə 100 km yol üçün 5 manatlıq benzin istifadə olunurdusa, indi bu pula 70-80 km yol gedilir.

Ekspertlərin hesablamasına görə, Bakı yollarında hər gün 40-50 min maşın hərəkət edir və tıxaclarda qalan avtomobil gün ərzində kifayət qədər çox benzin işlədir. Türkiyədə isə hər gün tıxacda qalan maşın 2-4 litrdən artıq benzin işlətməli olur.

## Pənah Hüseyn: "Yerlərdə belə rəy var ki, bu, hakimiyyətə qarşı ciddi təxribatdır və xaricdə hazırlanıb"

**Pənah Hüseyn: "Bu, əlavə korrupsiya yaradır"**

**Sabiq baş nazir Pənah Hüseyn isə hesab edir ki, hətta böyük bir kollektiv oturub müzakirə aparsaydı, hakimiyyətə bundan böyük narazılıq yaradacaq təklif düşünə bilməzdi. Müsahibimizin fikrincə, bu, qeyri-paytaxt sakinlərində ciddi narazılıq yaradacaq bir təklifdir. Üstəlik, bunun nəqliyyatdakı tıxac probleminə 0-dan yuxarı da təsiri olmayacaq:** "İndiki bahalıq, böhran, işsizlik vaxtı insanların həyəcanı, gərgin vəziyyətində bunu da icad edib, seçki dövründə ortaya qoymaq anlaşılan deyil. Biz buna ciddi etiraz edəcəyik. İnsanlarımıza bu cür münasibət qəbul olunan deyil. İnsanlar maşınını minib Ankaraya, Tiflisə, Moskvaya gedə bilir, Bakıya gələ bilmir? Bunun xəstəsi var, təhsil alanı var. İnsanların bəzi işləri, təxirəsalınmaz planları var ki, onlar iş saatlarında həyata keçən məsələlərdir. Bunun həyata keçirilməsi üçün də şəhərə girişi qadağan etmək ciddi maneədir. İndiki iqtidarın əvəzinə onun qayğısını çəkmirəm. Amma məəttəl qalıram, bu cür məntiqsiz qərarlardan. Onsuz da bu, baş tutan deyil. Nə qədər gec deyil bu qərarı ləğv eləmək lazımdır".

**P.Hüseyn dedi ki, bəzən "rayon maşınları Bakıya buraxılmayacaq" cümləsi yanlış anlaşılır. Müsahibimiz Sumqayıt, Gəncə, Şirvan.... kimi iri şəhərlərin də bu kateqoriyaya aid olduğunu xatırlatdı:** "Yenə də deyirəm ki, bunun tətbiq olunması mümkün deyil. Bunu müzakirə etdik. Bu, olduqca dəhşətli narazılıq enerjisi yaradacaq. Son dövrlər vətəndaşların hüquq-mühafizə orqanları əməkdaşlarına fiziki müdaxiləsi də bu narazılığın əlamətlərindən biridir. Bunun ciddi fəsadları olacaq.

Yerlərdə insanlarla ünsiyyətdə oluruq. Yerlərdə bunu indiki hakimiyyətə qarşı ciddi təxribat kimi qəbul edənlər də var. Hətta bunu indiki hakimiyyətə qarşı hazırlanmış xüsusi plan da adlandırırlar. Xaricdə hazırlandığı da iddia olunur".

**P.Hüseyn xatırlatdı ki, Avropa Oyunları zamanı bu qadağaya müəyyən qədər dözümlü münasibət oldu. Buna səbəb qadağanın müvəqqəti olması, böyük idman tədbiri ilə bağlı həyata keçirilməsi idi:** "Daha sonra bunu 10 gün də uzatdılar. Amma sonradan ona əməl edən olmadı. İndi deyirlər ki, xəstəsi olan paytaxta buraxılacaq. Bunu necə, hansı formada yoxlamaq mümkün olacaq? Dediyim kimi, bu, əlavə korrupsiya yaradır".

❑ **Sevinc TELMANQIZI**







# 23 min manatlıq dələduzluq...

## Gülnaz Səttarova: "Məni döyüb, təhdid etdilər ki, şikayətimi geri götürüm"

**Bakı şəhər sakini Gülnaz Səttarova Almas Qurbanova adlı bir qadın tərəfindən aldadılmasından və 23 min manat pul vəsaitinin həmin şəxs tərəfindən mənimsənilməsindən şikayətçidir.**

Məhkəmələrdə probleminin həllinə nail ola bilmədiyini deyən Gülnaz Səttarova "Yeni Müsavat"a üz tutmaqla məsələni ictimailəşdirmək istəyir.

Şikayətçi deyir ki, Qurbanova Almas Vəli qızı 2014-cü ildə ondan 23 min manat pul alıb. O zaman G.Səttarova "Xalqlar Dostluğu" ticarət mərkəzində satışla məşğul imiş. Almas Qurbanova onunla birgə işləyəcəkləri təqdirdə biznesini genişləndirməyə söz verib və 23 min manata Türkiyədən qadın geyimləri alıb gətirəcəyinə vəd verib. Gülnaz Səttarova "Xalqlar Dostluğu" ticarət mərkəzində öz yerinin bir hissəsini ona verib, birgə işləmək qərarına gəliblər. Qohumlarından, yaxınlarından borc pul tapıb Almas Qurbanovaya verib, lakin bir müddət keçdikdən sonra G.Səttarova aldadıldığını bilib.

**Şikayətçi başına gələnləri belə danışır:** "2014-cü ilin may ayından noyabr ayına kimi Almas Qurbanovaya hissə-hissə ümumilikdə 23 min manat verdim. Almas Qurbanovanın oğluna isə ayrı-ayrılıqda müxtəlif vaxtlarda 2500 manat və 1400 manat vermişəm. 19700 manat isə Almas Qurbanovaya verdim. Məni inandırmaq üçün qızıl və 100 sot-a yaxın torpaq sənəti girov qoymuşdu. Mənə dedi ki, narahat olma, sənin pulunu mənimsəmərəm. Oğlu Şaiq Qurbanov Suraxanıda polis əməkdaşı işləyir. Gəlib mənimlə də görüşdü. Dedi ki, sənin pulunu verəcəyik, işimiz alınmır, ona görə də qalıb. Füzuli rayonunda evim var, onu satmağa gedirəm. Məndə olan qızılları, torpaqların sənədlərini də aldı. Dedi ki, lombardda aparım satım, sənin pulunu verim. Mən də inandım, qızılları verdim".

**Şikayətçi deyir ki, Almas Qurbanovanın dələduz olması ağlına gəlməzdi:** "Almas Qurbanova məni inandırmaq üçün öz evinə apardı, ailəsi ilə tanış elədi. Oğlu Şaiq Qurbanov mənə dedi ki, narahat olma, özüm 2000 manat maaş alıram. Anam verə bilməsə, sənin borcunu özüm qaytaracağam. Əgər biz dələduz olsaq min manat pul alıb qaçarıq, sənə evimizi göstərmərik. Malların gəlişində bir az problemlər yaranıb, ancaq borcundan narahat olma".

**G. Səttarova məhkəməyə müraciət etdiyini və A. Qurbanovanın həbs edildiyini deyir:** "2015 -cı ilin iyun ayında polisə müraciət etdim və 178.3-cü maddə ilə dələduzluq etdiyinə görə Almas Qurbanovanı həbs etdilər. Bu zaman Validə Dəmirova adlı şəxs mənə zəng elədi və niyə şikayət etdiyimi dedi. Mənə dedi ki, gərək polisə şikayət etməzdin. Mənə yaxınlaşardın, mən onların başçısıyam, sənin pulunu alıb verərdim. Bu söhbətlərdən sonra Almas Qurbanovanın adamları gecə zorla evimə soxuldular. Evdə heç kim yox idi. 3 nəfər içəri girdilər, məni döydülər, əllərimi bağladılar. Mənə dedilər ki, Apelyasiya Məhkəməsində şikayətini geri götür, əks halda, səni, oğlunu, həyat yoldaşını öldürəcəyik. Heç kimə bu haqda heç nə demə. Səhəri gün məhkəmədə Almas Qurbanovanın həbsini istəmədiyimi, lakin 23 min manat vəsaiti geri verməsini tələb etdim. Almas Qurbanova azadlığa çıxandan sonra yenə də pulumu tələb etdim. Lakin A.Qurbanova indi mənim tələbimə məhəl qoymur. Məhkəmələrə pul verdiyini deyir. Mənə deyir ki, sənin ucbatından məhkəmələrə nə qədər pul tökmüşəm, get, pulunu məhkəmələrdən al".

Şikayətçi Almas Qurbanovanın onunla yanaşı, 18 nəfəri də aldatdığını və müxtəlif yollarla pullarını mənimsədiyini deyir.

G. Səfərova problemini mətbuatda işıqlandırmaqla məsələyə aidiyyəti qurumların diqqətini cəlb etməyə çalışdığını deyir.

Qarşı tərəfin də mövqeyini öyrənmək üçün yazıda adıçəkilən Almas Qurbanova ilə əlaqə saxladıq. A. Qurbanova məhkəmənin lazım olan qərarı verdiyini deyərək danışmaqdan imtina etdi.

❑ **M.MƏCİDLİ**

YENİ MÜSAVAT

Son səhifə

N 202 (6230) 12 sentyabr 2015



# İnsanın yeni əcdadı kəşf edilib

**Afrikadakı bir mağarada daha əvvəl varlığı bəlli olmayan insana bənzər bir növün qalıqları tapılıb. Yeni insan növünə alimlər "Homo Naledi" adını verib-lər.**

Johannesburg şəhəri yaxınlığındakı mağaradan 15 fərqli bədənə aid 1500 mumiyalanmış skelet tapılıb. Vitvatersrand Universitetində araşdırma aparan professor Lee Berger "Sizə insanın atasının yeni növünü tanıtdığım üçün özümü xoşbəxt hiss edirəm" deyib. İnsan tarixinin başlanğıcı üçün dönüş nöqtəsi olan kəşf hər kəsin diqqət mərkəzindədir. İnsan növünün tapıldığı mağaraya "Homo Naledi" adı verilib. "Naledi" Afrikadakı bir tayfanın dilindən tərcümədə "ulduz" deməkdir.

Mütəxəssislərin sözlərinə görə, yeni insan növünün biləkləri və ayaqları müasir insana bənzəyir. Üst bədən ölçüləri isə daha qədim insanlara bənzəyir. Araşdırmalar nəticəsində məlum olub ki, Homo Naledinin boyunun hündürlüyü 150 santimetrdir. Beyni portağal böyüklüyündədir və ağırlığı 45 kiloqrama çatır.

# Dünyanın ən sürətli tısbağası

**Saniyədə 8 santimetr yol qət edən Bertie adlı tısbağa dünyanın ən sürətli tısbağası olaraq "Ginnesin rekordlar kitabı"na düşüb. İngiltərənin Durham şəhərində yaşayan Janine və Marco Kalzini cütlüyünün tısbağası görənləri heyrətə salır. Evdə davamlı olaraq yeridilən tısbağa 5,8 metrlik məsafəni 19,59 saniyədə qaçaraq "dünyanın ən sürətli tısbağası" adını qazanıb. Daha əvvəlki rekord 1977-ci ildə yenə İngiltərədə qırılmışdı. O zaman tısbağa saniyədə 12,5 santimetr yol gedə bilirdi.**



Kalzini cütlüyü rekordu yenilərnək üçün Çarli adlı tısbağanı uzun müddət əhliləşdiriblər. Bir neçə il əvvəl onlara hədiyyə edən tısbağanın çox sürətli olduğunu deyən cütlük onun sürəti qarşısında hər kəsin təəccübləndiyini deyib.

# Məşhur musiqiçidən qızlarına əcaib vəsiyyət

**Populyar "The Rolling Stones" qrupunun gitaraçısı Kit Riçards qızlarına əcaib vəsiyyət edib. "Onlar istəsələr, öləndən sonra yandırılmış cəsədimin küllərini iyləyə bilərlər. Teodora və Aleksandra belə fikrə düşsələr, etiraz etmərəm. Hətta onlara yardım edərəm", - Kit Riçards deyib.**

71 yaşlı gitaraçının 59 yaşlı xanımı Patti Hansendən 30 yaşlı Teodora və 28 yaşlı Aleksandra adlı iki qızı var. 2007-ci ildə bəlli olmuşdu ki, Kit Riçards atasının yandırılmış cəsədinin külünü kokainlə qarışdıraraq burnuna çəkib.

"Atam yandırılmışdı və onu bir qədər iyləmək istəyindən vaz keçə bilmədim. Yaxşı alındı. Hələ də sağam", - o zaman gitaraçı demişdi. Kit Riçards sürəkli kokain qəbul edib və bunun nəticəsində 2006-cı ildə Fici adasında ağacdan yıxılmışdı. Beyni silkələndiyi üçün neyrocərrahiyyə əməliyyatına məruz qalan musiqiçi heroini tərgidib. O, 1978-ci ildən bəri heroin qəbul etmədiyini də deyib. Mik Caqqerlə birlikdə "The Rolling Stones"un "bel sütunu" olan Kit Riçards İngiltərənin Susseks qraflığında yaşayır (milli.az).






# Facebook dostlarını dəfninə çağırdı

**Meksikada 20 yaşlı gənc facebook sosial şəbəkəsindəki dostlarını cənazəsinə dəvət edərək intihar edib. Lakin dostları onun bu mesajını ciddi qəbul etməyib. Leonel Padilla Çavez adlı gənc feecbook profilində "Rahat yat" yazıb. Daha sonra isə "Dostlar, mən sizdən ayrılıram. Cənazəmin üstünə mütləq gəlin" deyə yazıb.**

Statusları paylaşdıqdan bir neçə saat sonra Çavezin cəsədi boş bir ərazidə tapılıb. Dostları onun bu mesajını ciddi qəbul etmədiklərini və sadəcə, bəyəndiklərini deyibler. Məlumatlara görə, Çavez intihar etməzdən əvvəl sevgilisi ilə mübahisə edib. Sevgilisi isə ondan polisə şikayət edib.

# Qoroskop (12 sentyabr)




QOÇ - Ciddi fiziki işlərə və işgüzar sövdələşmələrə həvəs göstərməyin. Əks təqdirdə, gərginliklə üzləşəcəksiniz. Yaxşı olar ki, nahardan sonranı bütünlüklə gəzinti və qonaqlıqlara həsr edəsiniz.

BUĞA - Fəaliyyət göstərdiyiniz idarə və ya müəssisələrdə xırda narazıçılıqla üzləşsəniz də bu, ötəri xarakter daşıyacaq. Əslində Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş olacağını bildirir.

ƏKİZLƏR - Ürəyiniz istəsə, bu təqvimi maraqlı və füsunkar tərzdə başa vura biləcəksiniz. Büdcənizdə artım olduğu təqdirdə axşam səfərə çıxmağa dəyər. Axı sizin üçün darıxanlar çoxdur!

XƏRÇƏNG - Şübhə ilə yanaşdığınız adamların məsləhətlərinə qulaq asmayın. Bütün qərarları yalnız özünüz verin. Saat 16-dan sonra maraqlı qonaqlıqlar yolunuzu gözləyir. Bundan imtina etməyin.

ŞİR - Mühüm işlərinizin həllini həftəsonuna saxlayın. Onsuz da bu gün belə planlarınızın reallaşma ehtimalı azdır. Ulduzlar süstlüyünüzü nəzərə alıb istirahət etməyinizi məsləhət görür.

QIZ - Dünəndən mənfi yüklü Ay bürcünüzə daxil olsa da, ətrafınızda olan insanlarla birlikdə özünüzü gümrah hiss edəcəksiniz. Sevgi münasibətlərindəki kobudluğu aradan qaldırın. Müqəddəs yerlərə gedin.

TƏRƏZİ - Qarşınızda böyük perspektivlər durur. Lakin situasiyaları real qiymətləndirməməyiniz ucbatından aktivlik göstərə bilmirsiniz. Hər xırda məsələyə görə əsəbləşməyiniz əbəsdir.

ƏQRƏB - Əsas diqqəti fəaliyyətə yönəltsəniz, günün ümumi mənzərəsindən razı qalacaqsınız. Danışıqları ciddi və məsuliyyətini dərk edən adamlarla aparın. Tamahkarlığa meyl etməyin!

OXATAN - Təxminən saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə ola bilər. Buna görə məyus olmağa dəymaz. Çünki sonrakı müddətdə ciddi problemləriniz olmayacaq. Qazanmaq ehtimalınız da var.

OĞLAQ - Pulla bağlı bütün planlarınızı təxirə salın. Çünki astroloji göstəricilər bu təqvimdə maliyyə uğursuzluqlarından xəbər verir. Həmkarlarınızla əsəbi davranışa meyl etməyin.

SUTÖKƏN - Ətrafınızda baş verən hadisələr o qədər də ürəyinizcə deyil. Bu, daxilən sizi sıxsa da, çıxış yolu tapa bilmirsiniz. Odur ki, ulduzlar gəzintiyə və ya səfərə çıxmağınızı tövsiyə edir.

BALIQLAR - Ulduzların düzümü şəxsi büdcənizdə bir qədər artım olacağından xəbər verir. Odur ki, əsas enerjinizi məhz deyilən istiqamətdə nizamlamalısınız. Gözlənilməz təkliflərə əməl etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dövlətin xəzinəsini oğurladılar



**Misirin dövlət xəzinəsindən qızıl oğurlanması haqda çıxan xəbərləri hər kəs təəccüblə qarşılayıb. Maliyyə naziri Hani Kadir isə iştirak etdiyi televiziya proqramında bu xəbərləri təsdiqləyib. Məlumatlara görə, dövlət xəzinəsinin saxlanıldığı böyük kassa xüsusi açarlarla açılıb. Oğrular qeyri-adi oğurluq törətsələr də özləri ilə bağlı xüsusi izlər qoyublar. Digər tərəfdən, dövlət xəzinəsində 50 kiloqram ağırlığında külçə oğurlayan oğruların tapılması üçün xüsusi qrup yaradılıb.**

Xatırladaq ki, buna bənzər oğurluqlar 2011-ci ildə Qahirə Muzeyində və fərqli dövlət qurumlarında baş vermişdi.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300